# SONSUZLUQ ARTIQ BAŞLAMIŞDIR

**HARUN YƏHYA**

**(ADNAN OKTAR)**

Bu kitabda istifadə edilən ayələr Əlixan Musayevin hazırladığı
"Qurani-Kərim"in məali kitabından götürülmüşdür.

**www.harunyahya.org - www.harunyahya.net**

# İçindəkilər

| | |
|---|---|
| | **səh** |
| **Oxucuya** | **4** |
| **Müəllif və əsərləri haqqında** | **5** |
| **Giriş** | **7** |
| **Maddənin Ardındakı Sirr** | **8** |
| **Zamansızlıq Həqiqəti** | **35** |
| **Sonsuzluq Başlamışdır** | **46** |
| **Nəticə** | **67** |
| **Əlavə bölmə: Təkamül xətası** | **71** |
| **Qeydlər** | **87** |

## OXUCUYA

•Bu kitabda və digər əsərlərimizdə təkamül nəzəriyyəsinin süqutuna xüsusi yer ayrılmasının səbəbi bu nəzəriyyənin hər cür din əleyhinə fəlsəfənin əsasını təşkil etməsidir. Yaradılışı və dolayısı ilə Allahın varlığını inkar edən Darvinizm 150 ildir ki bir çox insanın imanını itirməsinə və ya şübhəyə düşməsinə səbəb olmuşdur. Ona görə bu nəzəriyyənin yalan olduğunu insanlara göstərmək çox mühüm imani vəzifədir. Bu mühüm xidmətin bütün insanlara çatdırılması isə vacibdir. Bəzi oxucularımızın bəlkə bircə kitabımızı da oxuma imkanı yoxdur. Bu səbəbdən hər kitabımızda bu mövzuya xülasə şəklində də olsa bir bölmə ayrılmışdır.

•Kitabların məzmunu ilə bağlı digər cəhəti də nəzərə çatdırmaq lazımdır. Müəllifin bütün kitablarında imani mövzular, Quran ayələri cəhətindən izah edilir, insanlar Allahın ayələrini öyrənməyə və yaşamağa dəvət olunurlar. Allahın ayələri ilə bağlı bütün mövzular oxuyanın ağlında heç bir şübhə və ya sual doğurmayacaq şəkildə açıqlanır.

•Buradakı izahlarda istifadə edilən səmimi, sadə və axıcı üslub isə kitabların hər kəs tərəfindən asanlıqla başa düşülməsini təmin edir. Bu təsirli və sadə izah sayəsində kitablar "bir nəfəsdə oxunan kitablar" ifadəsinə tamamilə uyğun gəlir. Dini qətiyyətlə rədd edən insanlar belə bu kitablarda izah edilən həqiqətlərdən təsirlənir və izah edilənlərin doğruluğunu inkar etmirlər.

•Bu kitab və müəllifin digər əsərləri oxucular tərəfindən fərdi şəkildə olduğu kimi, qarşılıqlı söhbət mühitində də oxuna bilər. Bu kitablardan istifadə etmək istəyən bir qrup oxucunun kitabları birlikdə oxumaları mövzu ilə bağlı öz fikir və təcrübələrini bir-birlərilə paylaşmaları baxımından faydalı olar.

•Bununla yanaşı sadəcə Allah rizası üçün yazılmış bu kitabların tanınmasına və oxunmasına kömək etmək də böyük xidmət olar. Çünki müəllifin bütün kitablarında sübut və inandırma son dərəcə güclüdür. Bu səbəbdən dini izah etmək istəyənlər üçün ən təsirli üsul bu kitabların digər insanlar tərəfindən də oxunmasına sövq etməkdir.

•Kitabların arxasına müəllifin digər əsərlərinin təqdimatının əlavə edilməsinin isə mühüm səbəbləri var. Bu sayədə kitabı əlinə alan şəxs yuxarıda bəhs etdiyimiz xüsusiyyətləri daşıyan və oxumaqdan zövq aldığını ümid etdiyimiz bu kitabla eyni vəsflərə malik olan daha bir çox əsər olduğunu görəcəkdir. İmani və siyasi mövzularda faydalanacağı zəngin mənbə toplusunun mövcud olduğuna şahid olacaqdır.

•Bu əsərlərdə digər bəzi əsərlərdə görünən, müəllifin şəxsi qənaətlərinə, şübhəli mənbələrə əsaslanan izahlara, müqəddəs şeylərə qarşı ədəbə və hörmətə diqqət verilməyən üslublara, narahatlıq verən ümidsiz, şübhəli və ümidsizliyə sürükləyən izahatlara rast gələ bilməzsiniz.

# MÜƏLLİF VƏ ƏSƏRLƏRİ HAQQINDA

Harun Yəhya təxəllüsündən istifadə edən Adnan Oktar 1956-cı ildə Ankarada doğulub. İbtidai, orta və lisey təhsilini Ankarada bitirib. Sonra İstanbul Memar Sinan Universiteti Gözəl Sənətlər Fakültəsində və İstanbul Universiteti Fəlsəfə Bölməsində təhsil alıb. 1980-ci ildən başlayaraq imani, elmi və siyasi mövzularda bir çox əsər hazırlayıb. Bununla yanaşı, müəllifin təkamülçülərin saxtakarlıqlarını, iddialarının etibarsızlığını və Darvinizmin qanlı ideologiyalarla olan qaranlıq əlaqələrini ortaya çıxaran çox əhəmiyyətli əsərləri vardır.

Harun Yəhyanın əsərləri təxminən 30.000 şəkildən ibarət olan 45.000 səhifəlik bir külliyyatdır və bu külliyyat 60 dilə tərcümə edilmişdir.

Müəllifin təxəllüsü inkarçı düşüncəyə qarşı mübarizə aparan iki peyğəmbərin - Harun və Yəhyanın adlarını yad etmək, xatirələrinə hörmət məqsədilə götürülmüşdür. Müəllif tərəfindən kitabların üz səhifəsində Rəsulallahın möhüründən istifadə edilməsinin simvolik mənası isə kitabların məzmunu ilə əlaqədardır. Bu möhür Qurani-Kərimin Allahın son kitabı və son sözü, Peyğəmbərimizin (s.ə.v.) də xatəmül ənbiya olmasının rəmzidir. Müəllif nəşr etdirdiyi bütün əsərlərində Quranı və Rəsulallahın sünnəsini özünə rəhbər etmişdir. Bununla da, inkarçı düşüncə sistemlərinin əsas iddialarını və dinə qarşı yönəldilən etirazları susdurmaq üçün "son söz"ü deməyi hədəfləmişdir. Çox böyük bir hikmət və kamal sahibi olan Rəsulallahın möhüründən bu niyyətin bir duası olaraq istifadə edilmişdir.

Müəllifin bütün əsərlərindəki əsas hədəf Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə insanları Allahın varlığı, birliyi və axirət kimi əsas imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin çürük təməllərini və azğınca tətbiq olunmalarını göstərməkdir.

Harun Yəhyanın əsərləri Hindistandan Amerikaya, İngiltərədən İndoneziyaya, Polşadan Bosniya-Hersoqovinaya, İspaniyadan Braziliyaya, Malaziyadan İtaliyaya, Fransadan Bolqarıstana və Rusiyaya qədər dünyanın bir çox ölkəsində bəyənilərək oxunur. İngiliscə, fransızca, almanca, italyanca, ispanca, portuqalca, urduca, ərəbcə, albanca, rusca, boşnakca, uyğurca, indoneziyaca, malayca, benqalicə, serbcə, bolqarca, çincə, kişvahilcə (Tanzaniyada istifadə edilir), hausaca (Afrikada geniş şəkildə istifadə edilir), dhivelhicə (Mauritusda istifadə edilir), danimarkaca və isveççə kimi bir çox dillərə tərcümə edilən əsərlər xaricdə geniş oxucu kütləsi tərəfindən qəbul edilmişdir.

Dünyanın hər yerində maraqla qarşılanan bu əsərlər bir çox insanın iman etməsinə, bir çoxunun da imanında dərinləşməsinə vəsilə olmuşdur. Kitabları oxuyan,

araşdıran hər adam bu əsərlərdəki hikmətli, asan aydın olan və səmimi üslubun, ağıllı və elmi yanaşmanın fərqinə varır. Bu əsərlər sürətli təsir etmə və qəti nəticə vermə xüsusiyyətlərinə malikdir. Əsərləri oxuyan və üzərində ciddi şəkildə düşünən insanların artıq materialist fəlsəfəni, ateizmi və digər azğın dünyagörüşlərin heç birini səmimi olaraq müdafiə etmələri mümkün deyil. Bundan sonra müdafiə etsələr belə, ancaq romantik bir inadla müdafiə edə bilərlər. Hal-hazırda bütün inkarçı cərəyanlar Harun Yəhya külliyyatı qarşısında fikrən məğlub olmuşlar.

Şübhəsiz, bu xüsusiyyətlər Quranın hikmət və izahatlarının möhtəşəmliyindən qaynaqlanmışdır. Müəllif bu əsərləri ilə yalnız Allahın hidayətinə vəsilə olmağı niyyət etmişdir. Bundan başqa, bu əsərlərin nəşr olunmasında heç bir maddi mənfəət nəzərdə tutulmamışdır.

Bu həqiqətlər düşünüldüyü zaman insanların görmədiklərini onlara göstərən, hidayətlərinə vəsilə olan bu əsərlərin oxunmasını təşviq etməyin də çox əhəmiyyətli bir xidmət olduğu ortaya çıxır.

Bu qiymətli əsərləri tanıtmaq yerinə, insanların zehinlərini qarışdıran, fikri qarışıqlıq meydana gətirən, şübhə və tərəddüd yaradan, imani məsələdə güclü və kəskin təsiri olmayan, ümumi təcrübəyə əsaslanan kitabları yaymaq isə əmək və zaman itkisinə səbəb olacaq. Bu mövzuda şübhəli olanlar Harun Yəhyanın əsərlərinin məqsədinin dinsizliyi aradan qaldırmaq və Quran əxlaqını yaymaq olduğunu, bu xidmətdəki təsir, müvəffəqiyyət və səmimiyyətin açıqca göründüyünü oxucuların ümumi qənaətindən anlaya bilərlər.

Bilinməlidir ki, dünyadakı zülm və qarışıqlıqların, müsəlmanların çəkdikləri əziyyətlərin əsas səbəbi dinsizliyin fikri hakimiyyətidir. Bunlardan xilas olmağın yolu isə dinsizliyin fikrən məğlub edilməsi, iman həqiqətlərinin ortaya qoyulması və Quran əxlaqının insanların qavrayıb yaşaya biləcəkləri şəkildə izah edilməsidir. Dünyanın gündən-günə daha çox artan zülm, fəsad və qarışıqlıq mühitində bu xidmət daha sürətli və təsirli bir şəkildə edilməlidir. Əks halda çox gec ola bilər.

Bu əhəmiyyətli xidmətdə əsas rolu öz üzərinə götürmüş Harun Yəhya külliyyatı Allahın iznilə XXI əsrdə dünyadakı bütün insanları Quranda təsvir edilən rahatlığa və sülhə, düzgünlüyə və ədalətə, gözəlliyə və xoşbəxtliyə aparan bir vəsilə olacaq.

# GİRİŞ

“Sonsuzluq” sözü sizin üçün nə ifadə edir?

Sonsuz zaman dedikdə, insanların ağlına yüz min il, bir milyon il və ya bir milyard il kimi rəqəmlər gəlir. Bu müddətlərin çox uzun olduğunu, əsla tükənməyəcəyini düşünürlər. Sonsuz uzaqlıq dedikdə, yenə də ağıllarına yüz min işıq ili, bir milyon işıq ili və ya bir milyard işıq ili kimi uzaqlıqlar gəlir.

Halbuki bunlar son dərəcə məhdud düşüncə və anlayışlardır. Belə bir misalla sonsuzluğun nə dərəcədə fövqəladə bir böyüklük olduğunu vurğulaya bilərik: Yüz katrilyon insan olsa, bütün həyatları boyunca gecə-gündüz heç dayanmadan saysalar, üstəlik yüz katrilyon il ömürləri olsa və ömürləri boyunca başqa heç bir iş görmədən bu işlə məşğul olsalar, yenə də sonsuzluğa çata bilməzlər. Çünki sonsuzluq heç bitməyəcək, əvvəli və sonu olmayan bir zamanı bildirir.

Allah elə böyük bir elmə malikdir ki, insan üçün "sonsuz" olan və əsla hesablamağa güc yetirə bilməyəcəyi bu anlayış Allahın Qatında sona çatmışdır. Bizim üçün sonsuzluq əsla çata bilmədiyimiz bir anlayış kimi görünür, amma əslində Allah Qatında sonsuzluq bir andan ibarətdir…

Əlinizdəki kitabda sonsuzluq, zamansızlıq, məkansızlıq mövzularına aid heç bir yerdə tapa bilməyəcəyiniz şərhləri görəcək və sonsuzluğun əslində başladığına dair son dərəcə əhəmiyyətli həqiqətlərlə qarşılaşacaqsınız. Beləcə Allahın ucalığını, böyüklüyünü və yaratma sənətini bir daha təqdir etmə fürsəti tapacaqsınız. İnsanları hər zaman maraqlandıran sualların (Allahın harada olduğu, ölümün mahiyyəti, öldükdən sonra yenidən dirilmə, insan üçün sonsuz bir həyatın varlığı, bütün bunların nə vaxt olacağı) cavablarını da tapacaqsınız.

Amma bütün bunlara keçməmişdən əvvəl, izah edəcəyimiz mövzuların rahatlıqla qavranılması üçün yaşadığımız dünyadakı "maddənin əsl mahiyyəti" və "zamansızlıq" mövzuları ətraflı şəkildə araşdırılacaq.

# MADDƏNİN ARDINDAKI SİRR

XƏBƏRDARLIQ

Oxuyacağınız bu kitab həyatın ÇOX

ƏHƏMİYYƏTLİ sirlərini ehtiva edir. Maddi dünyaya, zaman anlayışına və sonsuzluğa

baxışınızı dəyişdirəcək bu

mövzuları diqqətlə və anlayaraq oxumalısınız. Burada izah ediləcək mövzular yalnız bir dünyagörüş, fərqli yanaşma tərzi və ya hər hansı bir fəlsəfi düşüncə deyil, dinə inanan-inanmayan hər kəsin qəbul edəcəyi, bu gün elmin də sübut etdiyi bir həqiqətdir.

## ƏHƏMİYYƏTLİ ŞƏRH

### MADDƏNİN ardındakı SİRR MÖVZUSU

### "vəhdəti-Vücud" deyil

Maddənin ardındakı sirr mövzusu bəzi insanların etirazına səbəb olmuşdur. Bu insanlar bunu səhv anladıqları üçün bu mövzunun vəhdəti-vücud təlimi ilə eyni olduğunu iddia edirlər.

Əvvəlcə qeyd edək ki, bu əsərlərin yazıçısı əhli-sünnə inancına möhkəm bağlıdır və vəhdəti-vücud təlimini müdafiə edir. Ayrıca unutmamaq lazımdır ki, vəhdəti-vücud təlimi Muhyiddin ibn Ərəbi kimi çox böyük İslam alimi tərəfindən müdafiə olunmuşdur.

Vəhdəti-vücud düşüncəsini izah edən bir çox İslam aliminin keçmişdə bu kitablarda olan bəzi mövzuları izah etdikləri doğrudur. Ancaq bu əsərlərdə izah edilənlər vəhdəti-vücud düşüncəsi ilə eyni deyil.

Məsələn, vəhdəti-vücud düşüncəsini müdafiə edənlərin bir qismi Qurana və əhli-sünnə inancına zidd olan bəzi iddialar etmişlər. Məsələn, Allahın yaratdığı varlıqları tamamilə yox saymışlar. Halbuki, maddənin ardındakı sirr mövzusu izah edilərkən qətiyyən bu cür iddialara yer verilmir. Bu mövzu Allahın bütün varlıqları

yaratdığını, ancaq yaratdığı varlıqların əslini Allahın gördüyünü, insanların isə bu varlıqların beyinlərində yaranan görüntülərini görə bildiklərini açıqlayır.

Gördüyümüz bütün varlıqlar, dağlar, düzənliklər, çiçəklər, insanlar, dənizlər, qısacası hər şey Allahın Quranda yoxdan var etdiyini ifadə etdiyi hər varlıq yaradılmışdır və mövcuddur. Ancaq insanlar bu varlıqların əslini duyğu orqanları vasiləsilə görə bilməz, hiss edə bilməz və ya eşidə bilməzlər. Gördükləri və hiss etdikləri bu varlıqların beyinlərindəki kopiyalarıdır. Bu elmi bir həqiqətdir və bu gün başda tibb fakültələri olmaqla bütün məktəblərdə öyrədilən elmi bir mövzudur. Məsələn, bu anda bu yazını oxuyan bir insan bu yazının əslini görə bilməz, bu yazının əslinə toxuna bilməz. Bu yazının əslindən gələn işıq insanın gözündəki bəzi hüceyrələr tərəfindən elektrik siqnalına çevrilir. Bu elektrik siqnalı beyinin arxasındakı görmə mərkəzinə gedərək, bu mərkəzi xəbərdar edir və insanın beyninin arxasında bu yazının görüntüsü meydana gəlir. Yəni siz bu anda gözünüzlə, gözünüzün önündəki bir yazını oxumursunuz. Bu yazı sizin beyninizin arxasındakı görmə mərkəzində meydana gəlir. Sizin oxuduğunuz yazı beyninizin arxasındakı "kopiya yazı"dır. Bu yazının əslini isə Allah görür.

Nəticə olaraq, maddənin beynimizdə yaranan bir xəyal olması, onun olmaması mənasına gəlməz. Ancaq bizə hiss etdiyimiz maddənin mahiyyəti haqqında məlumat verər ki, bu da maddənin əsli ilə heç bir insanın əlaqədə ola bilməməsi həqiqətidir.

Kənarda Maddə Var, Ancaq Biz Maddənin Əslinə Çata bilmərik!

Maddə xəyaldır demək, maddənin olmaması mənasına gəlməz. Əksinə, biz görsək də, görməsək də maddi bir dünya vardır. Ancaq biz bu dünyanı beynimizin içində bir kopiya olaraq, başqa sözlə desək, hisslərimizlə görürük. Bu səbəbdən maddə bizim üçün xəyaldır. Kənarda maddənin varlığını bizdən başqa görən varlıqlar da vardır. Allahın mələkləri, yazıçı olaraq təyin etdiyi elçiləri də bu dünyaya şahidlik edirlər:

**Sağında və solunda iki (mələk) oturub (onun əməllərini qeydə alır.) Dediyi elə bir söz yoxdur ki, (onu yazmaq üçün) yanında hazır durmuş gözətçi olmasın. (Qaf surəsi, 17-18)**

Hər şeydən vacibi odur ki, Allah hər şeyi görür. Bu dünyadakı hər şeyi Allah yaratmışdır və yaratdığı hər şeyi də O görür. Quran ayələrində belə xəbər verilir:

... **Allahdan qorxun və bilin ki, Allah sizin nə etdiklərinizi görür. (Bəqərə surəsi, 233)**

**De: “Mənimlə sizin aranızda Allahın şahid olması yetər. Həqiqətən, O, qullarından Xəbərdardır, (nə etdiklərini) Görəndir”. (İsra surəsi, 96)**

Bundan başqa, unutmamaq lazımdır ki, Allah bütün hadisələri "Lövhi-Məhfuz" adlı kitabda yazılı şəkildə saxlayır. Biz görməsək də bunların hamısı Lövhi-Məhfuzda vardır. Hər şeyin Allahın Qatında Lövhi-Məhfuz adlandırılan "Ana Kitab"da saxlandığı bu şəkildə bildirilir:

**Şübhəsiz ki, o, yanımızdakı Ana Kitabdandır. O, ucadır, hikmətlə doludur. (Zuxruf surəsi, 4)**

**... Bizdə (hər şeyi) qoruyan bir Kitab (Lövhi-məhfuz) vardır. (Qaf surəsi, 4)**

**Göydə və yerdə elə bir gizli şey yoxdur ki, açıq-aydın Yazıda (Lövhi-məhfuzda) olmasın. (Nəml surəsi, 75 )**

## MADDƏNİN ƏSLİ

Kitabın əsas hissəsini təşkil edən "maddənin əsl xüsusiyyəti" anlayışı əsli bilindiyi təqdirdə insanın həyata dünyagörüşünü və həyatını dəyişdirə biləcək bir həqiqətdir. Həyatınızın mənasını, gələcəkdən gözlədiklərinizi, ideallarınızı, tələblərinizi, planlarınızı, dəyər verdiyiniz anlayışları, sahib olduğunuz maddi şeyləri əhatə edən bir mövzudur.

Bu hissədə bəhs ediləcək "maddənin əsli" mövzusu, əlbəttə, bu gün ilk dəfə təhlil olunan mövzu deyil. Tarixən bir çox filosof və elm adamı arasında mübahisə və müzakirə edilən bir anlayış olmuşdur. İnsanlar bu mövzuda əvvəldən iki qrupa ayrılmışdılar: materialistlərin daxil olduğu birinci qrup maddənin mütləq varlıq olduğunu sanaraq fəlsəfələrini və həyatlarını bunun üzərinə qurmuş və özlərini aldadaraq yaşamışlar. İkinci qrup isə səmimi davranmış, düşünməkdən qorxmayaraq daha da irəli getmiş və əlaqədə olduqları "şey"lərin əslini və ardındakı dərin mənasını qavrayaraq həyatlarını davam etdirmişlər. Ancaq yaşadığımız əsrdə inkişaf edən elm və texnologiya artıq bu mövzuya son nöqtəni qoymuş və onsuz da məlum olan bir həqiqəti, yəni maddənin əsli ilə əlaqədə olmağımızın mümkün olmadığını mübahisəsiz bir şəkildə isbat etmişdir.

Mövzunun əhəmiyyəti insanın bütün həyatına təsir etməsindədir. Çünki hər insanın məhdud bir həyat müddəti vardır və bu müddət ərzində Allah onu sınayır. Bu müddətdən sonra isə adam dünyada seçdiyi yolun, göstərdiyi əxlaqın və rəftarın əvəzini alacaq, qazandıqları ilə sonsuz həyatı müəyyən olunacaq. Bu isə aşağıdakı mənanı verir: Dünyada hansı həyatı seçmişsə, sonsuz həyatında da onun əvəzini görəcək, səhvlərini bir daha düzəltmək imkanı tapa bilməyəcək.

Bu şüurla düşünüldüyündə, insanların dünyadakı həyat müddətlərinin nə dərəcə qiymətli olduğu aydın olur. Kitab boyunca işləyəcəyimiz mövzunun əhəmiyyəti də bundan qaynaqlanır. Madam ki, hər insanın qısa bir imtahan müddəti vardır və göstərdiyi əxlaqın əvəzini sonsuz həyatında alacaq, o halda heç şübhəsiz bu müddəti ən ağıllı şəkildə dəyərləndirməlidir. Əgər bunu etməzsə, sonrakı peşmanlıq əsla fayda verməyəcək.

Bu kitabın məqsədi insana ayədə bildirildiyi kimi "**tək-tənha**" (Ənam surəsi, 94) Allahın hüzuruna gedəcəyi "o gün" geri dönülməz bir peşmanlığa qapılmadan əvvəl köməkçi olmaqdır.

Bu məqsədlə, kitabda əvvəlcə maddənin əsl mahiyyəti mövzusu elmi cəhətdən təhlil edilmişdir. Əvvəldə də qeyd etdiyimiz kimi, burada izah edilənlər qətiyyən bir şərh və ya fəlsəfi düşüncə deyil, elmin bir çox sahəsində sübut edilmiş həqiqətdir. Üstəlik bu mövzu sanıldığı kimi kompleks, aydın olmayan və çətin bir mövzu da deyil.

Düşünməkdən çəkinməyən və həqiqətlər qarşısında səmimi yanaşma göstərən hər adam bu reallıq sayəsində həyatı ilə əlaqədar çox əhəmiyyətli bir məqama asanlıqla çata biləcək.

Bu an oxumağa başlayacağınız həqiqət bəlkə bu günə qədər düşünüb həll edə bilmədiyiniz, ya da tam mənada qavraya bilmədiyiniz bir çox mövzunun da açarı olacaq. Beləliklə, həyati mövzuları dərin qavraya biləcək, həyatın mənasını bilərək yaşaya biləcəksiniz.

## Əsrlər boyu müzakirə edilən sual:

## Maddənin əsl mahiyyəti nədir?

Ağıl və vicdanla düşünən insan kainatdakı canlı-cansız hər şeyin yaradıldığını anlayır. Yaxşı, bəs bütün bunlar kim tərəfindən yaradılmışdır?

Aydındır ki, kainatın hər yerində mövcud olan "yaradılmışlar" kainatın özünün məhsulu ola bilməz. Məsələn, bir böcək özünü yarada bilməz. Günəş sistemi, bitkilər, insanlar, bakteriyalar, qırmızı qan hüceyrələri, kəpənəklər özlərini yaratmamışlar. Kitabın əvvəlki səhifələrində araşdırdığımız kimi, bütün bunların "təsadüfən" meydana gəlməsi də mümkün deyil.

Bu səbəbdən də belə nəticəyə gələ bilərik: Gözümüzlə gördüyümüz hər şey yaradılmışdır... Ancaq gözümüzlə gördüyümüz şeylərin heç biri "Yaradıcı" deyil. Elə isə Yaradıcı gözümüzlə gördüyümüz hər şeydən başqa, üstün bir varlıqdır. Özü görünməyən, lakin yaratdığı hər şeydə Özünün varlığını və xüsusiyyətlərini göstərən üstün bir qüvvədir.

Allahın varlığını tanımayanların sapdığı nöqtə də buradadır. Bu insanlar Allahı gözləri ilə görməyənə qədər özlərini Onun varlığına iman etməməyə yönəltmişlər. Bu səbəbdən kainatın hər yerində açıq-aşkar görünən "yaradılış" həqiqətini gizlətmək və canlıların yaradılmamış olduğunu iddia etmək məcburiyyətində qalırlar. Bunu etmək üçün də yalanlara əl atırlar. Təkamül nəzəriyyəsi və materialist fəlsəfə də bu yalanların və nəticəsiz çırpınmaların ən diqqətə çarpan iki nümunəsidir.

İnkar edənlərin yanıldıqları əsas məqam, əslində Allahın varlığını inkar etməyən, ancaq azğın bir Allah inancına sahib olan bir çox adam tərəfindən də paylaşılır. Bəzi ölkələrdə cəmiyyətin əksəriyyətini meydana gətirən bu insanlar yaradılışı açıqca inkar etmirlər, ancaq Allahın "harada" olduğuna dair maraqlı batil inancları vardır: onların bir çoxu Allahın "göydə" olduğunu sanır. Batil düşüncəyə görə, Allah çox uzaqda

yerləşən bir planetin arxasındadır və çox nadir halda "dünyanın işlərinə" müdaxilə edir. Ya da heç etmir: kainatı yaratmış və başlı-başına buraxmışdır, insanlar qədərlərini (talelərini) özləri təyin edərlər... (Allahı tənzih edirik)

Bəziləri də Allahın Quranda bildirdiyi kimi, Onun "hər yerdə" olduğunu bilir, lakin bunun mənasını tam şəkildə qavraya bilmirlər. Şüurlarındakı batil düşüncə ilə Allahın radio dalğaları, ya da görünməz, hiss edilməz bir qaz kimi maddələri əhatə etdiyini düşünürlər (Allahı tənzih edirik).

Halbuki bu düşüncə və saydığımız başqa misallar Allahın "harada" olduğunu heç cür həll edə bilməyən (bəlkə də buna görə Allahın açıq-aşkar olan varlığını ağılsızca inkar edən) düşüncələr ortaq bir səhvə əsaslanırlar: heç bir əsası olmayan bir fikri mənimsəməklə Allahla əlaqədar zənnə qapılırlar.

Bu hansı fikirdir?

Bu fikir maddənin varlığı və xüsusiyyəti ilə əlaqədardır. Bəzi insanlar maddənin əsl mahiyyəti ilə əlaqədar yanılmalara elə bağlanmışlar ki, bu mövzuda bəlkə də ətraflı şəkildə düşünməmişlər. Halbuki müasir elm maddənin mahiyyəti ilə əlaqədar bu fikri yıxaraq, çox əhəmiyyətli və təsiredici bir həqiqəti ortaya qoymuşdur. Sonrakı səhifələrdə Quranda da işarə edilən bu böyük həqiqəti izah etməyə çalışacağıq.

## Elektrik Siqnallarından İbarət olan Kainat

Yaşadığımız dünya ilə əlaqədar bütün məlumatlar bizə beş duyğu orqanımız vasitəsilə verilir. Yəni biz gözümüzün gördüyü, əlimizin toxunduğu, burnumuzun iylədiyi, dilimizin daddığı, qulağımızın eşitdiyi bir dünyanı tanıyarıq. Doğulduğumuz andan etibarən bu duyğulara bağlı olduğumuz üçün "xarici dünya"nın duyğularımızın bizə tanıtdığından fərqli ola biləcəyini heç düşünməmişik.

Halbuki, bu gün bir çox elm sahəsində aparılan tədqiqatlar son dərəcə fərqli bir anlayışı özü ilə gətirmiş və bu, hisslərimiz və qəbul etdiyimiz dünya ilə əlaqədar ciddi şübhələrin meydana gəlməsinə səbəb olmuşdur.

Bu yeni anlayışın çıxış nöqtəsi isə budur: bizim "xarici dünya" hesab etdiklərimiz yalnız elektrik siqnallarının beyində yaratdığı təsirlərdir. Almanın qırmızılığı, taxtanın bərk olması, ananız, atanız, ailəniz, sahib olduğunuz bütün mallar, eviniz, işiniz və bu kitabın sətirləri haqqında sahib olduğunuz məlumat elektrik siqnallarından ibarətdir. Yəni, biz heç vaxt almanın əsl rəngini, taxtanın əsl quruluşunu, anamızın, atamızın,

sevdiklərimizin əsl hallarını bilmirik. Bunların hamısı kənarda Allahın yaratması olaraq vardır, amma biz həyatımız boyunca yalnız beynimizdəki kopiyaları ilə əlaqədə oluruq.

Mövzunu tam olaraq açıqlamaq üçün əvvəlcə xarici dünya haqqında bizə məlumat verən duyğularımızdan danışaq.

## Necə görürük, necə eşidirik, necə dadırıq?

Görmə əməliyyatı çoxmərhələli bir şəkildə reallaşır. Görmə əsnasında hər hansı bir cisimdən gələn işıq dəstələri (fotonlar) gözün önündəki lensin içindən qırılaraq keçir və gözün arxa tərəfindəki retinaya tərs şəkildə düşürlər. Buradakı hüceyrələr tərəfindən elektrik siqnalına çevrilən fotonlar sinirlər vasitəsilə beyinin arxa qismindəki görmə mərkəzi adlanan kiçik bir bölgəyə çatırlar. Bu elektrik siqnalı bir neçə əməliyyatdan sonra beyindəki bu mərkəzdə görüntü olaraq yaranır. Yəni görmə hadisəsi əslində beyinin arxasındakı kiçik, işığın heç zaman girə bilmədiyi, qapqaranlıq bir bölgədə reallaşır.

İndi, ümumiyyətlə hamının bildiyi bu məlumat üzərində bir daha diqqətli şəkildə düşünək: Biz "görürəm" deyərkən, əslində gözümüzə gələn fotonların elektrik siqnalına çevrilərək beynimizdə meydana gətirdiyi "təsir"i görürük. **Yəni "görürəm" deyərkən, əslində beynimizdəki elektrik siqnallarını seyr edirik.**

Həyatımız boyunca gördüyümüz hər görüntü bir neçə sm-lik görmə mərkəzində meydana gəlir. Oxuduğunuz bu sətirlər də, üfüqə baxdığınızda gördüyünüz ucsuz-bucaqsız mənzərə də bu kiçik yerdə meydana gəlir. Bu zaman bir nüansı gözdən qaçırılmamaq lazımdır. Yuxarıda qeyd etdiyimiz kimi, kəllə skeleti işığı içəri keçirmir, yəni beyinin içi qapqaranlıqdır. Bu səbəbdən beyinin kənarda olan işıqla əlaqədə olması əsla mümkün deyil.

Buradakı maraqlı vəziyyəti bir nümunə ilə açıqlayaq. Qarşımızda bir şam olduğunu düşünək. Bu şamın qarşısına keçib onu uzun müddət izləyə bilərik. Amma bu müddət ərzində beynimiz şamın işığının əsli ilə heç zaman əlaqədə olmaz. Şamın işığını gördüyümüz anda belə başımızın və beynimizin içi qapqaranlıqdır. Qapqaranlıq beynimizin içində işıqlı, aydın və rəngarəng bir dünyanı seyr edirik.

R. L. Gregory görmə hadisəsindəki möcüzəvi vəziyyəti belə ifadə edir:

Görmə hadisəsinə o qədər alışmışıq ki, cavablanması lazım olan sualların olduğunun fərqinə varmaq böyük bir təxəyyül tələb edir. Lakin bunu nəzərə alın. Gözlərimizə kiçik kəlləmayallaq olmuş görüntülər verilir və biz ətrafımızda bunları

möhkəm obyektlər olaraq görürük. Retinaların üzərindəki siqnalların nəticəsində obyektlər dünyasını qəbul edirik və bu bir möcüzədən fərqlənmir əslində. 16

Eyni vəziyyət digər hisslərə də aiddir. Səs, toxunma, dad və qoxu bir elektrik siqnalı olaraq beyinə çatır və buradakı əlaqədar mərkəzlərdə qəbul edilirlər.

Eşitmə də buna bənzər şəkildə reallaşır: Xarici qulaq ətrafdakı səs dalğalarını qulaq seyvanı vasitəsilə yığıb orta qulağa çatdırır; orta qulaq aldığı səs titrəşmələrini gücləndirərək daxili qulağa ötürür, daxili qulaq da bu titrəşmələri elektrik siqnallarına çevirərək beyinə göndərir. Eynilə görmə prosesində olduğu kimi eşitmə əməliyyatı da beyindəki eşitmə mərkəzində reallaşır. Kəllə sümüyişığı keçirmədiyi kimi səsi də keçirmir. Bu səbəbdən bir insanın eşitdiyi səslər nə qədər güclü və gurultulu olsa da, beyinin içi tamamilə səssizdir.

Buna baxmayaraq, ən dəqiq səslər beyində qəbul edilir. Elə bir dəqiqlikdir ki bu: sağlam bir insan qulağı heç bir xışıltı olmadan hər şeyi eşidir. Səs keçirməyən beyninizdə bir orkestrin simfoniyalarını dinləyirsiniz, izdihamlı bir mühitin bütün səs-küyünü eşidirsiniz, bir yarpağın xışırtısından tutmuş reaktiv təyyarələrinin səs-küyünə qədər geniş bir tezlik aralığındakı bütün səsləri qəbul edə bilirsiniz. Amma o anda həssas bir cihazla beyninizin içindəki səs səviyyəsi ölçülsə, burada dərin səssizliyin hakim olduğu məlum olacaq.

Qoxu qəbulumuzun meydana gəlməsi də buna bənzərdir: vanil qoxusu, gül qoxusu kimi uçan molekullar burundakı kiprikli epitelidə yerləşən titrək qəbuledicilərə gəlirlər və bu qəbuledicilərlə qarşılıqlı əlaqəyə girirlər. Bu qarşılıqlı təsir beynimizə elektrik siqnalı olaraq çatdırılır və qoxu hesab edilir. Nəticədə, bizim gözəl, ya da pis adlandırdığımız qoxuların hamısı uçan molekulların qarşılıqlı təsirlərinin elektrik siqnalına çevrildikdən sonra beyindəki qəbuletmə formasından başqa bir şey deyil. Bir ətiri, bir çiçəyi, sevdiyiniz bir yeməyi, dəniz qoxusunu, xoşunuza gələn və ya gəlməyən hər cür qoxunu beyninizdə hiss edirsiniz. Lakin qoxu molekulları beyinə heç zaman çata bilməzlər. Səs və görüntüdə olduğu kimi, beyninizə çatan yalnız elektrik siqnallarıdır. Nəticə olaraq, doğulduğunuz andan etibarən kənardakı obyektlərə aid olduğunu hesab etdiyiniz qoxular duyğu orqanlarınız vasitəsilə hiss etdiyiniz elektrik siqnallarıdır. Bir qoxunun əsli ilə heç bir zaman əlaqədə olmazsınız.

Buna bənzər şəkildə insan dilinin ön tərəfində də dörd müxtəlif kimyəvi alıcı vardır. Bunlar duzlu, şirin, turş və acı dadlarına uyğun gəlir. Dad alıcılarımız bir sıra kimyəvi əməliyyatdan sonra bu hissləri elektrik siqnallarına çevirir və beyinə çatdırırlar. Bu siqnallar da beyin tərəfindən dad hesab edilir. Bir şokoladı, ya da sevdiyiniz bir meyvəni yediyinizdə aldığınız dad elektrik siqnallarının beyin tərəfindən şərh olunmasıdır. Həmin obyektin əslinə  isə əsla çata bilməzsiniz; şokoladın özünü görə bilməz, iyləyə bilməz və dada bilməzsiniz. Məsələn, beyninizə gedən dadalma

sinirləri kəsilsə, o an yediyiniz hər hansı bir şeyin dadının beyninizə çatması mümkün olmaz; dadalma duyğunuzu tamamilə itirərsiniz.

Bu zaman qarşımıza daha bir həqiqət çıxır: bir yeməyi daddığımızda bir başqasının o yeməkdən aldığı dadın və ya bir səsi eşitdiyimizdə başqa birinin eşitdiyi səsin bizim qəbul etdiklərimizlə eyni olduğundan əmin olmağımız mümkün deyil. Bu həqiqətlə əlaqədar Lincoln Barnett belə deyir:

Bir insanın qırmızını görməsi ya da Do notunu eşitməsinin başqa bir insanınkı ilə eyni olub-olmadığını bilməsi mümkün deyil. 17

Hiss etmə duyğumuza gəlincə də, dəyişən bir şey olmadığını görərik. Bir cismə toxunduğumuzda xarici dünyanı və obyektləri tanımağımıza köməkçi olan məlumatlar dərideki duyğu sinirləri vasitəsilə beyinə çatdırılır. Toxunma hissi beynimizdə meydana gəlir. Zənn edildiyi kimi toxunma hissini qəbul etdiyimiz yer barmağımızın ucları, ya da dərimizlə deyil, beynimizdəki hiss etmə mərkəzidir. Biz obyektlərdən gələn elektrik siqnallarının beynimizdə qiymətləndirilməsi nəticəsində bərk və ya yumşaq, isti və ya soyuq kimi obyektləri təyin edən müxtəlif hissləri duyarıq. Hətta bir cismi tanımaya yarayan hər cür məlumatı bu siqnallar nəticəsində əldə edirik. Bu əhəmiyyətli həqiqətlə əlaqədar olaraq B. Russel və L. Wittgeinstein kimi məşhur filosofların düşüncələri belədir:

… bir limonun həqiqətən var olub olmadığı və hansı müddət ərzində var olduğunu hesaba çəkmək və araşdırmaq mümkün deyil. Limon yalnız dillə aydın olan dad, burunla alınan qoxu, gözlə görülən rəng və formadan ibarətdir və yalnız bu xüsusiyyətlər elmi araşdırmanın və mühakimənin mövzusu ola bilər. **Elmin obyektiv dünyanı bilməsi əsla mümkün deyil. 18**

Yəni maddi dünyanın əslinə çatmağımız qeyri-mümkündür. Əlaqədə olduğumuz bütün obyektlər əslində görmə, eşitmə, hiss etmə kimi hisslərin cəmindən ibarətdir. Qəbul mərkəzlərindəki məlumatları qiymətləndirən beynimiz həyatımız boyunca maddənin bizim xaricimizdəki "əsli" ilə deyil, beynimizdəki kopiyaları ilə əlaqədə olur. Biz isə bu kopiyalayarın əslinin necə olduğunu heç bir zaman bilmərik.

## Beynimizin İçində yaranan

## "Xarici Dünya"

Bura qədər izah etdiyimiz fiziki həqiqətlər bizi mübahisəedilməz bir nəticəyə gətirir: Bizim gördüyümüz, toxunduğumuz, eşitdiyimiz və "maddə", "dünya", ya da "kainat" dediyimiz anlayışların əsli ilə heç bir zaman əlaqədə olmarıq, biz bunların yalnız beynimizdəki kopiyalarını bilərik.

Məsələn, meyvə yeyən biri əslində meyvənin beynindəki qəbulu ilə əlaqədədir, əsli ilə deyil. Adamın "meyvə" deyə xarakterizə etdiyi şey, meyvənin forması, dadı, qoxusu və sərtliyinə aid elektrik siqnalının beyində qəbul edilməsindən ibarətdir. Əgər beyinə gedən görmə sinirini kəssəniz, meyvə görünüşü də bir anda yox olar. Və ya burundakı qəbuledicilərdən beyinə uzanan sinirdəki bir qopuqluq olsa, qoxu qəbulunuzu tamamilə ortadan qaldırar. Çünki meyvə bəzi elektrik siqnallarını beyinin şərh etməsindən başqa bir şey deyil.

Üzərində düşünülməsi lazım olan başqa bir xüsusiyyət uzaqlıq hissi ilə bağlıdır. Məsələn, bu kitabla aranızdakı məsafə, yalnız beyninizdə meydana gələn bir boşluq hissidir. Bir insanın özündən çox uzaqda sandığı maddələr də əslində beyninin içindədir. İnsan göyə baxıb ulduzları seyr edər və bunların milyonlarla işıq ili uzaqda olduqlarını sanar. Halbuki ulduzlar onun içində, beynindəki görmə mərkəzindədirlər. Bu yazıları oxuyarkən içində oturduğunuzu sandığınız otağının da əslində içində deyilsiniz: əksinə otaq sizin içinizdədir. Bədəninizi görməyiniz sizi otağının içində olduğunuza inandırır. **Ancaq bunu unutmayın: bədəninizin də əslini heç bir zaman görmədiniz, həmişə beyninizdə yaranan kopiyasını müşahidə etdiniz.**

Bu vəziyyət başqa hisslərinizə də aiddir. Məsələn, siz otaqdakı televizorun səsini eşitdiyinizi sanırsınız, əslində isə beyninizin içindəki səsi eşidirsiniz. Metrlərlə uzaqdan gəldiyini sandığınız səs də, yanınızdakı adamın danışması da əslində beyninizdəki bir neçə sm-lik eşitmə mərkəzində qəbul edilir. Bu qəbul mərkəzinin xaricində sağ, sol, ön, arxa kimi bir anlayış yoxdur. Yəni səs sağdan, soldan və ya havadan sizə çatmaz: **səsin gəldiyi bir istiqamət yoxdur.**

Qəbul etdiyiniz qoxular da belədir: heç biri uzaq bir məsafədən sizə çatmaz. Qoxu hissetmə mərkəzinizdə yaranan təsirləri maddələrin əsl qoxusu zənn edərsiniz. Halbuki bir gülün görünüşü necə görmə mərkəzinizin içindədirsə, o gülün qoxusu da eyni şəkildə qoxu hissetmə mərkəzinizin içindədir: gülün əslini və qoxusunu heç bir zaman bilməzsiniz.

Çünki hisslərimizin bizə tanıtdığı "xarici dünya" eyni anda beynimizə çatan "elektrik siqnalları"dır.. Beynimiz həyatımız boyunca bu siqnalları dəyərləndirir. Biz də bunları maddənin "əsli" sanaraq yanıldığımızın fərqində olmadan bir ömür sürürük. Yanılırıq, çünki hisslərimizlə maddənin özünə əsla çata bilmirik.

Əsli ilə əlaqədə olduğumuzu sandığımız "xarici dünya ilə" əlaqədar siqnalları şərh edib mənalı hala gətirən də, bizim beynimizdir. Məsələn, eşitmə qəbulunu izah edək. Qulağımıza gələn səs dalğalarının şərhini edərək onu bir simfoniyaya çevirən əslində beynimizdir. Yəni biz musiqinin beynimizin şərh etdiyi halını bilirik, kənardakı əslini deyil. Rəngləri görərkən də əslində gözümüzə çatan yalnız işığın müxtəlif dalğalarıdır. Bu müxtəlif dalğaları rənglərə çevirən yenə də beynimizdir. "**Xarici dünyadakı rənglərin necə olduğu bizim üçün məchuldur.** Biz almanın əsl qırmızısı ilə,

səmanın əsl mavisi ilə, ağacların əsl yaşılı ilə heç bir zaman əlaqədə olmarıq. **Xarici dünya tamamilə qəbul edənə bağlıdır.**

Gözdəki retinada yaranan kiçik bir dəyişiklik rəng korluğuna səbəb olur. Bəzi insanlar mavini yaşıl, bəzisi qırmızını mavi, bəzisi də rəngləri bozun müxtəlif tonları şəklində görür.

## Xarici Dünya Olmadan da hisslər Dünyası Meydana Gələ bilər

Gördüyümüz və yaşadığımız hər şeyin beynimizdə var olduğunu, kənarda var olan maddənin əslini heç bilmədiyimizi ortaya qoyan həqiqətlərdən biri də, beynimizdə hisslərin meydana gəlməsi üçün xarici dünyaya ehtiyacımızın olmamasıdır. Bu gün simulyator kimi bir çox texnoloji inkişaf və yuxularımız bu həqiqətin ən əhəmiyyətli dəlilləridir.

Elmi yazıçı Rita Carter "Mapping The Mind" adlı kitabında "görmək üçün gözlərə ehtiyac yoxdur" deyərək, elm adamları tərəfindən reallaşdırılan əhəmiyyətli bir təcrübəyə yer vermişdir. Təcrübədə görmə qüsurlu insanlara video şəkillərini titrəşmələrə çevirən bir cihaz taxıldı. Bu insanların gözlərinin yanına taxılan bir kamera isə siqnalları beyinə göndərirdi. Beləcə, onlar daim vizual dünyadan siqnallar ala bilirdi. Xəstələr bir müddət sonra həqiqətən görürmüş kimi davranmağa başladılar. Məsələn, cihazlardan birində görüntünü yaxınlaşdırmaq üçün bir lens vardı. Bu lens xəstə xəbərdar edilmədən işlədildiyində, xəstə görüntünün böyüyərək üzərinə gəldiyini gördüyü üçün iki qolu ilə özünü qorumalı olurdu. 16

Bu təcrübədən göründüyü kimi, hisslərimizin meydana gəlməsi üçün xarici dünyada maddi obyektlərin olması şərt deyil. Bütün siqnallar süni olaraq da yaradıla bilir.

## Yuxularda yaşadığımız "hisslər dünyası"

İnsan xarici dünya olmadan da hissləri bütün canlılığı ilə yaşaya bilər və buna verilə biləcək ən bariz nümunə, daha əvvəl də bəhs etdiyimiz kimi, yuxulardır. Bir insan yuxu əsnasında gözləri bağlı yatağında yatır. Ancaq buna baxmayaraq, həyatında qarşılaşdığı hadisələrin, yaşadığı hisslərin, xəbərdarlıqların hamısını yuxularında, həqiqətlərdən ayırd edilə bilməyəcək qədər həqiqi hesab edir. Bu həqiqətə bu kitabı

oxuyan insanların hamısı şəxsən öz yuxularında tez-tez şahid olurlar. Məsələn, gecə yatağında səssiz və sakit bir mühitdə tək yatan bir insan yuxusunda özünü izdihamlı bir məkanda, bir təhlükədə görə bilər. Bu təhlükədən qaçdığını, bir divarın arxasında gizləndiyini həyatdakı kimi yaşaya bilər. Hətta yuxusunda gördükləri o qədər həqiqidir ki, qorxu və çaxnaşma duyğusunu həqiqətən hiss edər. Hər səs-küydə ürəyi ağzına gələr, qorxudan titrəyər, ürəyi sürətlə vurar, tərləyər, insan bədəni təhlükə anlarında nələri hiss edirsə, fiziki olaraq nə reaksiyalar verirsə hamısını eynilə yaşayar.

Yuxusunda yüksək bir yerdən yıxılan insan da bunu bütün bədəni ilə hiss edər. Halbuki o anda yatağında heç tərpənmədən yatır. Ya da, yuxusunda ayağı büdrəyib su çuxurunun içinə düşdüyünü görən bir insan bütün paltarlarının islandığını, sonra da külək əsdiyinə görə üşüdüyünü hiss edə bilər. Ancaq yatdığı yerdə nə bir su çuxuru, nə də külək var. Hətta çox isti bir otaqda yatmasına baxmayaraq, yaş olmasını və üşüməsini eynilə oyanıqkən olduğu kimi hiss edər.

Və ya yuxusunda maddənin əsli ilə əlaqədə olduğunu iddia edən bir adam özündən son dərəcə əmin ola bilər. Özünə "xarici dünyanın əsli ilə əlaqədə olmağın mümkün olmadığını" izah edən yoldaşının çiyninə əlini qoyaraq "İndi sən əlimi çiynində hiss etmirsənmi? O zaman necə maddənin həqiqiliyini görmədiyini söyləyə bilərsən? Haradan çıxarırsan bu iddiaları? Gəl səninlə bir az gəzək, həm bu mövzunu danışarıq, bir də belə bir mövzuya niyə inanırsan mənə izah edərsən" deyə bilər. Dərinləşən yuxusunda gördüyü bu yuxu o qədər dəqiqdir ki, keflə avtomobilin qapısını açıb mühərrikə yavaş-yavaş qaz verər və sonra birdən pedala basıb avtomobili yerindən sıçradar. Yolda sürətlə gedərkən ağaclar və yol xəttləri sürətdən sanki blok bir görüntü meydana gətirər. Bir tərəfdən də təmiz hava alar. Yoldaşına etiraz etməyə başladığı anda, maddənin əslini gördüyünü izah etməyə hazırlaşarkən saatının zənginə oyanar. Ancaq maraqlıdır ki, yuxusunda maddənin əsli ilə əlaqədə olmadığımıza etiraz edən bu insan oyanıqkən də gördüklərinin zehnində yaranan kopiya görüntülər olduğunu izah edən bir yoldaşı yanında olsa, ona da eyni şəkildə etiraz edəcək.

İnsanlar yuxudan oyandıqlarında o ana qədər gördüklərinin xəyal olduğunu anlayarlar, amma "oyanma" görüntüsü başlayan zaman "əsl həyat" dedikləri həyatın quruluşundan nədənsə heç şübhələnməzlər. Halbuki, "əsl həyat" dediyimiz görüntüləri hiss etməyimiz, yuxularımızı hiss etməyimizlə tamamilə eynidir. Hər ikisini də zehnimizdə görürük. Yuxudan oyandırılmadığımız müddətdə onların bir xəyal olduğunu əsla anlamırıq. Ancaq oyandığımız zaman "deməli gördüklərim bir yuxu imiş" deyirik. Elə isə bu anda gördüklərimizin bir yuxu olmadığını necə isbat edə bilərik? Yalnız hələ oyandırılmadığımız üçün içində olduğumuz anı həqiqi zənn edirik. Hər gecə gördüyümüz yuxulardan daha uzun sürən bu yuxudan bir gün oyandırıldığımızda bu həqiqətlə qarşılaşacağıq. Bunun əksini söyləyərək isbat edə biləcəyimiz heç bir dəlilimiz yoxdur.

Dünya həyatının bir yuxu kimi olduğu, bu yuxudan "böyük bir oyanış" ilə oyananda insanların yuxu kimi bir aləmdə yaşadıqlarını anlayacaqları İslam alimləri tərəfindən də dilə gətirilən bir həqiqətdir. Üstün elmi sayəsində Şeyx Əkbər (Ən Böyük Şeyx) olaraq tanınan böyük İslam alimi Muhyiddin Ərəbi Peyğəmbərimizin (s.ə.v.) bir hədisini dünya həyatını yuxularımıza belə bənzətmişdir:

Həzrəti Məhəmməd Əleyhissalam "insanlar yuxudadır, öldükləri vaxt oyanarlar" buyurmuşdur. Deməli, dünya həyatında gördüyü şeylər yatan insanın yuxusunda gördüyü şeylər kimidir. ..17

Bir ayədə isə Allah insanların qiyamət günündə yenidən dirildiləcəkləri zaman belə deyəcəklərini bildirmişdir:

**Onlar deyəcəklər: "Vay halımıza! Bizi yatdığımız yerdən kim qaldırdı? Bu, Mərhəmətli (Allahı)n vəd etdiyi (qiyamətdir). Elçilər doğru deyirlərmiş".. (Yasin surəsi, 52)**

Ayədən də göründüyü kimi, insanlar qiyamət günü yuxudan oyanan kimi oyanacaqlar. Bir insan yuxuya getdiyi və yuxu gördüyü zaman birdən oyandırıldığında onu kimin oyandırdığını soruşduğu kimi, bu insanlar da eyni şəkildə onları kimin oyandırdığını soruşacaqlar. Allahın bu ayədə bildirdiyi kimi, dünya həyatı gördüyümüz bir yuxu kimidir və hər insan bu yuxudan oyandırılacaq və əsl həyatı olan axirət həyatına dair görüntüləri görməyə başlayacaq.

## Hiss edən Kimdir?

Bura qədər aydın olduğu kimi, içində yaşadığımızı sandığımız və "xarici dünya" dediyimiz maddi dünyanın əsli ilə heç bir zaman əlaqədə ola bilmərik. Amma bu zaman belə bir sual meydana çıxır: Bildiyimiz heç bir maddi varlığın əslinə çata bilmiriksə, o halda beynimiz nədir? Beynimiz də qolumuz, qıçımız və ya başqa hər hansı bir obyekt kimi maddi dünyanın bir parçası olduğuna görə, onun da əslinə heç bir zaman çata bilmərik.

Beyini analiz etdiyimizdə qarşımıza digər canlı orqanlarda da olan zülal və yağ molekullarından fərqli bir şey çıxmaz. Yəni beyin dediyimiz ət parçasında görüntüləri seyr edərək şərh edəcək, şüuru meydana gətirəcək, qısacası "mən" dediyimiz şeyi var edə biləcək bir şey yoxdur.

R. L. Gregory beyinin içində görüntünün yaranması ilə əlaqədar insanların düşdükləri bir yanılmanı belə dilə gətirir:

Gözlərin beyindəki görüntüləri meydana gətirdiyinə dair düşüncələr var, lakin bundan çəkinmək lazımdır. Beyində bir şəkil meydana gəldiyi söylənsə bunu görməsi üçün içəridə daha bir gözün olması lazımdır, lakin bu gözün şəklini görə bilmək üçün daha bir gözə ehtiyac olacaq,... və bu da sonsuz bir göz və şəkil olması mənasını verir. Bu isə mümkün deyil. 21

Maddədən başqa bir varlığı qəbul etməyən materialistlərin içindən çıxa bilmədikləri əsl nöqtə buradır: Görən, gördüyünü qəbul edən və reaksiya verən "içərideki göz" kimə aiddir?

Karl Pribram da elm və fəlsəfə dünyasında hiss edənin kim olduğu ilə əlaqədar bu əhəmiyyətli axtarışa diqqət çəkmişdir:

Yunanlardan bəri filosoflar daim "maşının içindəki varlıq", "kiçik insanın içindəki kiçik insan" və s. suallar üzərinə düşünmüşlər. **Mən, beyini istifadə edən varlıq, haradadır? Əsl bilməyi reallaşdıran kimdir?** Francisin də söylədiyi kimi: "Axtardığımız şey görənin nə olduğudur. "22

İndi bunu fikirləşin: Əlinizdəki kitab, oturduğunuz otaq, qısacası qarşınızdakı bütün görüntülər beyninizin içində görünür. Yaxşı, bu görüntüləri atomlarmı görür? Həm də kor, kar, şüursuz atomlar... Niyə atomların bir qismi bu xüsusiyyətləri qazanıb, amma digərləri qazana bilməyib?... Düşünməyimiz, qavramağımız, xatırlamağımız, sevinməyimiz, kədərlənməyimiz, bütün bunlar bu atomların arasındakı kimyəvi reaksiyalardanmı ibarətdir?

Bu sualları diqqətlə düşündüyümüzdə, atomlarda iradə axtarışının bir mənası olmadığını görərik. Aydındır ki, görən, eşidən və hiss edən varlıq maddədən xaric bir varlıqdır. Yaxşı bu görüntüləri beyninizin içində görən kimdir? Beyninizin içində bir gözə ehtiyac duymadan bu kitabın görüntüsünü görən, gördüklərini anlayan, oxuduqlarından təsirlənən, bunların üzərində düşünən kimdir? Beyinə çatan elektrik siqnallarını bir qulağa ehtiyac duymadan, bir dostunun səsi və ya ən sevdiyi mahnı olaraq dinləyən, dinlədiklərindən zövq alan kimdir?

## Məhz bu varlıq "ruh"dur

Kənarda var olan maddənin beyindəki kopiyalarını görən, eşidən, hiss edən, qəbul edən, şərh edən ruhdur. Bu sətirləri yazan və oxuyan ağıllı varlıqlar, bir atom və molekul yığını və bunların arasındakı kimyəvi reaksiyalar deyil, "ruh"dur.

## Həqiqi Mütləq Varlıq

Bütün bu həqiqətlər bizi çox əhəmiyyətli bir sualla daha qarşı-qarşıya qoyur: Madam ki, maddi dünyanın əslinə dair heç bir şey bilmirik və yalnız beynimizdəki kopiya görüntülərlə əlaqədəyik, o halda bu görüntülərin qaynağı nədir?...

Yaxşı, bizim ruhumuza ulduzları, dünyanı, bitkiləri, insanları, bədənimizi və gördüyümüz hər şeyi həmişə seyr etdirən kimdir?

Aydındır ki, yaşadığımız bütün maddi kainatı yaradan və həmişə yaratmağa davam edən üstün bir Yaradıcı vardır. Bu Yaradıcı sonsuz bir güc və məlumat sahibidir.

O Yaradıcı aləmlərin Rəbbi olan Allahdır.

Göylərin və yerin, yəni kainatın sabit və qərarlı olmadığı, yalnız Allahın yaratması ilə varlıq tapdıqları və O yaratmağı dayandırdığında yox olacaqları bir ayədə belə ifadə edilir:

**Həqiqətən, Allah göyləri və yeri tərpənməsinlər deyə, tutub saxlayır. Əgər tərpənsələr, Ondan başqa onları heç kəs tutub saxlaya bilməz. Həqiqətən də, O, Həlimdir, Bağışlayandır. (Fatir surəsi, 41)**

Daha əvvəl də qeyd etdiyimiz kimi, insanların çoxu Allahın gücünü qavraya bilmədiklərindən böyük bir cəhalətlə Uca Allahı göylərdə bir yerdə olan və dünya işlərinə müdaxilə etməyən bir varlıq olaraq düşünürlər (Allahı tənzih edirik). Bu azğın məntiqin əsası kainatın yalnız maddələrdən ibarət olduğunu, Allahın isə bu maddələrin "xaricində" haradasa bir yerdə olmasıdır (Allahı tənzih edirik).

Həqiqi mütləq varlıq Allahdır. **Yəni var olan yalnız Allahdır, maddə mütləq varlıq deyil. Kənarda var olan maddələr dünyası Allahın üstün yaradışının bir əsəridir. Allah "hər yerdə"dir və hər yeri sarıb-bürümüşdür.** Bu həqiqət Quranda belə açıqlanır:

**Allah, Ondan başqa ilah yoxdur, (əbədi) Yaşayandır, (bütün yaratdıqlarının) Qəyyumudur. Onu nə mürgü, nə də yuxu tutar. Göylərdə və yerdə nə varsa, Ona məxsusdur. Onun izni olmadan Onun yanında kim havadarlıq edə bilər? O, (məxluqatın) gələcəyini və keçmişini bilir. Onlar Onun elmindən, Onun istədiyindən başqa heç bir şey qavraya bilməzlər. Onun Kürsüsü göyləri və yeri**

**əhatə edir. Bunları qoruyub saxlamaq Ona ağır gəlmir. O, Ucadır, Uludur. (Bəqərə surəsi, 255)**

Allahın məkandan münəzzəh olduğu və hər yeri sarıb-bürüdüyü həqiqəti bir başqa ayədə də belə bildirilmişdir:

**Məşriq də, məğrib də Allahındır! Hansı səmtə yönəlsəniz, Allahın Üzü orada olar. Həqiqətən, Allah (hər şeyi) Əhataedəndir, Biləndir. (Bəqərə surəsi, 115)**

Bu həqiqətin qavranması tək olan Allaha şərik qoşmadan iman etməklə meydana gələr. Çünki Allahdan başqa bütün varlıqların kölgə varlıqlar olduqlarını bilən bir insan qəti bir imanla "yalnız Allah vardır, Ondan başqa ilah (güc sahibi varlıq) yoxdur" deyər.

Allahı gözləri ilə görmədiyi üçün Allahın varlığına inanmayanların materialist iddiaları da maddənin əsl mahiyyəti öyrənildiyində tamamilə yox olar. Çünki bu həqiqəti öyrənən adam öz varlığının bir xəyal xüsusiyyətində olduğunu anlayar. Xəyal olan bir varlığın isə mütləq olan bir varlığı görə bilməyəcəyini qavrayar. Quranda insanların Allahı görə bilmədiyi, amma Onun gördüyünü Rəbbimiz belə açıqlayır:

**Gözlər Onu dərk etmir. O isə gözləri dərk edir.... (Ənam surəsi, 103)**

Əlbəttə ki, biz insanlar Allahın varlığını gözlərimizlə görə bilmərik. Amma bilirik ki, Allah bizim daxilimizi, xaricimizi, baxışlarımızı, düşüncələrimizi tamamilə əhatə etmişdir. Bu səbəblə Allah Quranda "qulaqlara və gözlərə hakim" (Yunus surəsi, 31) olduğunu bildirir. Allahın məlumatı xaricində biz bir söz belə deyə bilmərik, hətta bir nəfəs də ala bilmərik. Buna görə də, Allah bizim etdiyimiz hər şeyi bilir. Bu vəziyyət Quranda da belə ifadə edilmişdir:

**Şübhəsiz ki, nə yerdə, nə də göydə heç bir şey Allahdan gizli qalmaz. (Ali-İmran surəsi, 5)**

Maddənin əsli ilə əlaqədə olduğumuzu sanaraq, beynimizdəki kopiya dünyanı seyr edərkən də, yəni həyatımızı sürərkən bizə ən yaxın olan varlıq Allahdır. **Allahın Quranda bildirdiyi "İnsanı Biz yaratdıq və nəfsinin ona nəyi vəsvəsə etdiyini də**

**bilirik. Biz ona şah damarından da yaxınıq.** " (Qaf surəsi, 16) ayəsinin sirri də bu həqiqətdə gizlidir. Allah insanı ətraflı şəkildə əhatə etmişdir və ona "sonsuz yaxın"dır.

**Allah** insanlara "sonsuz yaxın" olduğunu "**Qullarım səndən Mənim barəmdə soruşsalar, Mən (onlara) yaxınam...**" **(Bəqərə surəsi, 186)** ayəsi ilə də bildirir**.** Bir başqa ayədə keçən "**Rəbbin insanları əhatə etmişdir**" **(İsra surəsi, 60)** ifadəsi də həmin həqiqəti xəbər verir.

İnsan özünə ən yaxın olan varlığın özü olduğunu sanaraq yanılır. Halbuki Allah bizə özümüzdən də yaxındır. "**(Can) boğaza yetişdiyi zaman həmin an siz (can verən adama) baxırsınız. Biz ona sizdən daha yaxın oluruq, siz isə (bunu) görmürsünüz..**" **(Vaqiə Surəsi, 83-85)** ayəsi ilə də bu həqiqəti bildirmişdir. Ancaq ayədə də bildirildiyi kimi, bəzi insanlar gözləri ilə görmədikləri üçün bu fövqəladə həqiqətdən xəbərsiz yaşayarlar. Onları yaradanın Allah olduğunu qəbul edər, ancaq gördükləri işlərin özlərinə aid olduğunu zənn edərlər. Halbuki, insanın hər hərəkəti Allahın iznilə yaradılır. Məsələn, bir kitab yazan insan Allahın iznilə o kitabı yazır. Kitabdakı hər cümlə, hər fikir, hər paraqraf Allahın diləməsilə meydana gəlir. Allah bu əhəmiyyətli həqiqəti bir çox ayəsi ilə bildirir. Bu ayələrdən biri də budur: "**...sizi də, sizin düzəltdiklərinizi də Allah yaratmışdır". (Saffat surəsi, 96)** Allah "**... atdığın zaman sən atmadın, Allah atdı...**" **(Ənfal surəsi, 17)** ayəsi ilə isə hər etdiyimizin Özünə aid hərəkətlər olduğunu bildirir.

Həqiqət budur. Bir insan bunu qəbul etməyə bilər, amma bu heç nəyi dəyişdirməz.

## Maddənin əslini Bilmək Dünya Ehtirasını Ortadan qaldırar

Bura qədər izah etdiyimiz mövzu həyatınız boyunca sizə izah edilmiş ən böyük həqiqətlərdən biridir. Çünki bütün maddi dünyanın əslində bir "kölgə varlıq" olduğunu isbat edən bu mövzu Allahın varlığının və yaradışının qavranmasının, Onun yeganə mütləq varlıq olduğunun aydın ola bilməsinin açarıdır. Eyni zamanda həm insanın nə qədər aciz olduğunun elmi və inkar edilə bilməz bir isbatıdır, həm də Allahın möhtəşəm sənətinin bir təcəllisidir. Bu səbəblə də bu elm insanları iman etməyə təşviq edir. Bəzi insanların bu həqiqətdən qaçmalarının əsas səbəbi də budur.

Burada izah edilənlər, eynilə bir fizika qanunu və ya bir kimyəvi düstur qədər qəti həqiqətlərdir. İnsanlar yeri gəldiyində ən çətin riyaziyyat problemlərini belə həll edə bilir, çətin başa düşülən bir çox mövzunu qavraya bilirlər. Amma həmin insanlara maddənin insanların zehinlərində yaranan bir görüntüdən ibarət olduğu, maddənin

əsli ilə heç bir şəkildə əlaqədə ola bilməyəcəkləri izah edildiyində, bunu heç cür anlaya bilmirlər. Bu, son dərəcə "şişirdilmiş" bir anlayışsızlıq vəziyyətidir. Çünki burada izah edilən mövzunun qavranılması, eynilə bir insanın "iki vur iki neçə edər?", "neçə yaşındasan?" kimi suallara verəcəyi cavablar qədər asandır. Dünyanı harada gördüyünü hansı elm adamından, hansı professordan soruşsanız sizə "təbii ki beynimdə" deyə cavab verəcək. Hətta bu həqiqəti biologiya kitablarında da tapa bilərsiniz. Ancaq bütün bu açıqlığa baxmayaraq, maddi dünyanı beynimizdə qəbul etdiyimizə dair məlumat görməməzlikdən gəlinir. Elm tərəfindən isbat edilmiş ən əhəmiyyətli həqiqətlərdən birinin insanlardan gizlədilməsi böyük bir hadisədir əslində.

İnsanların bütün elmi həqiqətləri asanlıqla qəbul edib, bu həqiqətdən bu qədər çox qorxub qaçmalarının əsas səbəbi isə maddənin həqiqətini öyrənməyin bütün insanların həyata dünyagörüşlərini dəyişdirəcək olmasıdır. Maddəni və özlərini mütləq varlıq olaraq qəbul edənlər və bütün həyatlarını buna bağlı olaraq quranlar, bir anda özlərinin, yoldaşlarının, uşaqlarının, sahib olduqları bütün sərvətin bir xəyal olduğunu anlayacaqlar. İnsanların məhz bu həqiqətdən bu qədər qorxmalarının, anladıqları halda anlamazlıqdan gəlmələrinin, bir ibtidai sinif uşağının belə asanlıqla qavraya biləcəyi bir həqiqəti son dərəcə mənasız etirazlarla özlərindən uzaqlaşdırmağa çalışmalarının ardında gizlənən səbəb bu dünya ehtiraslarını itirmə qorxusudur.

Mallara, oğullara, dünyanın keçici bəzəklərinə ehtirasla bağlı olan biri üçün bu həqiqətən də böyük bir qorxu səbəbidir. Çünki bu həqiqəti anladığında, hələ ölmədən ölmüş, malını və canını təslim etmiş olacaq. Allah "**Əgər (Allah) sizdən bunu istəsə və sizdən təkidlə tələb etdiyi halda, siz xəsislik göstərsəniz, O, kin-küdurətinizi üzə çıxardar.**" (Məhəmməd surəsi, 37) ayəsi ilə insanlardan bütün mallarını istədiyində onların necə müqavimət göstərəcəklərini və xəsislik edəcəklərini bildirir. Bir insan maddənin əslini öyrəndiyində onsuz da malının, canının Allaha aid olduğunu, verməmək üçün müqavimət göstərməyin mənasız olduğunu anlayacaq, ölmədən əvvəl hər şeyi ilə Allaha təslim olacaq. Səmimi iman edənlər üçün bu bir gözəllik, şərəf və Allaha yaxınlığa bir vəsilədir. İmansız və ya zəif imanlı insanlar isə bu gözəlliyi dərk edə bilmədikləri üçün bu həqiqəti böyük bir israrla inkar edərlər.

## Maddənin əsli Gizlənmədiyində
## Meydana gələcək Mühit

Maddənin əsli ilə əlaqədə olmadıqlarını, yalnız Allahın özlərinə izlətdirdiyi görüntülərlə bağlı olduqlarını bilən insanların bütün həyatları, dünyagörüşləri və mühakimələri dəyişəcək. Bu, həm fərdi, həm də ictimai mənada faydalı bir dəyişiklik

olacaq. Çünki bu həqiqəti görən insan Allahın Quranda bildirdiyi üstün mömin əxlaqını heç bir çətinlik çəkmədən yaşayacaq.

Dünyaya əhəmiyyət verməyən, maddənin xəyal olduğunu anlayan insanlar üçün əhəmiyyət verilməli şey mənəviyyat olacaq. Allahın hər an onu eşitdiyini və gördüyünü bilən, etdiyi hər hərəkətdən axirətdə hesab verəcəyini dərk edən bir adam təbii olaraq gözəl əxlaqlı olacaq, Allahın əmr və qadağalarına itaət edəcək. Beləcə, cəmiyyətdə hər kəs bir-birinə qarşı sevgi və hörmət bəsləyəcək, gözəl davranışlarla bir-birilə yarışacaq. İnsanlar arasındakı dəyər mühakimələri dəyişəcək, maddə dəyərini itirəcək, beləcə insanlar arasında üstünlük mövqeyə görə deyil, əxlaqa və təqvaya görə olacaq. Heç kim əsli xəyal olan şeylərin arxasından qaçmayacaq, hər kəs həqiqətin arxasından gedəcək. İnsanlar “nə düşünərlər?" zehniyyəti ilə deyil, "nə etsəm Allah məndən razı olar?" düşüncəsi ilə hərəkət edəcəklər. Mal, mülk və mövqedən qaynaqlanan qürur, özünü bəyənmək hisslərini təvazökarlıq və acizliyini çox yaxşı anlamaq hissi əvəz edəcək. Bu səbəbdən insanlar Quranda bəhs edilən bütün gözəl əxlaq nümunələrini sevərək və istəyərək yaşayacaqlar. Bu sayılan dəyişikliklər isə günümüzdəki cəmiyyətlərinin bir çox problemini təbii olaraq ortadan qaldıracaq.

Kiçik mənfəətləri üçün əsəbləşən, hirslənən, təcavüzkar olan insanların yerini hər gördüyünün Allahın ona izlətdirdiyi görüntülər olduğunu bilən, bu səbəblə qəzəb, hirslənmək, qışqırıb-çığırma kimi reaksiyaların özünü hörmətdən salacağını dərk edən insanlar tutacaq. Bu sayədə insanlara və cəmiyyətlərə rahatlıq və güvən hakim olacaq, hər kəs həyatından və sahib olduqlarından razı olacaq. İnsanlardan gizlədilən bu həqiqətin insanlara və cəmiyyətlərə qazandıracağı nemətlərin bir qismi bunlardır. Bu həqiqətin bilinməsi, düşünülməsi və yaşanması ilə birlikdə insanlar daha bir çox gözəlliklərə qovuşacaqlar. Bu gözəlliklərə qovuşmaq istəyənlərin edəcəyi şey isə bu böyük həqiqəti yaxşıca düşünmək və anlamağa cəhd göstərməkdir. Allah bir ayəsində belə bildirmişdir:

**(De:) “Rəbbinizdən sizə göz qabağında olan dəlillər gəlmişdir. Kim (onları) görsə, (xeyri) onun özünə, kim kor olsa (zərəri) onun öz əleyhinə olar.... (Ənam surəsi, 104)**

## Materialistlərin Məntiqi Pozuqluqları

Bu hissənin əvvəlindən etibarən maddənin materialistlərin iddia etdikləri kimi mütləq bir varlıq olmadığını, maddənin əsli ilə heç bir zaman əlaqədə olmadığımızı

elmi dəlillərlə gördük. Materialistlər isə bütün fəlsəfələrini yox edən bu açıq həqiqətə qarşı son dərəcə mənasız müqavimət göstərirlər və əsassız dəlillər gətirirlər.

Məsələn, materialist fəlsəfənin XX **əsrdəki ən böyük müdafiəçilərindən biri olan qatı Marksist Corc Politzer bu mövzu ilə əlaqədar əhəmiyyətli bir dəlil olaraq "avtobus nümunəsi"ni vermişdir.** Politzerə görə maddənin beynimizdəki kopiyası ilə əlaqədə olduğumuzu müdafiə edənlər şosedə avtobus gördükləri zaman əzilməmək üçün qaçırlar. 23

Bir başqa məşhur materialist Johnson isə özünə maddənin əsli ilə heç əlaqədə olmadığımız izah edildiyində daşları təpikləyərək bu həqiqəti inkar etməyə çalışmışdır. 24

Marks, Engels, Lenin kimi məşhur materialistlərin kitablarında həmişə bu cür nümunələr və "maddənin əsl mahiyyətini yumruq yeyincə anlayarsınız" kimi qəzəb dolu cümlələr yer alır.

Materialistlərin yanıldıqları və anlaya bilmədikləri nöqtə "hiss" anlayışının yalnız görmə duyğusu ilə əlaqədar olduğunu sanmalarıdır. Halbuki yalnız görmə deyil, toxunma, zərbə, sərtlik, ağrı, istilik, soyuqluq kimi bütün hisslər eynilə görmə kimi insanın beynində yaranan hisslərdir. Məsələn, avtobusa minmək üçün avtobusun qapısının soyuq metalını əlində hiss edən bir insan əslində bu "soyuq metal hissini" beynində hiss edir. Bu çox açıq və məlum olan bir həqiqətdir. Toxunma duyğusu daha əvvəl də ifadə edildiyi kimi, bir insanın məsələn, barmaqlarından gələn sinir siqnallarının beyinin müəyyən bir nöqtəsində meydana gətirdiyi bir hissdir. Hiss edən barmaqlarımız deyil. İnsanlar bunu elmi olaraq açıqlandığı üçün qəbul edirlər. Ancaq mövzu avtobusun qapısını tutmaq deyil, avtobusun insanı vurmasına gəldikdə, yəni bu toxunma hissi daha şiddətli və ağrı verici olduğuna görə, buna inanmırlar. Halbuki, ağrı və ya zərbə də beyində hiss edilir. Avtobusun vurduğu bir insan zərbənin şiddətini və bütün ağrını beynində hiss edər.

Bunu daha yaxşı anlamaq üçün yuxuları düşünmək faydalı olacaq. İnsan yuxusunda onu avtobusun vurduğunu, qəzadan sonra gözünü xəstəxanada açdığını, əməliyyat keçirtdiyini, həkimlərin söhbətlərini, ailəsinin təlaşla xəstəxanaya gəlməsini, şikəst qaldığını və ya bədəninin çox ağrıdığını görə bilər. Yuxusunda yaşadığı bütün bu hadisələrin görüntülərini, səslərini, hissini, ağrını, işığı, xəstəxanadakı rəngləri çox aydın və real hesab edir. Bunların hamısı həyatdakı kimi təbii və inandırıcıdır. O an, yuxundakı bir adam ona yuxu gördüyünü, gördüklərinin bir xəyal olduğunu söyləsə ona inanmaz. Halbuki, gördüklərinin hamısı bir xəyaldır və nə avtobusun, nə xəstəxananın, nə də yuxusunda gördüyü bədəninin xarici dünyada maddi qarşılığı vardır. Yuxusunda gördüyü bədənin və avtobusun maddi qarşılığı olmamasına baxmayaraq, "həqiqi bir bədəni" "həqiqi bir avtobus" vurmuş kimi hiss edə bilir.

Elə isə materialistlərin "maddənin əsl mahiyyətini yumruq yeyincə anlayarsan", "dizinə bir təpik vurunca maddənin əslini görüb-görmədiyindən şübhən qalmaz", "it görüncə qaçarsan amma", "avtobus vursa beynindədir, ya deyil bilərsən", "madam ki, kopiya görüntülərlə əlaqədəsən, o zaman şoseyə çıxıb avtomobillərdən qaçmadan ortada dayan" kimi etirazlarının heç bir mənası yoxdur. Sürətli bir zərbə, can ağrıdan itin dişləri, şiddətli bir yumruq maddənin əsli ilə əlaqədə olduğunuzun dəlili deyil. Çünki bəhs edildiyi kimi, bunları eynilə yuxunuzda da, maddi qarşılıqları olmadığı halda yaşaya bilərsiniz. Ayrıca, bir hissin şiddətli olması o hissin beyində meydana gəldiyi həqiqətini də dəyişdirmir. Bu, elmi olaraq isbatı olan çox açıq bir həqiqətdir. Bəzi insanların şosedən sürətlə keçən bir avtobusu və ya bu avtobusun səbəb olduğu bir qəzanı, maddənin fiziki varlığı ilə əlaqədə olduqlarının bir dəlili sanmalarının səbəbi görüntünün insanı aldadacaq qədər həqiqi görünməsi və hiss edilməsidir. Məkan görüntülərindəki məsələn, şosedəki dərinlik və perspektivin qüsursuzluğu, məkanda görünən cisimlərin rəngi, şəkli, kölgəsi olaraq mükəmməlliyi, səs, qoxu və sərtlik hisslərinin çox dəqiq olması və görüntünün içində bir məntiqin olması bəzilərini yanıldır. Bəzi insanlar bu hadisələr nəticəsində bunların hiss olduğunu unuda bilmirlər. Amma zehində meydana gələn hisslər nə qədər əksiksiz və mükəmməl olursa-olsun, bunların bir qəbul olduğu həqiqəti dəyişməyəcək. İnsan şosedə gedərkən bir qəza yaşasa da, zəlzələdə yıxılan bir evin altında qalsa da, yanğında alovlar tərəfindən sarılsa da, nərdivandan yıxılsa da bütün bu hadisələri zehnində yaşayar və əsilləri ilə əlaqədə olmaz.

Bir insan şosedəki bir avtobusun önünə atılanda zehnindəki avtobus zehnindəki bədənini vurar. O insanın bu qəza nəticəsində həyatını itirməsi, bədəninin parçalanması da bu həqiqəti dəyişdirməz. Əgər insanın zehnində gördüyü bu hadisə ölüm ilə nəticələnsə, Allah o insana göstərdiyi görüntünü bir pərdənin qaldırılması kimi qaldırar və o adama başqa bir görüntü, axirətə aid görüntüləri göstərər. Bu həqiqəti indi səmimiyyətlə düşünüb anlamayanlar ölümləri ilə birlikdə dərhal anlayacaqlar.

### Sinirləri Paralel Bağlama Nümunəsi

Politzerin yol qəzası nümunəsini təhlil edək: Bu qəzada avtobusun altında əzilən adamın beş duyğu orqanından beyninə gedən sinirlər bir başqa insanın məsələn, Corc Politzerin beyninə paralel bir əlaqə ilə bağlansa, avtobus qəzadakı adamı vurduğu anda evində oturan Politzeri də vuracaq. Daha doğrusu, qəzaya düşən adamın keçirtdiyi hisslərin hamısını, bir musiqi alətinə bağlanan iki kolonkadan eyni mahnının eşidilməsinə bənzər şəkildə, Politzer də keçirəcək. Politzer də evində oturduğu halda avtobusun əyləcinin səsini, avtobusun bədəninə dəyməsini, qolunun qırılmasını və

qanının axmasını, ağrılarını, xəstəxanaya aparıldığını, gipsin sərtliyini, qolunun gücsüzlüyünü hiss edəcək və görəcək.

Qəzadakı adamın sinirləri neçə adama bağlansa bunların hamısı, eynilə Politzer kimi, qəzanı əvvəldən axıra qədər yaşayacaq. Qəzadakı adam komaya girsə, hamısı komaya girəcək. Hətta, bəhs etdiyimiz yol qəzasına aid hisslərin hamısı bir cihaza yazılsa və həmişə əvvələ keçirilib başqa bir adama verilsə, bu adamı da dəfələrlə avtobus vuracaq.

Yaxşı, elə isə bu insanlardan hansını həqiqi avtobus vurmuşdur? Materialist fəlsəfənin bu suala verə biləcəyi bir cavab yoxdur. Doğru cavab yol qəzasını hamının öz zehinlərində bütün təfərrüatı ilə yaşamasıdır.

Tort yemək və daşa təpik vurmaq nümunələri üçün də vəziyyət eynidir. Tort yeyincə qarnında tortun şişliyini və toxluğunu hiss edən Engelsin duyğu orqanlarına aid sinirlər paralel olaraq ikinci bir adamın beyninə bağlansa Engels tort yediyi və doyduğu anda o adam da tort yeyəcək və doyacaq. Daşa təpik vurunca ayağı ağrıyan materialist Johnsonun sinirləri paralel olaraq bir başqa adama bağlansa, bu adam da daşa vuracaq və canı ağrıyacaq.

Yaxşı, hansı tort və hansı daş həqiqətdir? Materialist fəlsəfə buna da bir cavab verə bilməz. Doğru cavab budur: Həm Engels, həm digər adam tortu öz zehinlərində yeyib doymuşlar. Həm Johnson, həm də ikinci adam daşa təpik vurduğu anı öz zehinlərində bütün təfərrüatı ilə yaşamışlar.

Yuxarıda Politzerlə əlaqədar olaraq verdiyimiz nümunədə belə bir dəyişiklik edək: evində oturan Politzerin sinirlərini avtobusun vurduğu adamın beyninə, avtobusun vurduğu adamın sinirlərini də Politzerin beyninə bağlayaq. Bu vəziyyətdə isə Politzer əslində evində oturduğu halda avtobusun onu vurduğunu zənn edəcək, avtobusun vurduğu adam isə qəzanın bütün şiddətinə baxmayaraq, bunu əsla hiss etməyəcək, çünki özünün evdə oturduğunu düşünəcək. Bu məntiq tort yemək və daşa təpik vurmaq nümunələrinə də aid edilə bilər.

Göründüyü kimi, insanın hisslərini aşması və kənara çıxması mümkün deyil. Deməli, bir insanın ruhuna bədəni və heç bir maddi varlığı olmadığı halda və ortada maddi bir mühit də olmamasına baxmayaraq, hər şey seyr etdirilə bilər. Belə ki, adamın bunu anlaması mümkün deyil, hətta izlətdirilən üç ölçülü mükəmməl görüntüləri həqiqi zənn edib, varlığından da son dərəcə əmin olacaq. Çünki hər insan duyğu orqanlarına hiss etdirilən hisslərdən asılıdır.

İngilis filosofu David Hume bu həqiqət üzərindəki düşüncələrini belə ifadə etmişdir:

Çox səmimi olaraq, özüm dediyim şeyə daxil olduğum zaman mən isti və ya soyuğa, işığa və ya kölgəyə, eşqə və ya nifrətə, acıya və ya ləzzətə dair xüsusi bir hissə

və ya başqa bir şeyə daim rast gəlirəm. Mən bir hiss olmadan hər hansı bir zamanda özümü əsla tuta bilmərəm və əsla hissdən başqa bir şeyi müşahidə edə bilmərəm. 26

## Hisslərin Beyində Meydana gəlməsi Fəlsəfə Deyil, Elmi həqiqətdir

Materialistlər burada izah etdiklərimizin fəlsəfi bir dünyagörüş olduğunu iddia edirlər. Halbuki bizim "xarici dünya"nın əsli ilə heç bir zaman əlaqədə olmadığımız bir fəlsəfə deyil, elmi həqiqətdir. Görüntünün və hisslərin beyində necə meydana gəlməsi bütün tibb fakültələrində ətraflı şəkildə tədris edilir. Başda müasir fizika olmaqla, XX əsr elminin ortaya qoyduğu həqiqətlər maddənin konkret bir həqiqətə sahib olmadığını, hər kəsin birmənalı olaraq "beynindəki ekran"ı izlədiyini açıqca göstərir.

Bunu istər ateist olsun, istər buddist, istər başqa bir dünyagörüşə, ya da düşüncəyə sahib olsun elmə inanan hər kəs qəbul etmək məcburiyyətindədir. Bir materialist Allahın varlığını inkar edə bilər, amma bu elmi həqiqəti inkar edə bilməz.

Yaşadıqları dövrlərin elm anlayışı və elmi imkanları qeyri-kafi də olsa, Karl Marks, Friedrich Engels, Georges Politzer və başqalarının bu qədər asan və açıq bir həqiqəti qavraya bilməmələri çaşdırıcıdır. Amma indiki vaxtda elmin və texnologiyanın imkanları son dərəcə inkişaf etmişdir və bu imkanlar onsuz da çox açıq olan bu həqiqətin qavranmasını daha da asanlaşdırır.

## Materialistlər Tarixin Ən Böyük Tələsinə Düşmüşlər

Türkiyədəki materialistlər arasında baş verən və burada yalnız bir neçə nümunə ilə göstərdiyimiz çaxnaşma atmosferi əslində materialistlərin tarix boyunca qarşılaşmadıqları böyük bir məğlubiyyətlə üz-üzə olduqlarını göstərir. Maddənin əsli ilə əlaqədə olmadığımız həqiqəti müasir elm tərəfindən isbat edilmişdir və çox açıq, qəti, güclü bir şəkildə ortaya qoyulmuşdur. Materialistlər kor-koranə inandıqları, bel bağladıqları, güvəndikləri maddi dünyanın içindəki hər şeylə birlikdə tamamilə yox olduqlarını görür və buna qarşı heç bir şey edə bilmirlər.

Tarix boyunca materialist düşüncə həmişə var oldu və bu insanlar özlərindən və müdafiə etdikləri fəlsəfədən əmin olaraq onları yaratmış Allaha qarşı cahilcə baş qaldırdılar. Ortaya atdıqları ağıldan və elmdən uzaq ssenariyə görə maddə əzəli və əbədi idi və bütün bunların bir Yaradıcısı ola bilməzdi (Allahı tənzih edirik). Yalnız

qürurlarından ötrü Allahı inkar edərkən maddənin mütləq varlıq olduğu yalanının arxasına sığındılar. Bu fəlsəfədən elə əmin idilər ki, heç zaman bunun əksini isbat ediləcəyini düşünmürdülər.

Məhz buna görə maddənin əsli ilə əlaqədar olaraq bu kitabda izah edilən həqiqətlər bu insanları böyük bir qarışıqlığa salmışdır. Çünki burada izah edilənlər onların fəlsəfələrini yıxıb bir kənara atmış, üzərində mübahisə etməyə belə imkan verməmişdir. Bütün düşüncələrini, həyatlarını, qürurlarını və inkarlarını üzərinə qurduqları maddə əllərindən çıxmışdır.

Allahın bir sifəti inkarçılara tələ qurmasıdır. **Quranda "Bir zaman kafirlər səni həbs etmək, öldürmək və ya (yurdundan) qovmaq üçün sənə qarşı hiylə qururdular. Onlar hiylə işlətdilər, Allah da hiylə işlətdi. Allah hiylə işlədənlərin ən yaxşısıdır. "** (Ənfal surəsi, 30) ayəsi ilə bu həqiqət bildirilir.

Allah maddənin əsli ilə əlaqədə olduqlarını zənn etdirərək materialistləri tələyə salmış və tarixdə bənzəri görünməmiş şəkildə alçaltmışdır. Mallarının, mülklərinin, mövqelərinin, cəmiyyətin, bütün dünyanın, əslində yalnız kopiyaları ilə əlaqədə olduqları hər şeyin əslini bildiklərini sanmışlar, üstəlik bunlara güvənərək cahilcə Allaha qarşı çıxmışlar. Böyük bir ağılsızlıq göstərib lovğalanaraq Allaha qarşı üsyan etmiş və inkarda irəli getmişlər. Bunları edərkən də güc aldıqları yeganə şey maddə olmuşdur. Amma elə bir anlayış əksikliyi içinə düşmüşlər ki, Allahın onları sarıb-bürüdüyünü heç düşünməmişlər. Allah inkarçıların anlayışsızlıqları nəticəsində düşəcəkləri vəziyyəti Quranda belə xəbər vermişdir:

**Yoxsa bir hiylə qurmaq istəyirlər? Amma kafirlər özləri o hiylənin qurbanı olacaqlar. (Tur surəsi, 42)**

Bu, bəlkə də tarixin gördüyü ən böyük uduzmadır. Materialistlər qürurlanaraq əslində böyük bir tələyə düşmüşlər, Allaha qarşı çirkin bir cəsarət göstərərək etdikləri mübarizədə məğlub olmuşlar. "**Beləliklə hər bir ölkədə oranın günahkarlarını başçılar təyin etdik ki, onlar orada (mümkün qədər) yaramaz işlər görsünlər. Halbuki onlar o yaramaz işləri yalnız özlərinə qarşı edirlər və (bunu da) hiss etmirlər. " (Ənam surəsi, 123)** ayəsi Yaradıcımıza cahilcə baş qaldıran bu inkarçıların necə şüursuzluq içində olduqlarını və hansı sonla qarşılaşacaqlarını ən açıq şəkildə xəbər verir.

Bir başqa ayədə isə bu həqiqət belə bildirilir:

**Onlar Allahı və iman gətirənləri aldatmağa çalışırlar. Halbuki yalnız özlərini aldadır və (bunu) anlamırlar. (Bəqərə surəsi, 9)**

İnkarçılar tələ qurmağa cəhd edərkən Allahın ayədə bildirdiyi "**anlamırlar**" ifadəsi ilə açıqlandığı kimi, çox əhəmiyyətli bir həqiqəti anlaya bilməmişlər: Yaşadıqları bütün hadisələrin zehinlərində hiss etdikləri kopiya görüntülər olduğu və qurduqları tələlərin də zehinlərində yaranan bir görüntü olduğunu... Bu anlamazlıqları səbəbindən də Allahla tək olduqlarını unudaraq özləri tələyə düşmüşlər.

Hər dövrdə olduğu kimi, bu dövrdə də Allah inkarçıların bütün hiyləli nizamlarını yıxmışdır. Allah "**...Şübhəsiz ki, şeytanın hiyləsi zəifdir. (Nisa surəsi, 76)** ayəsi ilə bu hiylələrin qurulduqları andan nəticəsiz olacağını da xəbər vermişdir. Və möminləri də "**...onların qurduğu hiylə sizi ziyana sala bilməz. " (Ali-İmran surəsi, 120)** ayəsi ilə müjdələmişdir.

Allah bir başqa ayəsində inkar edənlərin aldanmalarını belə bildirir: "**Kafirlərin əməlləri səhradakı ilğıma bənzəyir ki, susamış kimsə onu su hesab edər... ".** (Nur surəsi, 39) Bu ayədə işarə edildiyi kimi, materializm fəlsəfəsi də üsyan edənlər üçün bir "ilğım"a çevrilər: ona güvənərək əllərini uzatdıqlarında hər şeyin bir xəyaldan ibarət olduğunu anlayarlar. Allah onları belə bir ilğımla aldatmışdır, onlara maddənin əsilləri ilə əlaqədə olduqlarını zənn etdirmişdir. Professorlar, astronomlar, bioloqlar, fiziklər, mövqeləri nə olursa-olsun maddəni özlərinə ağılsızca ilah etmələri (Allahı tənzih edirik) səbəbindən bu oyuna gəlmişlər, bir uşaq kimi aldanmış və alçalmışlar. Beyinlərində gördükləri kopiya görüntülərin mütləq olduğunu sanaraq onun üzərində fəlsəfələrini, ideologiyalarını qurmuşlar, ciddi mübahisələr etmişlər, "intellektual" izahatlardan istifadə etmişlər. Bütün bunlardan ötrü də özlərini çox ağıllı saymışlar, kainatın həqiqəti haqqında fikir yürütməyi düşünmüşlər və ən əhəmiyyətlisi öz məhdud ağılları ilə Allah haqqında zənnə qapılmışlar. Allah onların düşdükləri bu vəziyyəti bir ayəsində belə bildirir:

**Onlar hiylə qurdular, Allah da hiylə qurdu. Allah hiylə quranların ən yaxşısıdır. (Ali-İmran surəsi, 54)**

Dünyada bəzi tələlərdən xilas olmaq mümkün ola bilər, ancaq Allahın inkar edənlərə qurduğu bu tələ elə möhkəmdir ki, ondan qurtulmaq əsla mümkün deyil. Nə edirlər etsinlər, kimə istəsələr müraciət etsinlər, Allahdan başqa özlərinə bir köməkçi tapmaları mümkün deyil. Allahın Quranda xəbər verdiyi kimi "**...Onlar Allahdan başqa özlərinə nə bir himayədar, nə də bir yardımçı tapacaqlar.." (Nisa surəsi, 173)**

Materialistlər belə bir tələyə düşəcəklərini heç gözləmirdilər. XX əsrin bütün imkanları əllərində ikən rahatlıqla inkar edə biləcəklərini və insanları da inkara

sürükləyə biləcəklərini sanırdılar. Allah inkarçıların tarix boyunca daşıdıqları bu zehniyyəti və uğradıqları sonu Quranda belə xəbər vermişdir:

**Onlar hiylə qurdular, Biz də hiylə qurduq. Lakin onlar (bunu) hiss etmədilər. Bax gör onların hiylələrinin aqibəti necə oldu. Biz onları bütün tayfalarıyla birlikdə yerlə-yeksan etdik. (Nəml surəsi, 50-51)**

Ayələrdə izah edilən həqiqətin bir mənası da budur: Materialistlərə sahib olduqları hər şeyin sadəcə beyinlərindəki kopiyaları ilə əlaqədə olduqları açıqlanmış, yəni əllərindəki hər şey bütünlüklə yox edilmişdir. Onlar əslini bildiklərini zənn etdikləri mallarının, fabriklərinin, qızıllarının, dollarlarının, uşaqlarının, yoldaşlarının, dostlarının, mövqelərinin, hətta öz bədənlərinin əllərindən getdiyinə şahidlik edərkən "yox olmuşlar". Maddə olmaqdan çıxmış, artıq bir ruh halına girmişlər.

Şübhəsiz, bu həqiqətin fərqinə varmaq materialistlər üçün dəhşət verici hadisədir. Çünki bu, onlar üçün hələ dünyada ikən "ölmədən bir ölüm"ə bərabərdir.

Allah "**Məni yaratdığım kimsə ilə tək burax" (Muddəssir surəsi, 11)** ayəsi ilə hər insanın Allah qatında əslində tək-tənha olduğunu xəbər vermişdir. Bu fövqəladə həqiqət bir çox ayədə bildirilmişdir:

**Hüzurumuza ilk dəfə sizi xəlq etdiyimiz kimi tək-tənha, həm də sizə verdiyimiz (nemətləri) arxanızda qoyub gəldiniz.... (Ənam surəsi, 94)**

**Onların hər biri Qiyamət günü Onun hüzuruna tək-tənha gələcək. (Məryəm surəsi, 95)**

Bu ayələrdə izah edilən həqiqətin bir mənası da budur: Maddəni cahilcə ilah edənlər, (Allahı tənzih edirik) Allahdan gəlmiş və yenə ONA dönmüşlər. İstəsələr də, istəməsələr də Allaha təslim olmuşlar. İndi haqq-hesab gününü gözləyirlər və o gün hamısı bir-bir hesab verəcəklər. Anlamaq istəməsələr də...

**Nəticə**

Bura qədər izah etdiyimiz mövzu həyatınız boyunca sizə izah edilmiş ən böyük həqiqətlərdən biridir. Maddənin əsli ilə heç bir zaman əlaqədə olmadığımızı isbat edən

bu mövzu Allahın varlığının və yaradışının qavranmasının, Onun yeganə mütləq varlıq olduğunun başa düşülməsinin açarıdır.

Bu mövzunu anlayan insan dünyanın, insanların çoxunun sandığı kimi bir yer olmadığını dərk edər. Dünya prospektlərdə məqsədsiz gəzənlərin, meyxanalarda dava edənlərin, lüks kafelərdə bir-birlərinə göstəriş verənlərin, malları ilə öyünənlərin, həyatlarını boş məqsədlərə həsr edənlərin sandığı kimi mütləq bir yer deyil. Bizim dünyaya dair hər cür məlumatımız, beynimizdə gördüyümüz kopiya görüntülərdən ibarətdir. İnsanların hamısı da bu kopiya görüntüləri zehinlərinin içində seyr edən bir kölgə varlıqlardır, amma bunun şüurunda deyillər.

Bu mövzu çox əhəmiyyətlidir və Allahı inkar edən materialist fəlsəfəni əvvəldən çökdürür. Marks, Engels, Lenin kimi materialistlərin bu mövzunu eşitdiklərində çaxnaşmaya qapılmaları, hirslənmələri, ətrafındakıları "əsla düşünməyin" deyə xəbərdar etmələri bu səbəbdəndir. Əslində bu insanlar hisslərin beyində meydana gəlməsi həqiqətini belə qavraya bilməyəcək qədər böyük bir ağılsızlıq içindədirlər. Beyinlərinin içində seyr etdikləri dünyanı "xarici dünyanın əsli" sanır, bunun əksini göstərən açıq-aşkar dəlilləri isə heç cür anlaya bilmirlər.

Bu qəflət Allahın inkarçılara vermiş olduğu ağıl əksikliyinin bir nəticəsidir. **Çünki Allahın Quranda bildirdiyi kimi, inkarçılar "Onların qəlbləri var, onunla anlamazlar; gözləri var, onunla görməzlər; qulaqları var, onunla eşitməzlər. Onlar heyvan kimidirlər, hətta daha çox azğınlıqdadırlar. Qafil olanlar da məhz onlardır.." (Əraf surəsi, 179)**

Yaşadığımız dövrdə bəhs etdiyimiz həqiqət elmin ortaya qoyduğu dəlillərlə isbat edilmişdir. Kainatın əsli ilə əlaqədə olmadığımız dünya tarixində ilk dəfə bu cür konkret, açıq və aydın şəkildə izah edilir.

Bu səbəblə XXI əsr insanların geniş şəkildə İlahi həqiqəti qavrayacaqları və yeganə mütləq varlıq olan Allaha dalğa-dalğa yönələcəkləri bir tarixi dönüş nöqtəsi olacaq. XXI əsrdə XIX əsrin materialist azğın inancları tarixin zibilliyinə atılacaq, Allahın varlığı və yaradılışı qavranacaq, məkansızlıq, zamansızlıq kimi həqiqətlər aydın olacaq, insanlıq əsrlərdən bəri gözünün önünə çəkilən pərdələrdən, aldatmalardan və batil inanclardan xilas olacaq.

# ZAMANSIZLIQ HƏQİQƏTİ

Bura qədər izah etdiklərimizdən əslində "üç ölçülü bir məkan"ın əsli ilə əlaqədə olmadığımız, bütün həyatımızı zehnimizdəki bir məkanın içində sürdüyümüz məlum olur. Bunun əksini iddia etmək, ağıl və elmdən uzaq bir batil inanc olacaq. Çünki xaricimizdəki dünyanın əsli ilə əlaqədə olmağımız mümkün deyil.

Bu vəziyyət təkamül nəzəriyyəsini meydana gətirən materialist fəlsəfənin birinci fərziyyəsini iflasa uğradır. Bu fərziyyə maddənin mütləq və sonsuz olduğu fərziyyəsidir. Materialist fəlsəfənin ikinci fərziyyəsi isə zamanın mütləq və sonsuz olması fərziyyəsidir ki, bu da digəri qədər batil bir inancdır.

## Zaman hissi

Zaman dediyimiz hiss əslində bir anı bir başqa anla müqayisə etmə üsuludur. Bunu bir misalla açıqlaya bilərik: Bir cismə vurduğumuzda ondan səs çıxar. Eyni cismə bir daha vurduğumuzda yenidən səs çıxar. Adam birinci səs ilə ikinci səs arasında bir müddət olduğunu düşünər və bu müddətə "zaman" deyər. Halbuki ikinci səsi eşitdiyi anda, birinci səs yalnız zehinindəki bir xəyaldan ibarətdir. Yalnız yaddaşında var olan bir məlumatdır. **Adam yaddaşında olanı yaşadığı anla müqayisə edərək zaman qəbulunu əldə edər. Əgər bu müqayisə olmasa zaman hissi də olmayacaq.**

Başqa bir misal: adam otağa qapıdan girib, sonra da otağının ortasındakı bir kresloya oturan bir insanı gördüyündə müqayisə edər. Gördüyü insan kresloya oturduğu anda onun qapını açması, otağının ortasına doğru getməsi ilə əlaqədar görüntülər yalnız beyində yaranan bir məlumatdır. Zaman hissi kresloya oturan insanla bu məlumatlar arasında müqayisə edilərək ortaya çıxar.

**Qısacası, zaman beyində saxlanan bəzi məlumatlar arasında müqayisə edilməklə var olur.** Əgər bir insanın yaddaşı olmasa, beyni bu cür şərhlər etməz və dolayısı ilə zaman qəbulu da meydana gəlməz. Bir insanın "mənim otuz yaşım var" deməsinin səbəbi beynində bəhs etdiyi otuz ilə aid bəzi məlumatların yığılmasıdır. Əgər yaddaşı olmasa, bir zaman hissi olduğunu düşünməyəcək, yalnız yaşadığı bir "an" ilə əlaqədə olacaq ki, bu da çox əhəmiyyətlidir.

## Zamansızlığın Elmi İzahı

Bu mövzuda fikir yürüdən filosof və elm adamlarından nümunələr verərək mövzunu daha yaxşı izah edək. Nobel mükafatı almış məşhur genetika professoru və

alim François Jacob "Mümkünlərin Oyunu" adlı kitabında zamanın geriyə axması ilə əlaqədar bunları izah edir:

**Sondan başlayaraq göstərilən filmlər zamanın tərsinə doğru axacağı bir dünyanın nəyə bənzəyəcəyini düşünməyimizə imkan verir.** Südün fincandakı qəhvədən ayrılacağı və süd qabına çatmaq üçün havaya atılacağı bir dünya: işıq dəstələrinin bir qaynaqdan fışqıracaq yerdə bir tələnin (çəkim mərkəzinin) içində toplanmaq üçün divarlardan çıxacağı bir dünya; saysız damlaların heyrət verici əməkdaşlıqla suyun xaricinə doğru atılan bir daşın bir insanın ovucuna qonmaq üçün tullanacağı bir dünya. **Amma zamanın tərsinə çevrildiyi belə bir dünyada, beynimizin müddətləri və yaddaşımızın meydana gəlməsi də eynilə tərsinə çevrilmiş olacaq.** Keçmiş və gələcək üçün də eyni şey olacaq və dünya büsbütün bizə göründüyü kimi görünəcək. 11

Beynimiz müəyyən bir sıralama üsuluna alışdığı üçün bu anda dünya yuxarıda izah edildiyi kimi olmur və zamanın həmişə irəli axdığını düşünürük. Halbuki bu, beynimizin içində verilən bir qərardır və dolayısı ilə tamamilə nisbidir. Əgər yaddaşımızdakı məlumatlar filmlərdəki kimi geriyə doğru düzülsə, zamanın axışı da bizim üçün filmlərdə oynadıldığı kimi geriyə doğru olacaq. Belə bir vəziyyətdə, keçmişi gələcək, gələcəyi də keçmiş hesab etməyə başlayacaq, həyatı indiki nizamının tam tərs bir nizamda yaşayacaqdıq.

Əslində isə zamanın necə axdığını, ya da axıb-axmadığını əsla bilmərik. **Bu da zamanın mütləq bir həqiqət olmadığını, yalnız bir hiss forması olduğunu göstərir.**

Zamanın bir hiss olduğu XX əsrin ən böyük fiziki sayılan Eynşteynin ortaya qoyduğu Ümumi Nisbilik Nəzəriyyəsi ilə də təsdiqlənmişdir. *Lincoln Barnett "Kainat və Eynşteyn" adlı kitabında bu mövzuda bunları yazır:*

Eynşteyn kosmosla birlikdə sonsuz keçmişdən sonsuz gələcəyə doğru axan dəyişməz bir universal zaman anlayışını da kənara qoydu. **Nisbilik Nəzəriyyəsini əhatə edən anlaşılmazlığın böyük hissəsi insanların zaman duyğusunun da rəng duyğusu kimi bir hiss forması olduğunu qəbul etmək arzusundan doğulur...** kosmos maddi varlıqların ehtimali bir sırasıdırsa zaman da hadisələrin ehtimali bir sırasıdır. Zamanın izahını ən yaxşı Eynşteynin sözləri açıqlayır: "Fərdin həyatları bizə bir hadisələr silsiləsi içində təşkil edilmiş kimi görünür. **Bu silsilədən xatırladığımız hadisələr 'daha əvvəl' və 'daha sonra' ölçüsünə görə sıralanmış kimidir.** Bu səbəblə fərd üçün bir mən-zamanı vardır. Bu zaman öz içində ölçülə bilməz. Hadisələrlə rəqəmlər arasında elə bir əlaqə qura bilərəm ki, böyük bir ədəd əvvəlki bir hadisə ilə deyil, sonrakı bir hadisə ilə əlaqədar olar. 12

Eynşteynin bu sözlərindən zamanın irəliyə doğru axması fikrinin şərti olduğu aydın olur.

**Eynşteyn Barnettin ifadələri ilə "kosmos və zamanın da hiss formaları olduğunu, rəng, forma və böyüklük anlayışları kimi bunların da şüurdan ayrıla bilməyəcəyini göstərmiş"dir.13 Ümumi Nisbilik Nəzəriyyəsinə görə "zamanın da onu ölçdüyümüz hadisələr silsiləsindən ayrı, müstəqil bir varlığı yoxdur."**

Zaman bir hissdən ibarət olduğuna görə tamamilə qəbul edənə bağlıdır, yəni nisbi bir anlayışdır.

Zamanın axma sürəti onu ölçərkən istifadə etdiyimiz istinadlara görə dəyişir. Çünki insanın bədənində zamanın axma sürətini mütləq bir düzgünlüklə göstərəcək təbii saat yoxdur. Lincoln Barnettin ifadə etdiyi kimi "rəngi ayırd edəcək bir göz yoxdursa, rəng deyə bir şey olmayacağı kimi, zamanı göstərəcək bir hadisə olmadıqca, bir an, bir saat, ya da bir gün heç bir şey deyil. "14

Zamanın nisbiliyi yuxuda çox açıq bir şəkildə yaşanır. Yuxuda gördüklərimizin saatlarla davam etdiyini hiss etsək də, əslində hər şey bir neçə dəqiqə, hətta bir neçə saniyə sürür.

Mövzunu bir az daha açıqlamaq üçün bir nümunə üzərində düşünək. Xüsusi olaraq dizayn edilmiş bir pəncərəli otaqda müəyyən bir müddət keçirdiyimizi düşünək. Otaqda bir də keçən zamanı görə bilməyimiz üçün saat olsun. Eyni zamanda, otağının pəncərəsindən günəşin müəyyən vaxtda doğub-batdığını görək. Bir neçə gün keçdikdən sonra o otaqda nə qədər qaldığımız soruşulduğunda verəcəyimiz cavab saata baxaraq əldə etdiyimiz məlumat, həm də günəşin neçə dəfə doğub-batdığına bağlı olaraq etdiyimiz hesabdır. Məsələn, otaqda üç gün qaldığımızı hesablayarıq. Amma əgər bizi bu otağa qoyan adam gəlib "əslində sən bu otaqda iki gün qaldın" desə və pəncərədə gördüyümüz günəşin süni olaraq yaradıldığını, otaqdakı saatın da xüsusi sürətlə işlədildiyini söyləsə, bu vəziyyətdə etdiyimiz hesabın heç bir mənası olmaz.

Bu nümunə də göstərir ki, zamanın axma sürəti ilə əlaqədar məlumatımız yalnız qəbul edənə görə dəyişən istinadlara əsaslanır.

Eyni şəkildə zamanın axma sürətinin müxtəlif şəraitlərdə hər kəs tərəfindən fərqli hiss edilməsi də zamanın psixoloji bir qəbuldan ibarət olduğunu sübut edir. Məsələn, bir yoldaşınızla görüşəcəyiniz zaman onun 10 dəqiqəlik gecikməsi sizə bitmək bilməyən, çox uzun bir zaman kimi gələ bilər. Ya da səhər məktəbə və ya işə getmək üçün oyanan yuxusuz insana yatacağı 10 dəqiqə olduqca uzun gələ bilər, hətta bu sayədə yuxusunun böyük bir qismini aldığını düşünə bilər. Bəzi şərtlərdə isə bunun tam tərsi yaşanar. Şagirdlik illərindən xatırlayacağınız kimi, sanki bir əsr sürən 45 dəqiqəlik bir dərsdən sonra 10 dəqiqəlik bir tənəffüs çox tez keçə bilər.

Zamanın nisbiliyi elmi üsulla da ortaya qoyulmuş bir həqiqətdir. Eynşteynin Ümumi Nisbilik Nəzəriyyəsi göstərir ki, zamanın sürəti bir cismin sürətinə və çəkim

mərkəzinə olan uzaqlığına görə dəyişir. Sürət artdıqca zaman qısalır, sıxışır; daha yavaş işləyərək sanki "dayanma" nöqtəsinə yaxınlaşır.

Bunu Eynşteynin bir nümunəsi ilə açıqlayaq. Bu nümunəyə görə eyni yaşda olan əkizlərdən biri Dünyada qalarkən, digəri işıq sürətinə yaxın bir sürətdə kosmosa səfərə çıxır. Kosmosa uçan adam geri döndüyündə əkiz qardaşını özündən çox daha yaşlı görəcək. Bunun səbəbi kosmosda səyahət edən qardaş üçün zamanın daha yavaş axmasıdır. Eyni nümunə bir raketlə kosmosda səfər edən bir ata və dünyada qalan oğlu üçün də düşünülə bilər: "əgər atanın 27 yaşı, oğlunun 3 yaşı olsa, 30 ildən sonra ata dünyaya döndüyündə oğul 33 yaşında, ata isə 30 yaşında olacaq. "15

Zamanın nisbi olması saatların yavaşlaması və ya sürətlənməsindən deyil, bütün maddi sistemin atomaltı hissələrə qədər fərqli sürətlərdə işləməsindən irəli gəlir. Zamanın qısaldığı belə bir mühitdə insan bədənindəki ürək döyünmələri, hüceyrə bölünməsi, beyin fəaliyyətləri kimi əməliyyatlar daha yavaş işləyir. Beləliklə, adam zamanın yavaşlamasını hiss etmədən gündəlik həyatını davam etdirir.

Nisbilik Nəzəriyyəsi ilə ortaya qoyulan bu həqiqətlər daha sonra bir çox elm adamı tərəfindən dəfələrlə təsdiqlənmişdir. Bu nəzəriyyə ilə əlaqədar İsaak Asimovun təsbiti belədir:

Eynşteynin nisbilik nəzəriyyələrinin nəşr olunmasından 84 il keçmişdir. Bu müddət ərzində nəzəriyyələr dəfələrlə testdən keçmişdir və hər dəfə Eynşteyn haqlı çıxmışdır. 16

## Quranda Nisbilik

**Müasir elmin bu tapıntılarının bizə göstərdiyi nəticə zamanın materialistlərin sandığı kimi mütləq bir həqiqət deyil, nisbi olaraq qəbul edilməsidir.** Bu mövzudakı əhəmiyyətli həqiqət isə XX əsrə qədər elmin fərqində olmadığı bu həqiqətin bundan 14 əsr əvvəl endirilmiş Quranda bildirilməsidir. Quran ayələrində zamanın nisbi bir anlayış olduğunu göstərən şərhlər mövcuddur.

Müasir elm tərəfindən təsdiqlənən, zamanın psixoloji bir qəbul olduğu, yaşanan hadisəyə, məkana və şərtlərə görə fərqli hiss edilmə həqiqətini bir çox Quran ayəsində görmək mümkündür. Məsələn, bir insanın bütün həyatı Quranda bildirildiyinə görə çox qısa bir müddətdir:

**O gün Allah sizi çağıracaq. Siz də Ona həmd edərək çağırışına cavab verəcək və (dünyada) çox az qaldığınızı güman edəcəksiniz. (İsra surəsi, 52)**

**(Allah) onları (bir yerə) toplayacağı gün, sanki gündüzün ancaq bir saatını qalmışlar kimi, bir-birlərini tanıyacaqlar … (Yunus surəsi, 45)**

Bəzi ayələrdə isə insanlara zamanın sandıqlarından da qısa bir müddətdə keçdiyi belə bildirilir:

**Allah kafirlərdən: "Yer üzündə neçə il qaldınız?"– deyə soruşacaq. Onlar: "Bir gün yaxud bir gündən də az qaldıq. Sən (günləri) sayanlardan soruş"– deyəcəklər. (Allah) deyəcək: "Siz (orada) çox az qaldınız. Kaş (bunu) biləydiniz! (Muminun surəsi, 112-114)**

Başqa ayələrdə də zamanın müxtəlif mühitlərdə fərqli sürətlə keçdiyi bildirilir:

**... Rəbbinin yanında olan bir gün sizin saydığınızın min ili kimidir! (Həcc surəsi, 47)**

**Mələklər və Ruh (Cəbrail) Ona doğru sayı əlli min ilə bərabər bir gün ərzində qalxırlar. (Məaric surəsi, 4)**

**O, göydən yerə qədər olan bütün işləri idarə edir. Sonra da (bu işlər) sizin saydığınız (illərdən) min ilə bərabər olan bir gündə Ona doğru yüksəlir. (Səcdə surəsi, 5)**

Bu ayələr zamanın nisbiliyini açıq surətdə göstərir. Elm tərəfindən XX əsrdə məlum olan bu nəticənin bundan 1400 il əvvəl Quranda bildirilməsi isə, əlbəttə, Quranı zamanı və məkanı tamamilə əhatə edən Uca Allahın endirdiyinin dəlillərindən biridir.

Quranın daha bir çox ayəsində istifadə edilən üslub açıqca zamanın bir qəbul olduğunu ortaya qoyur. Məsələn, Allah Quranda bəhs edilən mömin birlik olan Kəhf əhlini üç əsrdən çox dərin bir yuxuya vermişdir. Daha sonra oyandırdığında isə bu insanlar zaman olaraq çox az bir müddət yatdıqlarını düşünmüşlər, nə qədər yatdıqlarını təxmin edə bilməmişlər:

**Biz mağarada onların qulaqlarını illərlə qapalı saxladıq (onları yuxuya verdik). Sonra iki dəstədən hansının onların (mağarada) qaldıqları müddəti daha düzgün hesabladıqlarını bilmək üçün onları oyatdıq. (Kəhf surəsi, 11-12)**

**Beləcə onları oyatdıq ki, (nə baş verdiyini) bir-birindən soruşub öyrənsinlər. Onlardan biri: "(Burada) nə qədər qaldınız?"– dedi. (Bəziləri:) "Bir gün yaxud günün bir hissəsi qədər qaldıq"– dedilər. (Digərləri də )dedilər: "Qaldığınız müddəti Rəbbiniz daha yaxşı bilir... (Kəhf surəsi, 19)**

Aşağıdakı ayədə izah edilən vəziyyət də zamanın əslində psixoloji bir qəbul olduğunun əhəmiyyətli bir dəlilidir.

**Və ya (damları) uçulub xarabalığa çevrilmiş bir kəndin yanından keçən kimsənin (hekayətini) bilmirsənmi? O demişdi: "Allah bu kəndiölümündən sonra necə diriləcək?" Allah onu öldürüb yüz il saxladı, sonra da dirildib dedi: "Nə qədər qaldın?" O dedi: "Bir gün yaxud bir gündən də az qaldım!" (Allah) dedi: "Əksinə, sən yüz il qaldın. Öz yeməyinə və içdiyin suya bax, hələ də xarab olmayıb. Uzunqulağına da bax! Biz səni insanlar üçün bir dəlil etdik. Sümüklərə bax, gör Biz onları necə bir-birinə birləşdirir, sonra da onların üstünü ətlə örtürük". Ona (həqiqət) bəlli olduqda: "Mən artıq bilirəm ki, Allah hər şeyə qadirdir!"– dedi. (Bəqərə surəsi, 259)**

Göründüyü kimi, bu ayə zamanı yaradan Allahın zamandan münəzzəh olduğunu açıqca göstərir. İnsan isə Allahın özü üçün təqdir etdiyi zamandan asılıdır. Ayədə göründüyü kimi, insan nə qədər yatdığını belə bilməkdə acizdir. Belə bir vəziyyətdə (materialistlərin yanlış məntiqi kimi) zamanın mütləq olduğunu zənn etmək son dərəcə ağılsız bir iddia olacaq.

**Qədər**

Zamanın nisbi olması bizə çox əhəmiyyətli bir həqiqəti göstərir: Bu nisbilik o qədər dəyişkəndir ki, bizim üçün milyardlarla il davam edən bir zaman hissəsi bir başqa ölçüdə yalnız bir saniyə çəkə bilər. Hətta kainatın əvvəlindən sonuna qədər keçən çox böyük bir zaman hissəsi bir başqa ölçüdə bir saniyə belə deyil, yalnız bir "an" yaşanar.

Məhz bir çox insanın anlaya bilmədiyi, materialistlərin isə anlaya bilməyərək inkar etdikləri qədər həqiqəti buradadır. Qədər Allahın keçmişdə və gələcəkdə olan bütün hadisələri bilməsidir. İnsanların əksər hissəsi isə Allahın hələ yaşanmamış hadisələri əvvəldən necə bildiyini soruşar və qədərin həqiqətini anlaya bilməzlər. Halbuki "yaşanmamış hadisələr" bizim üçün yaşanmamış hadisələrdir. Allah isə zamana və məkana bağlı deyil, onsuz da bunları yaradan Özüdür. **Bu səbəblə Allah üçün keçmiş, gələcək və bu an hamısı birdir və hamısı olub-bitmişdir.**

Lincoln Barnett Ümumi Nisbilik Nəzəriyyəsinın bu həqiqətə necə işarə etdiyindən "Kainat və Eynşteyn" adlı kitabında bəhs edir. Barnettə görə varlıqları əhatəli olaraq ancaq "bütün ucalığı ilə kosmik bir zehin" qavraya bilər. Barnettin "kosmik zehin" dediyi iradə bütün kainata hakim olan Allahın elmi və ağlıdır. Bizim bir xətkeşin başını, ortasını, sonunu və aralarındakı bütün vahidləri tam şəkildə və bir anda asanlıqla görə bildiyimiz kimi Allah da bizim bağlı olduğumuz zamanı əvvəldən sona qədər bir an olaraq bilir. İnsanlar isə yalnız zamanı gəlincə bu hadisələri yaşayıb Allahın onlar üçün yaratdığı qədərə şahid olurlar.

Bu məqamda bəzi insanların qarşıya qoyduğu yanlış qədər anlayışına da diqqət yetirmək lazımdır. Bu yanlış qədər anlayışında Allahın insanlara bir "alın yazısı" təyin etdiyi, amma onların bəzən bunu dəyişdirdikləri kimi batil bir inancları vardır. Məsələn, ölümdən qurtulan bir xəstə üçün "qədərini məğlub etdi" kimi cahilcə ifadələrdən istifadə edilir. Halbuki heç kim qədərini dəyişdirə bilməz. Ölümdən qurtulan adam qədərində ölümdən qurtulması yazılı olduğu üçün ölməmişdir. "Qədərimi məğlub etdim" deyərək özlərini aldadanların bu cümləni söyləmələri və ona inanmaları da qədərlərindədir. Belə ki, ayədə "**...Uzunömürlünün uzun ömür sürməsi də, onun ömrünün qısaldılması da ancaq Yazıda (Lövhi-məhfuzda) yazılmışdır. Həqiqətən, bu, Allah üçün çox asandır.**" (Fatır surəsi, 11) deyə buyrularaq bunların hamısının qədərdə olduğu bildirilmişdir. Çünki qədər Allahın elmidir və bütün zamanı eyni anda bilən və bütün zamana və məkana hakim olan Allah üçün hər şey qədərdə yazılmış və bitmişdir.

Allah üçün zamanın bir an olduğunu Quranda istifadə edilən üslubdan da anlayarıq: bizim üçün gələcək zamanda olacaq bəzi hadisələr Quranda çoxdan olub-bitmiş bir hadisə olaraq izah edilir. Məsələn, axirətdə insanların Allaha verəcəkləri hesabın ifadə edildiyi ayələr bunu çoxdan olub-bitmiş bir hadisə kimi izah edir:

**Sur üfürüləcək və Allahın istədiyi kimsələrdən başqa göylərdə və yerdə kim varsa, hamısı öləcəkdir. Sonra bir daha ona üfürülən kimi onlar qalxıb baxacaqlar. Yer öz Rəbbinin nuru ilə işıqlanacaq, (əməllər yazılmış) kitab (hər kəsin qarşısına) qoyulacaq, peyğəmbərlər və şahidlər gətiriləcəkdir. Onların arasında ədalətlə hökm veriləcək... (Zumər surəsi, 68-69)**

**Kafirlər dəstə-dəstə Cəhənnəmə sürüklənəcəklər... (Zumər surəsi, 71)**

**Rəbbindən qorxanlar da dəstə-dəstə Cənnətə gətiriləcəklər... (Zumər surəsi, 73)**

Bu mövzudakı digər nümunələr isə belədir:

**Hər kəs onu qova-qova (məhşərə) gətirənlə və bir də (əməllərinə) şahidlik edənlə (birlikdə) gələcəkdir. (Qaf surəsi, 21)**

**Göy yarılacaq və həmin gün o, süst olacaqdır. (Haqqə surəsi, 16)**

**və onlara səbr etdiklərinə görə Cənnəti bəxş edər və (orada geyəcəkləri) ipəklə mükafatlandırar. (Onlar) orada taxtlar üzərində (mütəkkələrə) dirsəklənəcək və orada nə günəş, nə də şaxta görməyəcəklər. (İnsan surəsi, 12-13)**

**Cəhənnəm isə hər görmə qabiliyyətliyə göstəriləcəkdir. (Naziat surəsi, 36)**

**Bu gün məhz iman gətirənlər kafirlərə güləcəklər. (Mutəffifin surəsi, 34)**

**Günahkarlar atəşi görən kimi oraya düşəcəklərini yəqin edəcək və oradan qaçmağa bir yer tapa bilməyəcəklər. (Kəhf surəsi, 53)**

Göründüyü kimi, bizim üçün ölümümüzdən sonra yaşanacaq hadisələr Quranda yaşanmış və bitmiş hadisələr olaraq izah edilir. Çünki Allah bizim bağlı olduğumuz nisbi zaman ölçüsündən münəzzəhdir. Allah bütün hadisələri zamansızlıqda diləmiş, insanlar bunları etmiş və bütün bu hadisələr yaşanmış və nəticələnmişdir. Böyük-kiçik hər cür hadisənin Allahın məlumatı daxilində reallaşdığı və bir kitabda qeyd edildiyi həqiqəti isə aşağıdakı ayədə xəbər verilir:

**Sən hansı bir işdə olsan, Qurandan nə oxusan, siz nə iş görsəniz, başınız ona qarışarkən Biz sizə şahid olarıq. Nə yerdə, nə də göydə zərrə qədər bir şey**

**Rəbbindən gizli qalmaz. Bundan daha kiçiyi və daha böyüyü yoxdur ki, açıq-aydın Yazıda (Lövhi-Məhfuzda) olmasın. (Yunus surəsi, 61)**

## Materialistlərin Narahatlığı

Maddənin əsli ilə zamansızlıq və məkansızlıq mövzularını təhlil etdiyimiz bu hissədə izah edilənlər, əslində son dərəcə açıq həqiqətlərdir. Daha əvvəl də ifadə edildiyi kimi bunlar bir fəlsəfə və ya bir düşüncə forması deyil, inkar edilməsi mümkün olmayan elmi həqiqətlərdir. Texniki bir həqiqət olmasının xaricində ağıla əsaslanan və məntiqi dəlillər də bu mövzuda başqa alternativə yer vermir: Kainat, onu meydana gətirən maddələr və içindəki insanlarla və zamanla birlikdə bir görüntü varlıqdır. Yəni əsli ilə əlaqədə ola bilmədiyimiz, zehində yaşanan bir hisslər toplusudur.

Materialistlər bu həqiqəti anlamaqda çətinlik çəkirlər. Materialistlərin bu mövzunu anlaya bilməmələrinin əsl səbəbi isə anladıqlarında qarşı-qarşıya qalacaqları həqiqətin şüuraltında böyük bir qorxu meydana gətiməsidir. Lincoln Barnett bu mövzunun yalnız "sezilməsinin" belə materialist elm adamlarını qorxutduğunu və narahat etdiyini belə ifadə edir:

Filosoflar bütün obyektiv həqiqətləri hisslərin bir kölgə dünyası halına gətirərkən, elm adamları insani duyğuların sərhədlərini qorxu və narahatlıq ilə sezdilər. 17

Maddənin əsli ilə əlaqədə ola bilmədiyi və zamanın bir hiss olduğu həqiqəti izah edildiyində bir materialist böyük qorxu keçirər. Çünki maddə və zaman onun üçün mütləq varlıq olan iki anlayışdır. Bunlar sanki tapındığı bütdür, çünki maddə və zaman tərəfindən (təkamül yolu ilə) yaradıldığına inanır. (Allahı tənzih edirik)

Yaşadığı kainatın, dünyanın, bədəninin, digər insanların, fikirlərindən təsirləndiyi materialist filosofların, qısacası heç bir şeyin əsilləri ilə qarşılaşa bilmədiyini hiss etdiyində isə bütün mənliyini dəhşət bürüyür. Güvəndiyi, inandığı, mədət umduğu hər şey bir anda özündən uzaqlaşıb itir. **Əslini məhşər günü yaşayacağı və "O gün (müşriklər) Allaha təslim olduqlarını bildirəcək və uydurduqları (bütlər) onlardan uzaqlaşıb qeyb olacaqlar" (Nəhl surəsi, 87)** ayəsində xəbər verilən çarəsizliyi hiss edir.

Bu andan etibarən materialist özünü maddənin əsli ilə əlaqədə olduğuna inandırmağa çalışır, bunun üçün "dəlil"lər gətirir: yumruğunu divara vurur, daşları təpikləyir, qışqırır, çığırır, amma əsla həqiqətən xilas ola bilmir.

Materialistlər bu həqiqəti öz başlarından atmaq istədikləri kimi, digər insanların da zehnindən uzaqlaşdırmaq istəyirlər. Çünki maddənin əsl mahiyyəti insanlar

tərəfindən bilindiyi təqdirdə, fəlsəfələrinin primitivliyinin və cahil dünyagörüşlərinin ortaya çıxacağının, fikirlərini izah edəcək bir zəmin qalmayacağının fərqindədirlər. Burada izah edilən həqiqətdən bu cür narahat olmalarının səbəbi məhz yaşadıqları bu qorxulardır.

Allah inkarçıların bu qorxularının axirətdə daha da şiddətlənəcəyini bildirmişdir. Hesab günü Allah onlara belə səslənəcək:

**O gün onların hamısını (bir yerə) toplayacaq, sonra isə şərik qoşanlara deyəcəyik: "İddia etdiyiniz şərikləriniz haradadır?" (Ənam surəsi, 22)**

Bunun ardından inkarçılar dünyada əslinə çatdıqlarını zənn edərək Allaha şərik qoşduqları mallarının, övladlarının, ətrafındakı insanların özlərindən uzaqlaşdığına və tamamilə yox olduqlarına şahid olacaqlar. **Allah bu həqiqəti də "Bax gör onlar özlərinə qarşı necə yalan söyləyirlər. Uydurduqları (bütlər) isə onlardan uzaqlaşıb yox olacaqlar. " (Ənam surəsi, 24) ayəsi ilə xəbər vermişdir.**

### İnananların Qazancı

Maddənin mütləq olmadığı və zamanın nisbi olması materialistləri qorxudarkən, inananlar üçün tam əksini söyləmək mümkündür. Allaha iman edən insanlar maddənin ardındakı sirri qavradıqlarında böyük bir sevinc duyarlar. Çünki bu həqiqət hər cür mövzunun açarıdır. Bu qıfıl açıldığı anda bütün sirlər açılar. Adam normal halda bəlkə anlamaqda çətinlik çəkdiyi bir çox mövzunu bu sayədə rahatlıqla anlaya bilər.

Daha əvvəl də ifadə edildiyi kimi, ölüm, cənnət, cəhənnəm, axirət, sonsuzluq kimi mövzular beləcə aydın olmuş və "Allah haradadır?", "Allahdan əvvəl nə vardı?", "Allahı kim yaratdı?", "Qəbir həyatı nə qədər sürəcək?", "Cənnət və cəhənnəm haradadır?", "Cənnət və cəhənnəm bu an varmı?" kimi suallar da asanlıqla cavablanmış olur. Allahın bütün kainatı hansı sistemlə yoxdan var etdiyi qavranır. **Hətta bu sirr sayəsində "nə vaxt" və "harada" kimi suallar da mənasını itirir.** Çünki ortada nə zaman, nə də məkan qalır. Məkansızlıq qavrandığı təqdirdə cənnət, cəhənnəm, dünya hamısının əslində eyni yerdə olduğu da aydın olur. Zamansızlıq qavrandığı təqdirdə isə hər şeyin bir anda olduğu anlaşılır: hər şey onsuz da olub-bitmişdir. **Yəni sonsuzluq əslində başlamış vəziyyətdədir.**

Bu sirrin qavranması ilə birlikdə dünya inanan insan üçün cənnətə bənzəməyə başlayar. İnsanı sıxan hər cür maddi narahatlıq və qorxu itər. İnsan bütün kainatın tək

Hakimi olduğunu, Onun bütün maddi dünyanı dilədiyi kimi yaratdığını və yalnız ONA yönəlməli olduğunu qavrayır. **Artıq o "hər cür asılılıqdan azad olaraq" Allaha təslim olmuşdur.** (Ali-İmran surəsi, 35)

Bu sirri qavramaq dünyanın ən böyük qazancıdır.

# SONSUZLUQ ARTIQ BAŞLAMIŞDIR

## Allahın Sonsuz Yaddaşı və İnsanın Məhdud Yaddaşı

Kitabın zamansızlıq hissəsində bütün məlumatların yaddaşımızda saxlandığından bəhs etmişdik. İnsanın sahib olduğu hər cür məlumatın, yaşadığı hər hadisənin, qarşılaşdığı hər şeyin, həyatı boyunca gördüyü, eşitdiyi, bildiyi, hiss etdiyi hər şeyin yaddaşda yığıldığını, zamana aid hisslərin də eynilə yaddaşdakı bir məlumat olduğunu söyləmişdik. İndi də yaddaş anlayışını bir az dərindən araşdıraq.

Kitab boyunca izah etdiyimiz kimi, biz 5 duyğu orqanımız vasitəsilə hiss edir və yaşayırıq. Beş duyğunun icazə verdiyi şeyləri qəbul edir, bunun xaricinə heç bir zaman çıxa bilmirik. Yaşadığımız zamanı və məkanı da belə hiss edirik. Beynimiz 5 duyğu ilə bir varlığı təsbit edə bilmirsə, o varlıq üçün "yox oldu" deyirik. Buna bağlı olaraq yaddaşımız hansı hadisəni, ya da görüntünü mühafizə etsə, o bizim üçün vardır, yəni diridir, nəyi unutsa, artıq o bizim üçün yoxdur. Başqa sözlə desək, yaddaşımızda olmayan varlıqlar və hadisələr bizim üçün ölmüşdür, keçmişdir, yox olmuşdur.

Lakin bu, yalnız insanlara aiddir, çünki yalnız insanların yaddaşı məhduddur. Allahın yaddaşı isə sərhədsiz və sonsuzdur. Ancaq bunu da qeyd etmək lazımdır ki, "Allahın yaddaşı" anlayışının istifadə edilməsi yalnız mövzunu açıqlayamaq məqsədi daşıyır, yoxsa iki yaddaş arasında hər hansı bir müqayisə, ya da bənzətmə edilməsi əsla mümkün deyil. Allah hər şeyi yoxdan var edən və hər şeyi incəliyinə qədər biləndir.

Allah Quranda Özünü bəzi sifətləri ilə tanıtmışdır. Bunlardan biri də Hafiz, yəni "görülən bütün işləri incəliyinə qədər saxlayan, qoruyan, mühafizə edən" sifətidir və bu sözün ardında çox əhəmiyyətli sirlər gizlidir.

## "Lövhi-Məhfuz"

Allah Qatında hər şey bir anda olub-bitmişdir. Dünya var olduğundan bəri reallaşan hadisələr də bu bir ana sığır və bu ana dair bütün məlumatlar Allah Qatında bir "Kitab"da saxlanılır. Quranda Lövhi-Məhfuz olaraq adlandırılan "Ana Kitab"da hər şeyin məlumatının olduğu ifadə edilir:

**Şübhəsiz ki, o, yanımızdakı Ana Kitabdandır. O, ucadır, hikmətlə doludur. (Zuxruf surəsi, 4)**

**... Kitabın anası da Onun yanındadır. (Rəd surəsi, 39)**

**... Bizdə (hər şeyi) qoruyan bir Kitab (Lövhi-məhfuz) vardır. (Qaf surəsi, 4)**

**Göydə və yerdə elə bir gizli şey yoxdur ki, açıq-aydın Yazıda (Lövhi-məhfuzda) olmasın. (Nəml surəsi, 75 )**

**(Hər kəsin )kitabı( qarşısına) qoyulacaq və sən günahkarların orada (yazılmış )olanlardan qorxduqlarını görəcəksən. Onlar deyəcəklər: "Vay halımıza! Bu necə bir kitab imiş! O nə bir kiçik, nə də bir böyük günahı buraxmadan hamısını sayıb yazmışdır!" Onlar etdikləri əməlləri öz qarşılarında görəcəklər. Rəbbin heç kəsə haqsızlıq etməz! (Kəhf surəsi, 49)**

Allah başqa ayələrində də dünyada insanların yaşadıqları bütün hadisələrin, bütün düşüncələrinin, başlarına gələn hər şeyin bu kitabda olduğunu belə xəbər verir:

**Yer üzündə baş verən və sizin başınıza gələn elə bir müsibət yoxdur ki, Biz onu yaratmamışdan əvvəl o, Yazıda (müəyyən edilmiş) olmasın. Şübhəsiz ki, bu, Allah üçün çox asandır. (Hədid surəsi, 22)**

Kainat yaradıldığından bəri var olan canlı-cansız hər şeyi, reallaşan hər hadisəni Allah yaradır və dolayısı ilə Onun məlumatı daxilindədir, yəni bütün bunlar "Allahın yaddaşı"ndadır. Lövhi-Məhfuz da Allahın Hafiz sifətinin təcəllisidir.

Bu vəziyyətdə qarşımıza çox əhəmiyyətli bir həqiqət çıxır: Allahın yaddaşı sonsuzdur, o halda onda var olan heç bir şey yox olmaz. Allahın yaratdığı heç bir canlı ölüb-itməz, heç bir çiçək solub yox olmaz, heç bir müddət keçməz, heç bir yemək-içmək tükənməz... Allah hər an yaradır və hər şey əzəldə yaradılmış və "sonsuzluğa məhkum edilmişdir".

"Sonsuzluğa məhkum edilmək" nə deməkdir?

Bunu belə açıqlaya bilərik: Hər varlığın və hadisənin yaradıldığı anda əslində onun üçün sonsuzluq da başlamışdır. Məsələn, bir çiçək yaradıldığında əslində bir daha yox olmamaq üçün yaradılmışdır. Bu varlığın, ya da obyektin insanın görüntüsündən çıxması, insanın yaddaşından silinməsi onun yox olması, ölməsi mənasını verməz. Əhəmiyyətli olan Allahın yaddaşındakı, Allahın Qatındakı halıdır. Allahın yaddaşında bu canlının yaranması da, həyatı boyunca keçirdiyi anlar da, ölümü də mövcuddur.

Allah varlıq verdiyi hər şeyi sonsuz olaraq yaratmışdır. Var olan şeylər üçün artıq sonsuz həyat başlamışdır. Lakin bunu yaxşı anlaya bilmək üçün bir-bir varlıqlar və hadisələr üzərində düşünməkdə fayda vardır. Ancaq bu nümunələrə keçməmişdən əvvəl bir mövzuya bir daha toxunmaq lazımdır: Burada izah edilənlər, şübhəsiz bir insanın həyatında qarşılaşa biləcəyi ən böyük elmlərdən biridir. Sonsuzluq anlayışı ilə əlaqədar bu həqiqətləri bir çox insan ilk dəfə eşidə, ilk dəfə düşünə bilər. Əhəmiyyətli olan budur: **Allah Quranda yalnız "qəlbən Allaha yönələn"lərin öyüd ala biləcəyinə diqqət çəkir.** Yəni səmimi qəlblə Allahdan kömək diləyən, Onun sonsuz qüdrətini təqdir etməyə çalışan, Rəbbimizin böyüklüyünü qavramaq üçün səy göstərən insanlar burada izah edilənlərdən öyüd alacaq və bu həqiqətləri qavramağa başlayacaqlar.

## Sonsuzluq İçində İnsanlar

Allahın Xaliq adı "Hər şeyin varlığını və varlığı boyunca keçirəcəyi halları, hadisələri təyin və təsbit edən və ona görə yaradan, yoxluqdan var edən" mənasındadır. Allah Xaliq sifəti ilə insanları ana bətnində yaratdığı andan etibarən onlar üçün sonsuzluq da başlamışdır. İnsan ana bətnində keçirdiyi inkişaf mərhələlərini, əlbəttə ki, xatırlamaz, ancaq bunun hər anı Allah Qatında mövcuddur və qətiyyən itməz. İnsanın körpəlik və böyümə mərhələləri də öz yaddaşından silinər. İnsan Allah göstərmədiyi müddətdə bu kadrları görə bilməz, bəzilərini də yalnız xatirə olaraq bilər. Yaşadığı an gördüyü şeylər isə yalnız özünə hiss etdirilən hisslərdir. Lakin Allahın sonsuz yaddaşında hər şey olduğu kimi saxlanılır. İnsanların yaşadıqları hadisələr, başlarına gələn hadisələri və həyatlarındakı hər şeyi Allah yaratmışdır və heç biri yox olmaz. **"...Bu ona görədir ki, siz göylərdə və yerdə olanların Allaha bəlli olmasını və Allahın hər şeyi Bilən olduğunu anlayasınız." (Maidə surəsi, 97)** ayəsində bildirildiyi kimi, hər şey Allah Qatında mühafizə edilir.

Məsələn, Hz. Adəm (ə.s) peyğəmbərin dünyaya göndərilmədən əvvəl cənnətdə yaradılmasına, orada sınanmasına aid bütün hadisələr Allah Qatındakı Ana Kitabda qorunur. Allahın Hz. Adəmi (ə.s) hələ palçıqdan yaratdığı halı da, mələklərin Hz. Adəmə (ə.s) səcdə etmələri də, onun cənnətdən çıxarılması da, dünyaya göndərildiyi an da, dünyada başına gələn hadisələr də bütün detalları ilə bu an canlı olaraq saxlanılır.

Heç biri yox olmamış, ən kiçik detalına qədər hər şey bu an Allah Qatında canlı olaraq mövcuddur.

Bir başqa nümunə olaraq, çox sevdiyi pişiyi öldüyü üçün kədərlənən bir insanı düşünün. Əslində o insanın pişiyinin ölüm anındakı halı Allah Qatında sonsuza qədər var olduğu kimi, o pişiyin bala halındakı ən sevimli görünüşü də, doğumundan o ana qədər keçən bütün halları da Allah Qatında canlı olaraq mövcuddur. Ayrıca pişiyin sahibinin işdə ikən və ya yanında deyilkən görə bilmədiyi halları da Allah Qatında canlı olaraq saxlanılır. Bu səbəbdən heç bir varlıq ölərək yox olmaz. Hamısı Allah Qatında hər halı ilə canlı olaraq sonsuza qədər dayanarlar.

Eyni şəkildə, Quranda bildirildiyi kimi, Hz. Süleymanın (ə.s) atının ayağını sığallaması anı sonsuza qədər Allah Qatında dayanmaqdadır. Daha sonra atların qeyb olması, Hz. Süleymanın (ə.s) Səba məlaikəsinə məktub göndərməsi, məktubun Məlaikə və yanındakı əsgərlər tərəfindən oxunduğu an, Məlaikənin Hz. **Süleymanın (ə.s) sarayına gəlməsi və sarayın döşəməsini "dərin bir su" sanması və o əsnada Quranda bildirildiyi kimi "Süleymana tabe olub aləmlərin Rəbbi olan Allaha təslim oldum!" (Nəml surəsi, 44) dediyi an hələ də vardır və sonsuza qədər də var olacaq.**

Bu nümunələr üzərində bir az da dərindən düşünək və daha da ətraflı araşdıraq. Hz. Nuh (ə.s) dövründə bir adamın köynəyinin söküldüyünü və daha sonra bunu bir dərzinin tikdiyini fərz edək. O adamın köynəyi, bu köynəyin ilk emal edildiyi dəzgah, daha sonra köynəyin sökülmədən əvvəlki halı və yenidən tikildikdən sonrakı halı və hətta o köynəyi tikən dərzinin köynəyi tikmək üçün iynədən istifadə etdiyi hər saniyə, daha sonra bu köynəyin tamamilə köhnəlməsi, qısacası köynəyin varlıq aləminə gəldiyi andan etibarən keçirdiyi hər mərhələ, hər saniyə, hər an Allah Qatında mühafizə edilir. O köynək bu an hələ dəzgahda toxunur, o köynək bu an hələ tikilir və o köynək bu an hələ Hz. Nuh (ə.s) dövründəki sahibi tərəfindən geyinilir.

Bir də evinizdəki antikvar saat üzərində düşünməyə başlayaq. O saatın bundan 200 il əvvəl quruluş mərhələləri, saatın içində istifadə edilən hər bir telin quruluş mərhələləri, saatın əqrəb və dəqiqə əqrəbinin içinə yerləşdirilməsi, daha sonra bu saatın bir dükana satılması, ardından bir müştərinin onu alması, sonra bu saatın pozulub bir köhnəçiyə verilməsi, sizin babanızın babasının bu saatı satın alması, sonra saatın babanıza və ondan sonra atanıza və sonra da sizə miras qalması, sizin o saatı evinizin gözəl bir yerində yerləşdirməyiniz, daha sonra qarşısına keçib "nə gözəl görünür" deyə düşünməniz, qısacası o saatla əlaqədar olaraq ilk var olduğu andan etibarən (yüzlərlə il) an-an meydana gələn hər hadisə Allah Qatında dayanmaqdadır. O saat bu an çalışmaqdadır və yenə saat əslində bu an işləmir, saat bu an sizin tərəfinizdən yerləşdirilir və saat əslində bu an babanızın babası tərəfindən satın alınır. Bunların hamısı əksiksiz olaraq Allahın yaddaşında mövcuddur. Üstəlik bu antikvar saatın yalnız keçmişi deyil, bundan sonra keçirəcəyi, lakin sizə görə gələcəkdə reallaşacağı

üçün bilmədiyiniz hər cür hadisə də Allah Qatında məlumdur və mühafizə edilir. O saatın bundan 40 il sonra sizin uşağınızın evinin uyğun bir yerinə yerləşdiriləcəyi də, o saatın bundan 300 il sonra tamamilə çürüyüb pozulması və insanların fikrindən uzaqlaşması da Ana Kitabda yazılıdır.

Bir ayədə deyildiyi kimi: "**Allah onların gələcəyini də, keçmişini də bilir. Onların elmi isə Onu ehtiva edə bilməz!**" (Taha surəsi, 110) Allahın bu elminə də diqqət çəkilmişdir. (Doğrusunu Allah bilir.) Çünki Allah hər varlığın an-an, əvvəlini-sonrasını, yəni ayədəki ifadə ilə " **gələcəyini də, keçmişini də”** hər mərhələsi ilə bilir. Ayədə " **Şübhəsiz ki, nə yerdə, nə də göydə heç bir şey Allahdan gizli qalmaz**" deyilərək bu həqiqət bir daha xatırladılmışdır**.** (Ali-İmran surəsi, 5)

**Bütün Hadisələr "Bu An"da**

**Reallaşır!**

Allah Qatında hər hadisənin bir anda meydana gəlməyini belə bir misalla da açıqlaya bilərik: Qarşınızda böyük bir şəhərin xəritəsinin olduğunu düşünün. Xəritədə şəhərin prospektləri, küçələri, bu küçələrdə irəliləyən nəqliyyat vasitələri, sağa-sola düzülmüş binalar və insanlar çəkilmiş olsun. Bu xəritədə şəhərin bir yerindən başqa yerinə çatmağa çalışan bir adamın görüntüsünün də çəkildiyini fərz edin. İndi bu adam üçün şəhərin bir yerindən digərinə qədər olan məsafə müəyyən bir uzaqlıqdadır və bu uzaqlığı dəf etməsi üçün də müəyyən bir zaman lazımdır. Adam ancaq bilmədiyi zaman sonunda istədiyi yerə çatmış olacaq. Eyni anda iki yerdə birdən olması mümkün deyil. Amma bu vəziyyət xəritəyə kənardan baxan bir adama aid deyil. Siz xəritəyə baxdığınızda şəhərin bir yerindən digərinə qədər olan hər şeyi bir anda görə bilərsiniz, üstəlik bunun üçün bir zamana da ehtiyacınız yoxdur.

Məhz bu nümunədə izah edilən vəziyyət müəyyən bir ölçüdə yaşayan insanlara aiddir. Bizim üçün bir yerdən başqa bir yerə çatmaq ancaq bir zamanın keçməsi və enerjinin istifadə edilməsi ilə mümkün ola bilər. Amma bütün bu ölçüləri yaradan və bütün əksikliklərdən münəzzəh olan Allah üçün yaratdığı kainat və onun dünyadakı bütün hadisələr bir anda reallaşır.

İkinci əhəmiyyətli həqiqət isə bütün bu hadisələrin bir-biri ilə eyni anda reallaşmasıdır. Çünki daha əvvəl də ifadə edildigi kimi, Allah Qatında zaman yoxdur, hər şey bir anda olub bitmişdir.

Hz. **Adəm (ə.s) peyğəmbər əslində bu an palçıqdan yaradılır, bu an mələklər Hz.** Adəmə (ə.s) səcdə edir, bu an Hz. Adəm (ə.s) cənnətdən çıxarılır və dünyaya

göndərilir. Üstəlik haqqında danışılan "an", bu saniyə, yəni sizin bu sətirləri oxuduğunuz andır.

İndi bu mövzunu daha da gücləndirmək üçün bir başqa nümunə verək: Hz. Musanı (ə.s) düşünək. Anasının hələ körpə ikən Hz. Musanı (ə.s) sandığın içinə qoyub suya buraxdığı an hələ də mövcuddur, o halı itməmişdir və sonsuza qədər də dayanacaq. Allah Qatında Hz. Musanın (ə.s) Firona getdiyi və təbliğ etdiyi an mövcuddur və əslində bu an Hz. Musa (ə.s) Fironun qarşısındadır, amma eyni zamanda bu an Hz. Musa (ə.s) Müqəddəs Tuva vadisində Allahdan vəhy almaqdadır və yenə bu an Hz. Musa (ə.s) yanındakı İsrailoğulları ilə birlikdə Fironun adamlarından uzaqlaşmaqdadır, bu an Hz. Musa peyğəmbər (ə.s) əsası ilə dənizə vurmaqda və dənizi yarmaqdadır və sonsuza qədər də dənizin yarılması Allahın yaddaşında mövcud olaraq qalacaq.

Hz. Məryəmin Hz. İsaya (ə.s) hamilə qalması, xurma ağacının altında doğması, qövmünə dönməsi və Hz. İsanın (ə.s) hələ beşikdə ikən qövmün insanları ilə danışması, sonra Hz. **İsanın (ə.s) həvarilərinə "Allah Qatında mənim köməkçilərim kimlərdir?" deyə soruşması və Hz.** İsanın (ə.s) Allah Qatına yüksəldilməsi də bu an reallaşmaqdadır. Üstəlik yalnız keçmişə dair bizə bildirilən hadisələr deyil, keçmişlə əlaqədar bizə bildirilməyən və gələcəkdə olacağı üçün hələ bilmədiyimiz hadisələr də əslində bu andadır. Hz. İsanın (ə.s) həyatı boyunca keçirdiyi hər saniyə, həvarilərinə Allahın dinini təbliğ etməsi, Allahın təsbit etdiyi bir müddətdə yer üzünə yenidən göndərilməsi, insanlara Quranı təbliğ etməsi və hətta bu təbliği əsnasında dediyi hər söz, daha sonra ölümü və hesab günü dirildilməsi, cənnətin girişində mələklər tərəfindən "Salam" sözləri ilə qarşılanması da əslində bu anda meydana gəlir.

Eyni şeylər bundan 3000 il əvvəl yaşayan bir insan üçün də etibarlıdır. E.ə. 3000-ci illərdə günorta vaxtı bir ağacın altında oturub mənzərəni seyr edən adamın əlinə kiçik bir böcəyin qonması, adamın o böcəyə baxaraq Allahı təsbih etməsi, daha sonra böcəyin uçaraq yuvasına doğru getməsi, böcəyin yumurtadan çıxmasından ölümünə qədər olan bütün halları Allah Qatında hifz edilmişdir və dolayısı ilə hamısı bir anda, yəni sizin bu sətirləri oxuduğunuz bu anda reallaşır.

Bütün bu nümunələrin qarşımıza çıxardığı həqiqət budur: Heç bir an, heç bir kadr, heç bir hadisə, heç bir varlıq yox olmamışdır və olmayacaq. Televiziyada izlədiyimiz bir film necə film lentinə yazılırsa, müxtəlif kadrlardan meydana gəlirsə və bu kadrları bizim görməməyimiz onların olmadığı mənasını vermirsə, bizim "keçmişdə yaşanmış" və ya "gələcəkdə yaşanacaq" dediyimiz hadisələr üçün də eyni şey etibarlıdır.

Lakin bunun səhv başa düşülməməsi çox əhəmiyyətlidir. Bu səhnələrin heç biri bir xatirə və ya xəyal kimi deyil. Bunların hamısı eynilə bu an yaşadığınız an kimi canlıdır. Hər şey diri olaraq qorunur. Biz yalnız Allah bizə bu hissləri vermədiyi üçün

onları keçmiş, bitmiş hadisələr olaraq görürik. Allah dilədiyi an bizə bu görüntüləri göstərə bilər, bu hadisələrə aid hissləri verərək bizə də bu hadisələri yaşada bilər.

### Keçmiş, İndi və Gələcək Əslində Eyni Zamandır

Bura qədər izah edilənlərdən aydın olduğu kimi, bu ana qədər yer üzündə yaşanmış bütün hadisələr Allah Qatında bir anda yaşanmaqdadır. Hz. Musanın (ə.s), Hz. İbrahimin (ə.s), Hz. Əyyubun (ə.s), Hz. Nuhun (ə.s), Hz. Süleymanın (ə.s), Hz. Məhəmmədin (s.ə.v.) və digər peyğəmbərlərin həyatlarından verilən nümunələr də onların yaşadıqları hadisələrin zamanı ilə bizim yaşadığımız zaman da eynidir və bizim nəvələrimizin, hətta onların nəvələrinin və qiyamətə qədər yaşayacaq bütün insanların həyatları da eyni zamanda davam edir. Üstəlik bu insanlar Allaha iman edənlər bu anda cənnətdədirlər, inkarçılar isə bu an cəhənnəmdə əzab çəkirlər.

Peyğəmbərimizin (s.ə.v.) yaşadığı hadisələrin heç biri itməmişdir, sonsuza qədər Allah Qatında dayanacaq. Bu hadisələr bizə 1400 il əvvəl olmuş kimi qəbul etdirilir, amma əslində bu an Peyğəmbərimiz (s.ə.v.) Miracdadır, bu an yanındakı yoldaşı ilə birlikdə mağaraya sığınmışdır. Peyğəmbərimiz (s.ə.v.) bu an Bədəvilərə təbliğ edir. Bu hadisələr yaşanmış və bitmiş hadisələr deyil. Əksinə sonsuza məhkum edilmiş, yox olması mümkün olmayan hadisələrdir. Ancaq bunların heç biri bizim yaddaşımızda olmadığı, ya da canlandırılmadığı üçün biz görmürük, şahid olmuruq, ya da yaşamırıq.

Eyni vəziyyət tarixən yaşanmış bütün hadisələr və yaşamış bütün insanlar üçün də etibarlıdır. Köhnə Yunanıstanda filosoflar, Şumerler zamanında mismar yazısını tapanlar, Misir kraliçası Kleopatra, intibah dövrünün sənətkarları XIX əsrin elm adamları və ya XX əsrin diktatorları və digər dövrlərdə yaşamış bütün insanlar, hətta babanız, onun babası və siz əslində eyni anda yaşayırsınız.

Bu hadisələrin heç biri yox olmamışdır. Səlib yürüşləri, xalqların böyük köçü, əsr müharibələri, I və II Dünya Müharibələri bir-birindən tamamilə ayrı dövrlərdə yaşanmış kimi görünsə də, əslində bu an olan hadisələrdir və sonsuza qədər də olmağa davam edəcəklər. Müxtəlif zamanlarda yaşadıqları düşünülən Misir, Astek, Yunan və Anadolu sivilizasiyaları da əslində eyni anda yaşamışlar.

Belə ki, 1000 il əvvəl Mesopotamiyada yaşayan bir cütçünün tarlasını əkərkən yağan yağış və cütçünün o yağış altında islandığı an da Allah Qatında dayanmaqdadır. Məsələn, Akkadlar dövründə bir söyüd ağacının budaqları arasında tor quran bir hörümçək torunu bu an hörür. Həmin hörümçək bu an torun küncünə çəkilmiş ovunu gözləyir. Yenə sizin bu hörümçəyi gözünüzdə canlandırmağa çalışdığınız bu an o

hörümçək yumurtlamış, yumurtalarını kürəyinə yığmış və onlarla məşğuldur. Yenə o hörümçəyin yumurtaları bu anda çatlamış, içindən bir çox kiçik hörümçək çıxmışdır.

Heç bir hadisə unudulmur, hamısını Allah bir çox hikmətlə yaratmışdır. Bu səbəblə heç bir şey israf olmaz, yox olmaz. İnsanların bu an bunları görmədikləri, bilmədikləri onların olmadığı mənasını verməz. Allah zamandan münəzzəh olduğundan Onun Qatında hər şey bir anda olmuş və bitmişdir. İnsanlar zamandan asılı olduqları üçün hadisələri keçmiş, indi və gələcək zamanda izləyərlər. Halbuki daha əvvəl qədər hissəsində də qeyd etdiyimiz kimi, keçmiş zənn etdiyimiz hadisələr bizim üçün keçmişdir, gələcək zənn etdiyimiz hadisələr də bizim üçün gələcəkdir. Allah üçün keçmiş, gələcək, indi hamısı birdir. Məhz bu səbəbdən Allahdan heç nə gizli qalmaz. Bir ayədə bu həqiqətə diqqət çəkilmişdir:

**(Loğman dedi:) "Oğlum! (Gördüyün iş) bir xardal dənəsi ağırlığında olsa da, bir qayanın içində, yaxud göylərdə və ya yerin dibində olsa da, Allah onu aşkar edər. Həqiqətən, Allah Lətifdir, Xəbərdardır. (Loğman surəsi, 16)**

### Öz Həyatınız da Bir Andır

Bu həqiqəti anlamaq üçün yalnız tarixin dərinliklərini düşünməyə ehtiyac yoxdur. Hər kəsin çox uzun zənn etdiyi öz həyatı üçün də bu həqiqət etibarlıdır. Sizin yeni doğulduğunuz, ananızın qucağına verildiyiniz o ilk an yox olmamışdır. O kadr, ya da o görüntü, ya da o hadisə sonsuza qədər var olacaq. Çünki Allah Qatında "hifz edilmiş"dir. Lakin daha əvvəl də ifadə edildiyi kimi siz 5 duyğu orqanınızdan asılı olduğunuz üçün və sizin yaddaşınızda bu məlumat saxlanmadığı üçün belə bir səhnəni görmürsünüz. Bu, həyatınız boyunca başınıza gələn hər hadisə üçün etibarlıdır. İbtidai məktəbə başladığınız gün, ya da uşaqkən qeyd etdiyiniz bir ad gününüz, başınıza gələn bir hadisə, liseyi bitirdiyiniz gün, universitet diplomunuzu aldığınız an, evliliyiniz və bunun kimi daha minlərlə hadisə əslində Allah Qatında eyni anda mövcuddur. Bu hadisələrin heç biri itməmiş və sonsuza qədər canlı olaraq mövcud olacaq.

Eynilə, 5 yaşındaykən dükandan aldığınız bir vaflini yeyərkən hiss etdiyiniz şəkər dadı, 7 yaşında ibtidai məktəbə başlayacağınız gün səhər erkən saatda həyəcanla oyanmağınız, liseydəki coğrafiya dərsində çəkdiyiniz çətinlik, riyaziyyat müəlliminizin yazı taxtasına yazdığı uzun tənliklər, bir yaxınınızı yol qəzasında itirdiyiniz zaman hiss etdikləriniz, işinizdə qazandığınız bir müvəffəqiyyətdən keçirdiyiniz qürur hissi, illərlə xəyal etdiyiniz bir şeyi almağa gedərkən sevinməyiniz, qısacası yaşadığınız və hiss etdiyiniz, başınıza gələn bütün bu hadisələr əslində eynilə dayanmaqda, yalnız sizin beyninizdə mühafizə edilməməkdədir. Mühafizə edilən də xatirə olaraq, yəni keçmiş

kimi hiss etdirilməkdədir. Bu an var olan o səhnələri beyniniz qəbul etmir. Çünki dünyadakı imtahan sistemi belədir. İnsanlar keçən zamana tabe olduqlarını düşünər, həyatlarının keçmiş, indi və gələcək olmaq üzrə hissələrə ayrıldığını sanarlar. Buna görə də axirətin varlığı, cənnət, cəhənnəm, hesab günü kimi mövzuların nə vaxt, nə şəkildə və necə olacağını asanlıqla qavraya bilməzlər. Allah Qatındakı zaman anlayışı ilə insanların tabe olduğu zaman arasında bir əlaqə qura bilməzlər. Lakin yaradılmış hər canlının, hər hadisənin və hər şeyin bir film lentini meydana gətirən kadrlar kimi kadr-kadr sonsuz olaraq yaradıldığını və eyni anda var edildiyini bilmək bu qavrayışı asanlaşdıracaq.

Allah Qatında hər şey olub-bitmişdir. Xalq arasında məşhur olan batil bir inanca görə Allah kainatı və insanı yaratmış, onlara bir müddət möhlət vermiş və onların sınanmalarını gözləyir. (Allahı tənzih edirik) Kainatın ömrü bitənə qədər də gözləyəcək. Lakin əslində Allahın gözləməsi kimi bir vəziyyətdən əsla bəhs oluna bilməz. Gözləmək insana xas bir acizlikdir. Allah isə insanların yaşadığı bütün acizliklərdən uzaqdır. Allahın Quranda Özünü tanıtdığı Qüddüs sifəti "səhvdən, qəflətdən, acizlikdən və hər cür əksiklikdən çox uzaq" mənasındadır. Bu səbəblə bütün insanların keçmişini, gələcəyini və yaşadıqları bütün hadisələri bilir. Lakin insan sınanma yeri olan bu dünya həyatında zamanı əvvəlli və sonralı zənn edər. Halbuki bu hissədə izah edildiyi kimi əvvəl-sonra, keçmiş-gələcək deyilən bir şey yoxdur. Hər şey, bütün insanlar, bütün canlılar eyni anda yaşamaqda, bütün zamanlar, bütün çağlar, bütün tarixlər və hətta bütün günlər, bütün saatlar, dəqiqələr və saniyələr də eyni andadır. İnsan qavrama qabiliyyəti məhdud olduğundan bunu görə bilmir. Allah Qatındakı zaman ilə insanların asılı olduğu zaman anlayışı arasındakı fərqə "Quranda Nisbilik" hissəsində nümunələr verilmişdi. Bu mövzuya bir ayədə belə diqqət çəkilir:

**...Rəbbinin yanında olan bir gün sizin saydığınızın min ili kimidir! (Həcc surəsi 47)**

Allahın Quranda yer alan sifətlərindən bir başqası isə Həsib, yəni "Hər kəsin həyatı boyunca etdiklərinin hesabını bütünlüklə bilən" deməkdir. Yaşanan, yaradılan, var olan heç bir hadisənin itmədiyi həqiqəti xatırlanacaq olsa Allahın Həsib sifəti daha yaxşı aydın ola bilər. Çünki hər şeyin məlumatı Allahın Qatındadır. Allah bu həqiqəti ayədə də ifadə etmişdir:

**Həqiqətən, o Saat haqqında elm yalnız Allahdadır. Yağışı O yağdırır və bətnlərdə olanı O bilir. Heç kəs sabah nə qazanacağını bilə bilməz; heç kəs harada öləcəyini də bilməz. Allah isə, şübhəsiz ki, Biləndir, Xəbərdardır. (Loğman surəsi, 34)**

Möminlərin Allahın böyüklüyünü təqdir edə bilmələrinin, Allaha olan təslimiyyətlərinin və güvənlərinin əsas səbəbi budur. Allahın onlara nə qədər yaxın olduğunun və Allaha nə dərəcə möhtac olduqlarının, Onun böyüklüyü yanında nə cür kiçik olduqlarının şüurundadırlar. Onların bu üstün əxlaqları Quranda belə bildirilmişdir:

**De: "Allahın bizim üçün yazdığından başqa bizim başımıza heç nə gəlməz. O bizim Himayədarımızdır. Qoy möminlər Allaha təvəkkül etsinlər!" (Tövbə surəsi, 51)**

**De: "Allahın istədiyindən başqa, mən özümə nə bir zərər, nə də bir xeyir verməyə qadirəm... (Yunus surəsi, 49)**

Bu ayələrdə xəbər verilən möminlər Allahın ucalığını və qüdrətini təqdir edə bilən insanlardır. Bundan ötrü də Allaha qəlbən boyun əymişlər.

### Ölüm İnsan Üçün Yox Olmaq Deyildir

Ölüm xalq arasında yanlış qəbul edilir. Ölən bir adama sanki yox oldu gözü ilə baxılır. Ümumiyyətlə, insanların axirətə, sonsuz həyata, cənnət və cəhənnəmə aid məlumatları da qeyri-kafi olduğundan ya ölümdən sonra yenidən diriləcəklərinə heç inanmazlar, ya da buna aid inancları naməlumdur. Bu səbəbdən bir yaxınlarını itirdiklərində onun əbədi olaraq yox olduğunu düşünənlər çoxdur. Halbuki bu tamamilə azğın bir inancdır. Əslində insan doğulduğu (Allah onu varlıq aləminə gətirdiyi) andan etibarən sonsuz həyatına başlamışdır. Həyatındakı digər kadrlar kimi ölüm də bir kadrdır, ancaq əslində o insan diridir. Ölümdən əvvəlki və sonrakı kadrlar və o insana aid hər şey eynilə mühafizə edilir. Məsələn, ölən bir adam haqqında bəzi insanlar cahilcə düşündükləri üçün "çox gənc bir insan idi, heyf oldu" deyərlər. Halbuki, o gənc insana aid hər şey, bütün xüsusiyyətlər, yaşadığı bütün detallar, uşaqlığı, doğumu, ailəsi ilə olan xatirələri canlı bir şəkildə eynilə dayanmaqdadır. Yox olmaz, ya da itməz, yaşananlar olduğu kimi mühafizə edilər. Dünyadakı imtahanın bir gərəyi olaraq insana göstərilməz, yaddaşından və görüntüdən silinər, lakin bu onların olmadığı mənasını verməz.

Allah Qatında bir insanın doğumu da, həyatı da, ölümü də eyni anda olub-bitmişdir. Hətta bütün insanlar üçün eyni şey etibarlıdır. Bütün insanlar bu an doğulmuş və bu an ölmüşlər. Yenidən dirilmiş və cənnət, ya da cəhənnəmdəki yerlərini almışlardır. Bu səbəblə heç bir insan ölməz, ya da yox olmaz, sonsuza qədər diridir. Sonsuzluğun içində bir zaman yaşanır və buna görə hər kəsin gedəcəyi yer də (cənnət ya da cəhənnəm) müəyyəndir. Bu an insanların bir qismi cənnətdə, bir qismi isə cəhənnəmdədir. Bu həqiqət Quranda cənnət və cəhənnəmlə əlaqədar bir çox ayədə axirət həyatından bəhs edilərkən keçmiş, ya da indiki zaman istifadə edilərək bunların əslində bir an olduğuna diqqət çəkilmişdir:

**Həqiqətən də Cənnət əhli həmin gün nemətlər işində kef çəkəcək. Onlar zövcələri ilə birlikdə kölgəliklərdə taxtlara söykənəcəklər. (Yasin surəsi, 55-56)**

**Rəbbindən qorxanlar da dəstə-dəstə Cənnətə gətiriləcəklər. Nəhayət, ora çatdıqda onun qapıları açılacaq və onun gözətçiləri onlara deyəcəklər: "Sizə salam olsun! Xoş sizin halınıza! Əbədi qalmaq üçün buraya daxil olun!" Onlar deyəcəklər: "Bizə verdiyi vədini yerinə yetirən və bizi bu yerə varis edən Allaha həmd olsun! Biz Cənnətin istədiyimiz yerində sakin oluruq. (Yaxşı) əməl sahiblərinin mükafatı necə də gözəldir!" Sən mələklərin, Ərşi əhatə edərək, Rəbbinə həmd ilə təriflər dediklərini görəcəksən. Onların arasında ədalətlə hökm veriləcək və: "Aləmlərin Rəbbi olan Allaha həmd olsun!"– deyiləcəkdir. (Zumər surəsi, 73-75)**

**Günahkarlar atəşi görən kimi oraya düşəcəklərini yəqin edəcək və oradan qaçmağa bir yer tapa bilməyəcəklər. (Kəhf surəsi, 53)**

İnsanların həyatında çox əhəmiyyətli bir sirr vardır. İnsanlar ölənlərin arxasınca "öldü" deyib kədərlənərkən əslində özləri də ölmüş və hətta yenidən dirildilmişlər. İnsanın öz doğumu ilə ölümü də eyni anda olmaqdadır. Film lenti nümunələrini yenidən xatırlasaq bu xüsusiyyət daha yaxşı aydın olar. Bütün insanların bir-bir həyatlarına, ölümlərinə, dirilmələrinə və sonsuz həyatlarına dair hər cür detal əksiksiz olaraq Allah Qatında tutulmaqdadır. Başqa sözlə desək, hər şey bu anda olur. Ölmək və dirilmək də müxtəlif zamanlarda meydana gələn hadisələr deyil. Sonsuzluq içində, ya da zamansızlıq içində insanlar doğulmuşlar, ölmüşlər, dirilmişlər və bu an diridirlər. İnsan Allahın yaratdığı andan etibarən sonsuz bir varlıqdır, yəni əbədi olaraq diridir. Arada "öz ölümünü" də bir kadr olaraq görər. Necə hər gün özünü canlı olaraq, diri olaraq görürsə bir dəfə də ölü olaraq görür.

Bunu belə bir misalla açıqlaya bilərik. Allah Quranda yuxunun da bir cür ölüm olaraq yaradıldığını xəbər vermişdir. Bu vəziyyətdə insan hər axşam onsuz da öldüyünü görür, hər səhər oyanarkən dirilməsini görür. Çünki ayədə belə deyilir:

**Allah ölənlərin canını ölüm anında, ölməyənlərin canını isə onlar yuxuda ikən alır. Ölümünə hökm verdiyi kəsin canını saxlayır, digərini isə müəyyən olunmuş vaxtadək buraxır. Həqiqətən, bunda ağıl sahibləri üçün dəlillər vardır. (Zumər surəsi, 42)**

İnsan bu şəkildə dirisini də, ölümünü də, yenidən dirilişini də həmişə görür. Bunun kimi əsl ölümünü də görəcək, amma nəticədə doğumu, ölümü, dirilməsi, axirətdə gedəcəyi məkan müəyyəndir və insan sonsuza qədər Allah Qatında diridir. Bütün bu hadisələr Allah Qatında olub-bitmişdir. Bu səbəblə xalq arasında söylənən mənada ölümlə birlikdə yox olmaqdan söhbət gedə bilməz.

Bu həqiqətlər qarşısında bəzi insanların istifadə etdiyi "çox gözəl insan idi, çox gənc idi, çox sağlam bir cavan idi" kimi ifadələr mənasını itirir. Çünki çox gözəl deyilən insan da, çox gənc deyilən uşaq da, çox sağlam deyilən cavan da yox olmamışdır, bu an hamısı ən gözəl halları ilə mövcuddurlar. Allahın yaddaşında sonsuza qədər hamısı diridir. Bu da Allahın böyüklüyünün və elminin bir göstəricisidir. Allahın sonsuz elmi və qüdrəti Quranda belə xəbər verilir:

**Allah, Ondan başqa ilah yoxdur, (əbədi) Yaşayandır, (bütün yaratdıqlarının) Qəyyumudur. Onu nə mürgü, nə də yuxu tutar. Göylərdə və yerdə nə varsa, Ona məxsusdur. Onun izni olmadan Onun yanında kim havadarlıq edə bilər? O, (məxluqatın) gələcəyini və keçmişini bilir. Onlar Onun elmindən, Onun istədiyindən başqa heç bir şey qavraya bilməzlər. Onun Kürsüsü göyləri və yeri əhatə edir. Bunları qoruyub saxlamaq Ona ağır gəlmir. O, Ucadır, Uludur. (Bəqərə surəsi, 255)**

### Heyvanların da Həyatlarının Hər anı Qeydlidir

Yer üzündə canlılıq başladığından bəri yaradılan hər heyvanın həyatındakı hər mərhələ də eynilə mühafizə edilməkdədir. Məsələn, 250 il əvvəl qütbdə yaşamış bir pinqvinin dünyaya gəldiyi ilk an, balıq tutmağı və ovlanmağı ilk dəfə öyrəndiyi an,

öldüyü an kimi həyatının hər mərhələsi Allah Qatında mövcuddur. Sonsuza qədər də dayanacaq və bütün bunlar yaşadığımız bu an içində baş verir.

Bizim heç bir zaman görmədiyimiz, həyatına şahid olmadığımız 700 il əvvəl yaşamış bir dəvə, ya da M.ö V əsrdə Amazon meşələrində yaşamış bir timsah, 2200-cü ildə Afrikada yumurtadan çıxacaq bir ilan, ya da bu gün Avstraliyada yaşayan bir kenquru üçün də vəziyyət eynidir. Bu sayılan heyvanların, daha doğrusu gəlmiş və keçmiş bütün heyvanların həyatlarına dair hər detal, hər mərhələ əslində eyni anda, yəni indi olmaqdadır. Məsələn, dəvənin doğulduğu an, səhrada yük daşıdığı an, su içdiyi an da daxil olmaqla hər anı gizlidir və bəhs edilən dəvə bu an əslində hələ su içir, hələ doğulur, hələ yük daşıyır… Dünya tarixi boyunca yaşamış bütün dəvələrin həyatlarına dair hər kadr canlı olaraq vardır. Bu günə qədər yaşamış trilyonlarca heyvan olduğu düşünülüncə bu mövzunu qavramaq çətin görünə bilər, lakin Allahın böyüklüyünün və qüdrətinin bir sirri də burada gizlidir. Allah Alim adı ilə gəlmiş-keçmiş, canlı-cansız hər şeyin məlumatına malikdir. Hafiz adı ilə bu canlılara aid hər cür məlumatı mühafizə edir. Quranda bu həqiqətə belə işarə edilir:

(**Allah) onları hesablamış və bir-bir saymışdır. (Məryəm surəsi, 94)**

Heyvanların ölümü də insanlarınkına bənzəyir. İnsanlar ölüncə necə həyatlarında keçirdikləri anlar yox olmursa, heyvanların yaşadıqları anlar da elədir. Bir insan sevdiyi bir heyvanı, məsələn quşunu itirdiyində onun üçün kədərlənir. Halbuki, o quş Allahın yaddaşında ən gözəl şəkli ilə dayanmaqdadır. Quşun yeni yumurtadan çıxmış halı da, sahibinin evinə gəlməsi də, hələ uça bilmirkən etdiyi oyunlar da ən sevimli şəkilləri ilə varlıqlarını davam etdirir. Və ya bir it öldüyündə, onun ölü halı da, diri halı da, ölüm şəkli də Allah Qatında müəyyəndir. Ölüm şəklinə aid görüntü tək bir kadrdır, bunun xaricində yaşadığına dair saysız görüntü vardır və bunlar da Allah Qatında sonsuz olaraq dayanmaqdadır. İtin yolda gedən halı da, özünü sevdirən halı da, hürən halı da, yemək yeyərkən halı da, ovlanarkən aldığı şəkil də və sahibinin görmədiyi bütün halları da hamısı Allah Qatında mühafizə edilir.

Bu vəziyyət bütün heyvanlar üçün etibarlıdır. Quranda bildirilən Əshabi-Kəhfin mağarasının qapısında qollarını uzatmış vəziyyətdə gözləyən itin doğumu və ölümü, mağaranın qarşısında gözlədiyi hər saniyə bu an da Allahın hifzindədir. Eyni şəkildə, Hz. Salehin (ə.s) qövmünün özlərinə haram qılındığı halda kəsdikləri dəvənin Hz. Saleh (ə.s) tərəfindən gətirməsi də, daha sonra inkarçı qövm tərəfindən kəsilmə anı da yox olmamışdır, Allah Qatında mövcuddur. Və ya əzilən bir böcəyin də ölmədən əvvəl gedərkən, gəzərkən və ayaq altında əzilən zamankı bütün kadrları Allah Qatında dayanar. Böcəyin ölümü bir kadrdır və hər görünüşü eynilə dayanmaqdadır. Bizim

əzilmə görüntüsündən etibarən o heyvana aid bir şey görməməyimiz onun yox olduğu mənasını verməz. Əksinə, bizim yaddaşımızda yaşamadığı, yaddaşımızda unudulduğu mənasını verər. Allah Qatında o böcəyə aid görüntü yenidən canlandırılsa, bizə 5 duyğumuzla hiss etdirilsə təkrar görərik.

Fransız Qiyamı dövründə bir adamın gördüyü rəngarəng bir kəpənək üçün də eyni şey etibarlıdır. Adam kəpənəyi gördüyündə "nə qədər gözəl rəngləri var" deyib bir müddət sonra onu bir quşun qapdığını görüb kədərlənə bilər. Halbuki o kəpənək bütün simmetriyası və rəngarəngliyi ilə Allah Qatında canlı olaraq dayanmaqdadır. Kəpənəyin yaşadığı hər saniyə hətta salisə, qanadını hər açması və hər bağlaması, yerə hər qonduğu an, yerdən qalxması, qonduğu bütün çiçəklər Allah Qatında müəyyəndir. Üstəlik kəpənək bu hərəkətlərin hamısını birdən bu an etməkdədir. Eyni anda kəpənək uçur, qonur, yeyir, ölür... Lakin bütün bunların sonunda kəpənək diridir, sonsuza qədər də diri olaraq qalacaq. Minlərlə il əvvəl bu kəpənəyin öldüyünü görüb kədərlənən adamın hissləri də və o adamın həyatının hər anı da sonsuza qədər mövcud olacaq.

**"Göydə və yerdə elə bir gizli şey yoxdur ki, açıq-aydın Yazıda (Lövhi-məhfuzda) olmasın. (Nəml surəsi, 75)**

Beləcə "heyvanların ruhu varmı?", "onların sonu nə olacaq?" kimi sualların cavabı da verilmiş olur. Əhəmiyyətli olan o canlının Allahın yaddaşında olmasıdır. Allah Qatında məlumatı olduğu müddətdə (yaradıldığı andan sonsuza məhkum edilmişdir) bu varlıq canlı olar. Ancaq buradakı canlılıqdan qəsd Allahın bir hiss olaraq yaratmasıdır. Yoxsa digər canlıların heç birinin Allahın "Diri" adı ilə bir bənzərliyi yoxdur. Bu baxımdan heyvanın ruhunun olub-olmaması deyil, yaddaşda yaradılıb-yaradılmaması əhəmiyyətlidir. Allah diləsə, bu canlı yaddaşımızda var olar, diləməzsə yox olar. Allah insanın yaddaşından o heyvanın görüntüsünü alsa ölmüş olar, versə dirilmiş olar. Lakin nəticədə o heyvan Allahın yaddaşında sonsuza qədər ən canlı halı ilə var olacaq. Çünki Allah zamandan münəzzəhdir. Zamansızlıq içində də keçmiş, gələcək və ya indiki zamandan bəhs oluna bilməz. Hamısı bir andır.

### Çiçəklər Solub İtməz,
### Meyvələr Yox Olmaz...

Allah hər şeyin məlumatına sahib olandır. Yuxarıdakı ayədə xəbər verildiyi kimi yer üzü var edildiyindən bəri yaradılmış olan bütün yarpaqların, ömürləri boyunca keçirdikləri bütün hadisələri və vəziyyətləri də bilər. Məsələn, minlərlə il əvvəl

Babildəki bir ağacın və hətta o ağacdakı bir yarpağın belə məlumatı Allah Qatında gizli dayanmaqdadır. Hətta o yarpağın yerə düşənə qədər keçirdiyi bütün mərhələlər ayrı-ayrı saxlanmaqdadır. Babildə ağacın altında oturub o yarpağın düşməyini izləyən insan fərqində olmasa da, onun düşməyini müşahidə etdiyi saniyələr bir-bir Allahın yaddaşında mövcuddur və bu saniyələrin heç biri yox olmamış, keçmişdə qalmamışdır.

Bir insan yarpağın ağacdan düşməyini çox əhəmiyyətli bir hadisə olaraq qəbul etməyə bilər. Ancaq yer üzündəki gəlmiş-keçmiş bütün yarpaqların düşməyinin və bütün canlıların hər anlarının bu şəkildə "hifz edildiyi" düşünüldüyündə Allahın böyüklüyü və elmi açıq-aşkar bir şəkildə qarşımıza çıxar. Bu, bir Quran ayəsində belə bildirilir:

**... O, quruda və dənizdə nələr olduğunu bilir. Onun xəbəri olmadan yerə düşən bir yarpaq belə yoxdur. Yerin qaranlıqlarında elə bir toxum, elə bir yaş və elə bir quru (şey) yoxdur ki, açıq-aydın Yazıda (Lövhi-Məhfuzda) olmasın. (Ənam surəsi, 59)**

Bunu görən insanın edəcəyi yeganə şey Rəbbimiz qarşısında boyun əyməkdir. Allah çox ucadır. Hər şeyin məlumatı Onun Qatındadır. "**O, göydən yerə qədər olan bütün işləri idarə edir....**" (Səcdə surəsi, 5) ayəsində xəbər verildiyi kimi, insanları, heyvanları, bitkiləri, qısacası hər canlı və hər hadisəni Allah yaradır və bunların hamısı Onun Qatında canlı olaraq mühafizə edilir.

Bu, çiçəklər üçün də etibarlıdır. Bir çiçək solduğunda insanlar onun öldüyünü, yox olduğunu zənn edərkən, əslində o Allah Qatında bütün detalları ilə dayanar. Çiçək tumurcuq halında ikən də, açmadan əvvəl də, yeni açdığında da, solduğunda və öldüyü zənn edildiyində də bütün bu mərhələləri Allah Qatında dayanmaqdadır. "**De: "Onları ilk dəfə yaradan Özü onları diriltdəcəkdir. O, hər bir məxluquna yaxşı bələddir**" (Yasin surəsi, 79) ayəsində xəbər verildiyi kimi, reallaşan hər mərhələ Allahın məlumatı daxilindədir. Ayrıca daha əvvəl də ifadə etdiyimiz kimi, çiçəkdə ardıcıl olaraq meydana gələn dəyişikliklər müxtəlif zamanlarda olmuş kimi görünsə də, əslində hər mərhələsi eyni anda yaşanmaqdadır. Allah Qatında bir çiçəyə aid hər detal saxlanmaqdadır, lakin Allah bunları dilədiyinə göstərir. Gəlinciyi görən insanların yaddaşından bir müddət sonra gəlinciyə aid bu görüntülər silinər, amma bunların hər biri Allahın yaddaşında qalar.

Allahın Muhsi ismi "Sonsuz olsa da, hər şeyin sayını bilən" deməkdir. Allah bu günə qədər yer üzündə var olmuş və budağından düşən bütün yarpaqların sayını ən yaxşı biləndir. Ayrıca bütün bitkilərin, bütün yarpaqların, bütün çiçəklərin yaranmalarından etibarən hər anları, yavaş-yavaş böyümələri, inkişafları, qurumaları,

tökülmələri, üzərlərinə qonan böcəklər, tozlar, hər bir yarpağın üzərinə düşən hər yağış damlası sonsuza qədər Allahın məlumatı daxilindədir. Bunlar digər bütün canlıların həyatlarındakı hər anı ilə birlikdə bir anda və bir səthdə yaradılmışlar. Bütünlüklə bu anda, indi var edilmişlər. Bu səbəbdən bir yarpaq quruyub düşəndə, əslində o ölmür, yalnız bizim yaddaşımızdan silinir, halbuki başqa bir insanın yaddaşında hələ saxlanılır. Əgər Allah başqa insanların yaddaşında canlandırsa, onlar bu yarpağı görməyə davam edərlər.

Saxsınızda yetişdirdiyiniz bir bənövşə üçün də bu vəziyyət eynidir. Bənövşənizin ilk tumurcuqladığı an da, çiçək açdığı il anı da, böyüyüb inkişaf etməyi də, solub-büzülməsi də Allah Qatında müəyyəndir. Əslində bu an hamısı birdən olmaqdadır. Başqa sözlə desək, bənövşə indi açmaqda, amma indi də solmaqdadır. Bənövşənin açması ilə solması arasında bir zaman yoxdur. Zaman anlayışı yalnız bizim üçün etibarlıdır, Allahın yaddaşı bütün zamanların üstündədir. Bu həqiqəti xatırlayınca aydın olur ki, yer üzündə tarix boyunca var olmuş bütün bənövşələr, əslində eyni anda açmaqda, eyni anda solmaqdadır. **Bütün yarpaqlar bu an çıxmış, bütün yarpaqlar bu an tökülmüşdür.** Belə ki, bundan 1500 il əvvəl Afrikadakı bir meşədə bir ağacın koğuşunda yaşamış kiçik bir bitkinin belə həyatının hər mərhələsi Lövhi-Məhfuzda qeydlidir. Eyni şəkildə bundan 14 əsr əvvəl Müsəlmanların Peyğəmbərimizə (s.ə.v.) beyət etdikləri ağacın toxumdan çıxması, filizlərini torpağın üstünə doğru uzatması, sonra da quruması hər detalı ilə bu an mövcuddur. Yer üzündəki hər hansı bir dağda böyüyən bir otdan, dünyanın hər hansı bir çəmənliyində yetişən bir ota, səhradakı bir kaktusdan, varlığından kimsənin xəbəri olmadığı bir kola, buzların arasından çıxan bir novruzgülü çiçəyinə və ya asfaltın kənarında bitən bir çobanyastığına qədər hər bitkinin hər anı Allahın yaddaşında saxlanmaqdadır. Bəlkə bu bitkinin varlığından yer üzündəki heç bir insanın xəbəri belə olmaya bilər. Hətta heç bir zaman olmayacaq da. Lakin Allah əlbəttə ki, bütün bunlardan xəbərdardır:

**... Göylərdə və yerdə zərrə qədər olan bir şey də Ondan gizli qalmaz. Bundan daha kiçik və daha böyük elə bir şey yoxdur ki, açıq-aydın Yazıda (Lövhi-məhfuzda) olmasın". (Səba surəsi, 3)**

**Onun xəbəri olmadan heç bir meyvə toxumundan cücərib çıxmaz, heç bir dişi hamilə olmaz və daşıdığı yükü (bətnindəkini) yerə qoymaz. (Fussilət surəsi, 47)**

Bir başqa ayədə isə bu mövzu belə ifadə edilmişdir:

**O, yerə girəni də, oradan çıxanı da, göydən düşəni də, oraya qalxanı da bilir. O, Rəhmlidir, Bağışlayandır (Səba surəsi, 2)**

Bu izah edilənlərin insanın zehnində daha yaxşı canlana bilməsi baxımından, hər vaxt gördüyümüz meyvələrdən də nümunə verilə bilər. Məsələn, Afrikadakı bir banan ağacında yetişən bir bananın böyüklüyü, dadı, yetişməsi Allah Qatında müəyyəndir. Nə vaxt toplanacağı, kim tərəfindən qoparılacağı, nə vaxt yetişəcəyi və nə vaxt qaralacağı, hansı süfrəyə qoyulacağı, kimlər tərəfindən yeyiləcəyi Allah Qatında hələ o banan ağacının toxumu torpağa girmədən məlumdur. Allah bu həqiqəti bir ayəsində belə xəbər verir:

**Yer üzündə elə bir canlı yoxdur ki, onun ruzisini Allah verməsin. (Allah) onların qərar tutduqları yeri də, qorunub saxlanıldıqları yeri də bilir. (Bunların) hamısı açıq-aydın Yazıdadır (Lövhi-məhfuzdadır). (Hud surəsi, 6)**

Bananın hələ budağından ilk çıxdığı andan etibarən süfrəyə gedənə qədər keçirdiyi hər mərhələ Allah Qatında saxlanılır. Əslində o bananın budağından çıxdığı ilk andan etibarən yeyilənə qədər çox müddət keçmiş kimi görünür. Başqa sözlə desək, bananın uzun bir ömrü olduğu düşünülür. Bu meyvə əvvəl budağında yetişir, sonra biri tərəfindən dərilir, qablaşdırılır, nəqliyyat vasitəsilə yüklənib uzun bir səfərə çıxır, bəlkə okeanlar aşaraq müxtəlif ölkəyə aparılır, orada da anbarlara qoyulub satıcılara paylanır və bəlkə də yetişdiyi yerdən çox uzaq bir ölkədə onu satın alan bir adamın ailəsindən biri, ya da qonağı tərəfindən yeyilir. Amma başdan bəri ifadə etdiyimiz kimi bu dünyagörüş yalnız zamandan və məkandan asılı olan insan üçün etibarlıdır. Allah Qatında isə bananın bütün ömrü bir anda keçir. **Banan bu an yetişir və bu an biri tərəfindən yeyilir.** Həmin banan bu an budağından qoparılır, bu an konteynerlərə yüklənir. Bir daha xatırlatmaq lazım olsa, o bananın həyatı ilə sizin həyatınız, ya da Sezarın həyatı və ya Böyük İskəndərin, ya da Edisonun həyatı əslində eyni anda yaşanır. Yer üzündəki gəlmiş-keçmiş bütün meyvələrin, bütün bitkilərin, bütün insanların, bütün heyvanların məlumatı Uca Allahın hifzindədir. Bu həqiqətlər səmimi bir niyyətlə yaxşıca, dərindən düşünülsə, bunun nə qədər böyük bir hadisə olduğu aydın ola bilər.

Digər əhəmiyyətli bir nöqtə isə bu meyvələrdən heç birinin əslində çürüməməsi, yox olmaması, solmaması, itməməsidir. Bir portağal düşünün. Aralıq dənizinin sahilində portağal bağçalarında 50 il əvvəl yetişmiş olsun. Bu portağalın nə vaxt, hansı ağacdan, hətta o ağacın hansı budağından çıxacağı, turş və ya şirin olacağı, böyüklüyü, forması, rəngi, kim tərəfindən budağından toplanacağı, hansı anbarda saxlanacağı,

hansı yük maşınına yüklənəcəyi, kim tərəfindən daşınacağı, hansı meyvə satıcısına gedəcəyi, meyvə satıcısından kim tərəfindən satın alınacağı, alındığı evdə kim tərəfindən yeyiləcəyi o portağalın qədərindədir. Bəlkə də meyvə səbətində unudulacaq və kiflənəcək. An-an kiflənmə mərhələləri və sonda tamamilə kiflənib xarab olması və ev sahibi tərəfindən zibilə atılması da qədərindədir. Bir portağalın ömrünün hər saniyəsi, qədərindəki hər an Allah Qatında sonsuza qədər vardır. Nəticə olaraq o portağal Allah Qatında ölməz, yox olmaz, sonsuza qədər ilk tumurcuqlandığı, yetişdiyi, çürüməyə başladığı və xarab olduğu hər halı ilə diri və canlı olaraq qalar. Çünki Allah Həyy, yəni diri olandır. Onun yaddaşındakı hər şey də Allah "Ol" dediyi andan etibarən diridir.

**Göydən su endirən Odur. Biz onunla hər bir bitkini yetişdirdik, ondan yaşıl otlar bitirir, onlardan da üst-üstə düzülmüş dənələr çıxarırıq. Xurma ağacının tumurcuqlarından, sallanmış salxımlar yetişir. (Biz həmçinin) üzüm bağları, bir-birinə bənzəyən və bənzəməyən zeytun və nar (ağacları da yetişdiririk). Bar verdiyi və yetişdiyi zaman onların meyvəsinə baxın. Şübhəsiz ki, bunlarda iman gətirən adamlar üçün dəlillər vardır. (Ənam surəsi, 99)**

## Axan Su da Boşa Getməz

Bura qədər izah edilən hər şey axan sular üçün də etibarlıdır. Çaydan, qaynaqdan, bulaqdan, bir artezian, ya da şəlalədən axan suyun hər damlasının hər anı Allah Qatında saxlanmaqdadır. Axan suyun bir damlası belə yox olmaz, itməz. Hər damla sonsuza qədər dayanar. Heç biri boşa getməz. Eynilə, canlılarda olduğu kimi onların da hər anı, hər halı Allahın yaddaşında gizlidir. Kainat var olduğundan bəri yer üzündə axmış, hələ də axan və gələcəkdə də axacaq bütün sular bu an axır. Başqa sözlə desək, hamısı indi bir anda axmaqdadır. Allah zamandan münəzzəhdir və axan suların da əvvəli və sonrası yoxdur. Kainatdakı hər hadisə kimi bu da bir anda baş verir. Sonsuzluğun içində bir zaman vardır və bütün hadisələr bir anda olmaqdadır.

300 il əvvəl Missisipidə bir anda axan su ilə 500 il əvvəl Reyn çayında bir anda axan su, ya da 200 il sonra Firatdan başqa bir anda axacaq su əslində bir anda axmaqdadır. Hamısı bu an, bu dəqiqə axır. Heç birində axan su yox olmaz, sonsuza qədər Allah Qatında axmağa davam edər.

## Geriyə Dönmək də Mümkündür

Hər şeyin Allahın yaddaşında gizli olması qarşımıza çox əhəmiyyətli bir sirri çıxarır: Bir hadisədə geriyə doğru gedib o hadisənin başlanğıc anına çatmaq da Allahın diləməsilə son dərəcə asandır. İnsanlar zamandan asılı olduqları üçün belə bir hadisə onlara uzaq gəlir, halbuki Allah Qatında zaman yoxdur, daha əvvəl də ifadə etdiyimiz kimi, keçmiş və gələcək bir andır. Eynilə bir video kasetdəki kadrların bir anda var olması kimi. Biz bir filmi seyr etdikdən sonra o filmi geriyə çevirib yenidən seyr edə biliriksə, bizim üçün keçmiş hadisələri Allahın diləməsilə yenidən seyr etməmiz mümkündür. Əhəmiyyətli olan Allahın o an bizə o hadisələrə aid hissləri təkrar hiss etdirməsidir. Allah üçün keçmiş bir hadisəni yenidən yaratmaq son dərəcə asandır.

Bu həqiqətləri daha yaxşı qavraya bilmək baxımından belə qiymətləndirə bilərik: **Quranda bəhs edilən Səba xalqının ayədə xəbər verildiyi kimi "acı meyvəli, yulğunlu və bir az sidr ağacı olan iki bağa çevrilmiş" (Səba surəsi, 16) bağçaları bu an hələ bəlaya uğramadan əvvəlki halı ilə Allah Qatında dayanmaqdadır.** Və ya bu bağçalardakı ağacların sonradan çürüyüb yox olması, bağçanın məhv olması da Allahın yaddaşındadır. Bundan min il əvvəl dünyanın hər hansı bir yerində yamyaşıl olan bir bağçanın daha sonra bir əkin tarlasına çevrilməsi, sonra o əkin tarlasının üzərinə bir ev tikilməsi, sonra evin dağıdılıb yerində bir atelye tikilməsi, yüz ildən sonra o atelyenin dağılıb bir qəbiristanlığa çevrilməsi və sonda bu gün bu sahənin bir otel olaraq istifadə edilməsi və bu mərhələyə qədər arada keçən bütün mərhələlər sonsuza qədər Allah Qatında dayanmaqdadır. Allahın diləməsi ilə bu an bu məkanın içində olduğu andan geriyə doğru gedərək o bağçaların ilk halını görmək də mümkündür.

Şübhəsiz kainat yaradıldığı andan etibarən varlıqların və hadisələrin hər anının Allah Qatında gizli olması böyük bir hadisədir. Bu vəziyyət əslində inananlar üçün cənnətdə böyük bir nemət olacaq. Çünki insanlar istər öz keçmişlərini, istərsə də tarixdə keçmiş hadisələri maraqlanaraq görmək istəyə bilərlər. Allahın diləməsilə cənnətdə möminlər üçün görmək istədikləri bu hadisələrin hamısı onlara göstərilə bilər.

Məsələn, insan kainatın ilk yaradıldığı Big Bang anını, qalaktikaların ilk meydana gəlməsini, ilk atomun meydana gəlmə mərhələlərini, özünün ana bətnində keçirdiyi mərhələləri, tarixin hər hansı bir dövründə yaşanmış bir hadisəni, okeanların yüzlərlə metr altında insanların əsla çatmağa güc çatdıra bilmədikləri mühitlərdə yaşayan canlıları, Titanikin batmasını, anasının uşaqlığını, 3 nəsil sonrakı nəvəsinin həyatını, keçmişdə yaşadığı hadisələri, illər əvvəl itirdiyi pişiyini, uşaqkən yetişdirdiyi bir bitkini görmək istəyə bilər. Bunların hər biri digər bütün hadisələr kimi Allah Qatında bütün detalları ilə mühafizə edilir. İnsan bu şəkildə nə ilə maraqlansa, Allahın diləməsi ilə öyrənə bilər və görə bilər ki, bu insan üçün həqiqətən də çox böyük bir nemətdir.

**Bu Məlumatın verdiyi Böyük**

**Məsuliyyət**

Heç şübhəsiz kitabın əvvəlindən bu yana izah edilən mövzular son dərəcə əhəmiyyətli və təəccüblü həqiqətlərdir. Mövzunun bizim prizmamızdan mühüm olan istiqaməti isə yaşadığımız hər anın, hər rəftarımızın, söylədiyimiz hər sözün, ağlımızdan keçən hər düşüncənin, hər niyyətin Allah Qatında eynilə mühafizə edilməsidir. Möminlərin bu böyük həqiqətin fərqində olduqları Quranda Hz. İsanın (ə.s) söylədiyi bu sözlərdən də aydın olur:

**Allah deyəcəkdir: "Ey Məryəm oğlu İsa! Sənmi insanlara: "Allahı qoyub məni və anamı iki tanrı qəbul edin!"– demişdin?" İsa deyəcək: "Sən pak və müqəddəssən! Haqqım olmayan bir şeyi demək mənə yaraşmaz. Əgər bunu demiş olsaydım, əlbəttə, Sən onu bilərdin. Sən mənim qəlbimdə olanları bilirsən, mən isə Sənin Özündə olanları bilmirəm. Şübhəsiz ki, qeybləri bilən Sənsən! (Maidə surəsi, 116)**

Bununla birlikdə insan Allahın istəmədiyi bir əməli etdiyində, ya da Allahın qadağalarını pozanda hesab günü bu etdiklərinin heç birini inkar edə bilməyəcək və hətta etdiklərini qarşısında canlı bir şəkildə görə biləcək. Heç bir şey yox olmadığına, itmədiyinə görə edilən səhvlər, pisliklər də əslində gizli dayanmaqdadır. Bu səbəblə inkar edənlər özlərini kimsənin görmədiyini, eşitmədiyini sanaraq rahatca Allahın sərhədlərini pozaraq, ya da Allahın xoşuna gəlməyəcək əməllər edənlər və pis sözlər söyləyənlər böyük qarışıqlıq yaşayacaqlar. Allahın hər şeyə şəxsən özləri şahidlik edəcəklər. Ayədə belə buyrulur:

**O, həm göylərdə, həm də yerdə (ibadət olunan Tək) Allahdır. O, gizlində saxladığınızı da bilir, aşkarda etdiyinizi də. O, sizin nə qazanacağınızı da bilir. (Ənam surəsi, 3)**

Lakin Allahdan uzaq olan bu insanlar hesab günü etdikləri hər şeyi incəliyinə qədər gördüklərində artıq edəcək bir şeyləri qalmayacaq. Çünki o gün Allahın Quranda bildirdiyi kimi, bu insanlar ətraflı əhatə edilmişlər:

**.... Lakin Allahdan onlara güman etmədikləri (bir əzab) düçar olacaqdır. Onların qazandıqları pis əməllər öz qarşılarına çıxacaq və istehza etdikləri (əzab) onları bürüyəcəkdir. (Zumər surəsi, 47-48)**

Hesab günü gəldiyində inkar edənlərin, münafiqlərin, Allahın əmrlərinə çəkinmədən baş qaldıranların heç bilmədikləri hadisələr reallaşacaq, Allahın insanların yaddaşında yenidən diriltməsi ilə bütün gizli fəaliyyətləri hər kəsin qarşısında ortaya çıxacaq. Eynilə ayədə ifadə edildiyi kimi, inkarçıların həyatları boyunca istehza etdikləri şey bu dəfə özlərini əhatə edəcək. İnkar edənlər dünya həyatında özlərinə verilən müddət ərzində inananların Allaha və axirətə olan inanclarına istehza etmişlər, ağıl çatdıra bilmədikləri üçün bu həqiqətləri "yanılma" olaraq şərh etmişlər. Lakin onların "yanılma" olduğunu iddia edərək istehza etdikləri əslində özlərini heç gözləmədikləri istiqamətdən əhatə etmişdir. Çünki əslində yanılan özləridir. Həyatları boyunca etdikləri bütün pisliklərin görüntüsü Allahın hifzindədir və hesab günü bir-bir qarşılarına qoyulacaq. Bunları hər inkar etdiklərində isə bu hadisələri canlı olaraq qarşılarında görəcəklər. Beləliklə, Allahın elmi ilə əhatə olunduqlarını anlayacaqlar. Allah inkar edənlərin vəziyyətini belə bildirmişdir:

**Allah da onlara istehza edər və azğınlıqlarını (o qədər) artırar ki, sərgərdan gəzərlər. (Bəqərə surəsi, 15)**

Məkkə müşriklərinin Peyğəmbərimiz (s.ə.v.) dövründə yükləndikləri günahlar da, Hz. Nuh (ə.s) peyğəmbər dövründəki inkarçıların etdikləri də, Hz. İbrahimi (ə.s) yandıqmaq istəyənlərin etdikləri pisliklər də, Hz. Yusuf (ə.s) peyğəmbəri quyuya salan qardaşlarının etdikləri də, Hz. Musaya (ə.s) əziyyət verən bəzi İsrailoğullarının azğınlıqları da bir istisna belə olmadan Allah Qatında saxlanılır. Heç biri unudulmuş, ya da itib-getmiş deyil. Hamısı ən gizli, hətta bəlkə heç bir insanın şahid olmadığı incəliyinə qədər eynilə qorunur. Bu həqiqətə Quranda da diqqət çəkilmişdir:

**Onlar (öz günahlarını) insanlardan gizlədir, Allahdan isə gizlətmirlər (Ondan çəkinmirlər). Halbuki onlar (Allahın) razı qalmadığı sözləri gecələr xəlvətdə söylədikləri vaxt belə, O, onların yanında olur. Allah onların nə etdiklərini əhatə edir. (Nisa surəsi, 108)**

İndiki vaxtda yaşayan inkarçılar, ya da münafiq xarakterlilər üçün də eyni şey etibarlıdır. Bu insanlar möminlərin, ya da dinin əleyhində etdikləri hiyləgər planların gizli qalacağını, ortaya çıxmayacağını, hesab günü əvəzini görməyəcəyini sanmamalıdır. Etdikləri ən kiçik bir pislik, atdıqları hər böhtan, söylədikləri hər söz bu an Allah Qatında yazılıdır. Allahın o görüntüləri onların yaddaşlarından alması onları

yanıltmamalıdır. Özləri bundan on il əvvəl bir möminə atdıqları bir böhtanı unutmuş ola bilərlər, amma bu etdikləri bir hərf belə əksik olmadan Allahın yaddaşında vardır. Allah diləsə bu hadisələri bu anda da insanların yaddaşlarında canlandırar. **Amma bu həqiqəti bilməyən inkarçılar ayədə ifadə edildiyi kimi "düşüncəsiz bir camaat" (Maidə Surəsi, 58) olmaları səbəbindən Allahın qüdrətini qavraya bilməzlər.** Lakin hesab günü həqiqəti görəcək və geriyə dönüşü mümkün olmayan bir utanc və peşmanlıq duyacaqlar.

Qövmünün qabaqda gedən inkarçılarının göstərdiyi bu tip bir "ağılsız"lıq qarşısında Hz. Şueyb (ə.s) peyğəmbərin Quranda verdiyi cavabda da eyni həqiqət vardır:

**Onlar dedilər: "Ey Şueyb! Dediklərinin çoxunu anlamırıq. Biz səni aramızda zəif görürük. Əgər qəbilən olmasaydı, səni daşqalaq edərdik. Sən bizim üçün heç də böyük bir adam deyilsən". O dedi: "Ey qövmüm! Məgər mənim qəbiləm sizin üçün Allahdan da əzizdir? Siz Onu saymayıb unutdunuz. Şübhəsiz ki, Rəbbim sizin nə etdiklərinizi əhatə edir. (Hud surəsi, 91-92)**

Allah hesab gününü yaratdığında bütün inkarçıların etdiklərinin hesabını da çox sürətli görəcək. Bu hissədə izah edilən mövzu, yəni yaradılan hər şeyin hər anının sonsuza qədər saxlandığı bilindiyində, Allahın bütün insanların hesabını bir anda və çox sürətli bir şəkildə görəcəyi də aydın olur. Ancaq insanın bu anı uzaq görməməsi çox əhəmiyyətlidir, çünki o an əslində bu andır. Yəni insanlar dünyada Allaha qarşı işlədikləri bütün günahların hesabını bu anda verirlər. İnkar edənlər etdiklərinin görülməyəcəyini, eşidilməyəcəyini və ya unudulacağını zənn edə bilərlər. Amma hesab günü böyük bir qarışıqlıqla qarşılaşacaqlar:

**... Əksinə, elə zənn edirsiniz ki, Allah sizin etdiyiniz əməllərin çoxunu bilmir. Sizin öz Rəbbiniz barəsində bu zənniniz sizi məhv etdi və siz ziyan çəkənlərdən oldunuz. (Fussilət surəsi, 22-23)**

## NƏTİCƏ

Bütün bu izah edilənlərdən sonra Allahın hər yeri sarıb-bürüdüyü daha yaxşı aydın olur. İnsan əsli ilə əsla əlaqədə ola bilmədiyi, zehnində var olan bir kölgələr

aləmində, zamansızlıq içində tək-tənha bir şəkildə sınanır. **“Məni yaratdığım kimsə ilə tək burax" (Muddəssir surəsi, 11) ayəsi də bunun açıq bir dəlilidir.**

Bu kitabda izah edilənlər yaxşı aydın olduğu təqdirdə Quran ayələri və kainatdakı hər şeyin mənası çox daha yaxşı qavranacaq. İnsan özü də daxil olmaqla hər şeyin yalnız kopiyası ilə əlaqədə olduğu bir dünyada yaşayır. Hər şeyin görüntü olduğu bu kopiya kainatda tək mütləq varlıq Allahdır, Ondan başqa İlah yoxdur. İnsanların Allahı unudaraq dəyər verdikləri, dinlərini tərk etdikləri, arxasından getdikləri hər şey boşdur:

**Bu belədir. Çünki Allah Haqdır. (Kafirlərin) Ondan başqa ibadət etdikləri isə batil (bütlərdir). Həqiqətən, Allah Ən Ucadır, Ən Böyükdür. (Loğman surəsi, 30)**

İnsan bir cür ekranda 3 ölçülü, son dərəcə dəqiq, son dərəcə həqiqi bir film seyr edir. Bu ekrana sanki yapışıq olduğundan heç cür filmdən ayrılıb içində olduğu vəziyyəti görə bilməz. Allahın hüzurunda olduğunu və sınandığını unudub, özünə müstəqil bir mənlik verər və özünü çox əhəmiyyətli zənn edər. Ekranda seyr etdiyi bədənini, mallarını, mülklərini, ailəsini və yoldaşlarını sahiblənər, bunlarla qürurlanar. **Halbuki " Göylərin, yerin və onların arasında olan hər şeyin sahibi (olan Allah) nə qədər xeyirxahdır!..." (Zuxruf surəsi, 85) ayəsində də bildirildiyi kimi bütün bunların tək sahibi Allahdır.** Allah bir anda insana göstərdiyi ekrandakı görüntünü qaldırsa adam əslində tək-tənha olduğunu anlayacaq və bu açıq-aşkar həqiqəti dəhşətlə dərk edəcək. Ekranda seyr etdiyi görüntüləri və ekrandakı bədənini özününmüş kimi sahibləndiyi və bunlarla qürurlandığı üçün çox böyük utanc duyacaq.

Bu həqiqətlər üzərində düşünən insan Allahın qarşısındakı acizliyini və kiçikliyini də anlayacaq. İnsan ancaq Allaha boyun əydiyi, ONA qarşı itaatkar olduğu halda dəyər qazanar, sonsuzluq içində gözəl bir həyat yaşaya bilər. Allahın özünə sonsuza qədər cənnət görüntülərini göstərməsini ümid edə bilər.

Allahın qullarından istədiyi son dərəcə açıqdır: Onun böyüklüyünü təqdir etmələri və Onun təyin etdiyi sərhədləri aşmamaları. Amma bəzi insanlar qəflətin şiddətindən onları Yaradan Uca Allahı unudur və ya inkar edirlər. Bu nöqtədə onları aldadan ən əhəmiyyətli mövzulardan biri isə var zənn etdikləri izdihamlı insan birlikləridir. Bu insanlar dostlarını, yoldaşlarını, sirdaşlarını, eyni zehniyyəti paylaşdıqları bütün insanları var zənn etdikləri və tək-tənha olduqlarını unutduqları üçün belə azğın bir xarakter göstərirlər. Halbuki bir insanın ətrafı nə qədər izdihamlı olursa-olsun nəticədə tək-tənhadır və ona Allahdan başqa kömək edə biləcək heç bir kimsə yoxdur:

**… Onlar Allahdan başqa özlərinə nə bir himayədar, nə də bir yardımçı tapacaqlar. (Nisa surəsi, 173)**

**İnsanlar "Onların hər biri Qiyamət günü Onun hüzuruna tək-tənha gələcək. " (Məryəm surəsi, 95) ayəsi ilə xəbər verildiyi kimi qiyamət günü də Allahın hüzuruna tək-tənha gedəcəklər.** Özləri kimi Allahdan və din əxlaqından uzaq olan, bu günləri ilə qarşılaşacaqlarını unudan yoldaşları, dostları və sevdikləri də yanlarında olmayacaq. Hətta aldanıb arxasından getdikləri şeytan onları tərk edəcək:

**Çünki Zikr (Quran) mənə çatdıqdan sonra o, məni ondan uzaqlaşdırdı". Həqiqətən, şeytan insanı tənha qoyub qaçandır. (Furqan surəsi, 29)**

**Hüzurumuza ilk dəfə sizi xəlq etdiyimiz kimi tək-tənha, həm də sizə verdiyimiz (nemətləri) arxanızda qoyub gəldiniz. Öz aranızda (Allaha) şərik saydığınız şəfaətçilərinizi də yanınızda görmürük. Artıq aranızda əlaqə qırılmış, iddia etdiyiniz (tanrılar) isə sizdən uzaqlaşmışdır. (Ənam surəsi, 94)**

Bu həqiqətləri səmimi bir yanaşma içində olan hər insan rahatlıqla anlayacaq. Çünki Allahın ayələri çox açıqdır. İnsan istər izdihamlı bir insan birliyinin ortasında olsun, istər bir kinoda, istər bir yığıncaqda, istər sevdikləri ilə, istəsə də saysız insanın olduğu bir prospektdə olsun, nəticə dəyişməz, əslində təkdir. Bu həqiqəti anlaya bilməyənlərin vəziyyəti bir ayədə belə təsvir edilir:

**... Bu ona görədir ki, onlar ağlı kəsməyən adamlardır. (Həşr surəsi, 14)**

Rəbbimizin ona göstərdiyi bu böyük məlumatlar üzərində dərindən düşünən insanlar isə möminlərdir ki, yalnız onlar öyüd alıb düşünə bilərlər:

**Məgər gecə saatlarını səcdə edərək və ayaq üstə duraraq ibadət içində keçirən, axirətdən çəkinən və Rəbbinin rəhmətinə ümid bəsləyən kimsə (kafirlə eynidirmi?) De: "Heç bilənlərlə bilməyənlər eyni ola bilərmi? (Bundan) ancaq ağıl sahibləri düşünüb ibrət alarlar". (Zumər surəsi, 9)**

**Rəbbindən sənə nazil edilənin haqq olduğunu bilən kimsə, kora bənzəyə bilərmi? (Bundan) ancaq ağıl sahibləri ibrət alarlar. (Rəd surəsi, 19)**

Gəlin siz də Rəbbimiz olan Allaha təslim olun, ONA qəlbən itaət edin.

Beləliklə də, görməyən insan olmaqdan xilas olun.

## ƏLAVƏ BÖLMƏ

## TƏKAMÜL XƏTASI

Darvinizm, yəni təkamül nəzəriyyəsi yaradılış həqiqətini inkar etmək məqsədilə irəli sürülmüş, ancaq uğursuzluqla nəticələnmiş elmdənkənar cəfəngiyyatdan başqa bir şey deyil. Canlıların cansız maddələrdən təsadüfən əmələ gəldiyini iddia edən bu nəzəriyyə kainatda və canlılarda çox möcüzəvi nizam olduğunun elm tərəfindən sübut edilməsilə çürümüşdür. Beləliklə, Allahın bütün kainatı və canlıları yaratdığı həqiqəti elm tərəfindən də sübut edilmişdir. Bu gün təkamül nəzəriyyəsini dirçəltmək üçün dünya səviyyəsində həyata keçirilən təbliğat sadəcə elmi həqiqətlərin təhrif olunmasına, tərəfli şərhinə, elm adı altında söylənilən yalanlara və edilən saxtakarlıqlara əsaslanır.

Ancaq bu təbliğat həqiqəti gizlətmir. Təkamül nəzəriyyəsinin elm tarixindəki ən böyük xəta olması, son 20-30 il ərzində elm dünyasında getdikcə daha ucadan dilə gətirilir. Xüsusilə 80-ci illərdən sonra aparılan tədqiqatlar Darvinist iddiaların tamamilə səhv olduğunu ortaya qoymuş və bu həqiqət bir çox elm adamı tərəfindən dilə gətirilmişdir. ABŞ-da biologiya, biokimya, paleontologiya kimi fərqli sahələrlə məşğul olan bir çox elm adamı Darvinizmin əsassızlığını görür, canlıların mənşəyini artıq "yaradılış həqiqətilə" açıqlayırlar.

Təkamül nəzəriyyəsinin süqutundan və yaradılış dəlillərindən digər bir çox fəaliyyətimizdə bütün elmi detalları ilə bəhs etmişik və etməyə davam edirik. Ancaq mövzudan daşıdığı əhəmiyyət baxımından burada da bəhs etməkdə fayda var.

### Darvini məhv edən çətinliklər

Təkamül nəzəriyyəsi tarixi qədim Yunanıstana gedib çıxan bir təlim olmasına baxmayaraq XIX əsrdə hərtərəfli şəkildə irəli sürüldü. Nəzəriyyəni elm dünyasının gündəliyinə gətirən ən mühüm irəliləyiş Çarlz Darvinin 1859-cu ildə nəşr edilən "Növlərin mənşəyi" adlı kitabı idi. Darvin bu kitabda dünyadakı müxtəlif canlı növlrəini Allahın ayrı-ayrı yaratması həqiqətinə qarşı çıxırdı. Darvinə görə bütün növlər ortaq əcdaddan törəmiş və zaman ərzində kiçik dəyişikliklərlə müxtəlifləşmişdilər.

Darvinin nəzəriyyəsi heç bir konkret elmi tapıntıya əsaslanmırdı; özünün də qəbul etdiyi kimi sadəcə bir "məntiq yeritmə" idi. Hətta Darvin kitabındakı "Nəzəriyyənin qarşısında duran çətinliklər" başlıqlı uzun bölmədə etiraf etdiyi kimi nəzəriyyə bir çox mühüm sual qarşısında çarəsiz qalırdı.

Darvin nəzəriyyəsinin qarşısındakı çətinliklərə irəliləyən elmin üstün gələcəyinə, yeni elmi kəşflərin nəzəriyyəsini gücləndirəcəyinə ümid edirdi. Bunu kitabında tez-tez bildirirdi. Ancaq irəliləyən elm Darvinin ümidlərinin tam əksinə, nəzəriyyənin əsas iddialarını bir-bir əsassız qoydu.

Darvinizmin elm qarşısındakı məğlubiyyətini üç əsas başlıq altında nəzərdən keçirmək olar:

1) Nəzəriyyə həyatın yer üzündə ilk dəfə necə ortaya çıxdığını əsla açıqlaya bilmir.

2) Nəzəriyyənin irəli sürdüyü "təkamül mexanizmlərinin" əslində təkamül xarakterinə malik olduğunu göstərən heç bir elmi tapıntı yoxdur.

3) Fosillər təkamül nəzəriyyəsinin iddialarının tam əksini ortaya qoyur.

Bu bölmədə bu üç əsas başlığı əsaslı şəkildə nəzərdən keçirəcəyik.

**Keçilməz ilk pillə: Həyatın mənşəyi**

Təkamül nəzəriyyəsi bütün canlı növlrəinin bundan təxminən 3.8 milyard il əvvəl bəsit yerdə ortaya çıxan bircə canlı hüceyrədən törədiklərini iddia edir. Bircə hüceyerənin milyonlarla kompleks canlı növünü necə əmələ gətirməsi və əgər həqiqətən bu cür təkamül baş vermişsə, nə üçün izlərinin fosillərdə tapılmadığı nəzəriyyənin açıqlaya bilmədiyi suallardandır. Ancaq bütün bunlardan əvvəl iddia edilən təkamül prosesinin ilk pilləsi üzərində dayanmaq lazımdır. Bəhs edilən o "ilk hüceyrə" necə ortaya çıxmışdır?

Təkamül nəzəriyyəsi yaradılışı inkar etdiyi, heç bir fövqəltəbii müdaxiləni qəbul etmədiyi üçün o "ilk hüceyrənin" heç bir dizayn, plan və nizamlama olmadan, təbiət qanunları içində təsadüfən meydana gəldiyini iddia edir. Yəni o nəzəriyyəyə görə cansız maddə təsadüflər nəticəsində ortaya canlı hüceyrə çıxarmalıdır. Ancaq bu, məlum olan ən təməl biologiya qanunlarına zidd iddiadır.

**"Həyat həyatdan törəyər"**

Darvin kitabında həyatın mənşəyindən heç bəhs etməmişdi. Çünki onun dövründəki bəsit em anlayışı canlıların çox bəsit quruluşa malik olduqlarını fərz edirdi. Orta əsrlərdən bəri inanılan "spontane generasiya" adlı nəzəriyyəyə əsasən cansız maddələrin təsadüfən birləşərək canlı varlıq əmələ gətirməsinə inanılırdı. Bu dövrdə həşəratların yemək artıqlarından, siçanların da buğdadan əmələ gəlməsi geniş yayışmış düşüncə idi. Bunu sübut etmək üçün qəribə təcrübələr edilmişdi. Çirkli əskinin üstünə

bir az buğda qoyulmuş və bir az gözlədikdə bu qarışıqdan siçanların əmələ gəlməsini düşünmüşdülər.

Ətin qurdlaması da həyatın cansız maddələrdən törədiyinə bir dəlil hesab edilirdi. Lakin daha sonra məlum olacaqdı ki, ətin üstündəki qurdlar öz-özlərindən əmələ gəlmirlər, milçəklərin gətirib qoyduqları gözlə görülməyən yumurtalardan çıxırdılar.

Darvinin "Növlərin mənşəyi" adlı kitabını yazdığı dövrdə isə bakteriyaların cansız maddədən əmələ gəlməsi inancı elm dünyasında geniş şəkildə qəbul edilirdi.

Lakin Darvinin kitabının nəşr edilməsindən beş il sonra məşhur fransız bioloqu Lui Paster təkamülə əsas verən bu inancı qəti şəkildə məhv etdi. Paster apardığı uzun fəaliyyət və təcrübələrdə gəldiyi nəticəni belə şərh etmişdi:

Cansız maddələrin həyatı əmələ gətirməsi iddiası artıq qəti şəkildə tarixə gömülmüşdür.[43]

Təkamül nəzəriyyəsinin tərəfdarları Pasterin kəşflərinə uzun müddət qarşı çıxdılar. Ancaq inkişaf edən elm canlı hüceyrəsinin mürəkkəb quruluşunu üzə çıxardıqca həyatın öz-özünə əmələ gəlməsi iddiasının əsassızlığı daha da açıq şəkil aldı.

**XX əsrdəki nəticəsiz səylər**

XX əsrdə həyatın mənşəyi mövzusu ilə məşğul olan ilk təkamülçü məşhur rus bioloqu Aleksandr Oparin oldu. Oparin 1930-cu illərdə ortaya atdığı bəzi tezislərlə canlı hüceyrəsinin təsadüfən meydana gələ biləcəyini sübut etməyə çalışdı. Ancaq bu fəaliyyətlər uğursuzluqla nəticələnəcək və Oparin bu etirafı etmək məcburiyyətində qalacaqdı:

Təəssüf ki, hüceyrənin mənşəyi təkamül nəzəriyyəsinin tamamilə əhatə edən qara nöqtədən ibarətdir.[44]

Oparinin yolunu davam edən təkamülçülər həyatın mənşəyi problemini həll etmək üçün təcrübələr aparmağa çalışdılar. Bu təcrübələrin ən məşhuru amerikalı kimyaçı Stenli Miller tərəfindən 1953-cü ildə aparıldı. Miller bəsit atmosferdə mövcud olduğunu iddia etdiyi qazları bir təcrübədə birləşdirdi və bu qarışığa enerji verərək zülalları təşkil edən bir neçə üzvi molekul (amin turşusu) sintez etdi.

O illərdə təkamüllə bağlı mühüm mərhələ kimi tanıdılan bu təcrübənin əsassız olması və təcrübədə tətbiq edilən atmosferin həqiqi Yer şərtlərindən çox fərqli olması sonrakı illərdə üzə çıxacaqdı.[45]

Uzun müddət sonra Millerin özü də tətbiq etdiyi atmosfer mühitinin həqiqi olmadığını etiraf etdi.

Həyatın mənşəyi problemini açıqlamaq üçün XX əsr boyu göstərilən bütün təkamülçü səyləri uğursuzluqla nəticələndi. San Diyeqo Skrips İnstitutundan məşhur geokimyaçı Cefri Bada təkamülçü "Yer" jurnalında 1998-ci ildə dərc edilən bir məqalədə bu həqiqəti belə qəbul edir:

Bu gün XX əsri arxada qoyarkən hələ də XX əsrin başlanğıcında qarşımızda duran ən böyük həll edilməmiş problemlə qarşı-qarşıyayıq: Həyat yer üzündə necə başlayıb.[47]

**Həyatın kompleks quruluşu**

Təkamül nəzəriyyəsinin həyatın mənşəyi ilə bağlı bu qədər böyük çıxılmaz vəziyyətə düşməsinin başlıca səbəbi ən bəsit hesab edilən canlı formalarının belə inanılmaz dərəcədə mürəkkəb quruluşa malik olmasıdır. Canlı hüceyrəsi insanın hazırladığı bütün texnoloji məhsullardan daha mürəkkəbdir. Belə ki, bu gün dünyanın ən qabaqcıl laboratoriyalarında belə cansız maddələr birləşdirilərək canlı hüceyrə əmələ gətirilə bilmir.

Bir hüceyrənin meydana gəlməsi üçün lazımlı şərtlər əsla təsadüflərlə açıqlanmayacaq qədər çoxdur. Hüceyrənin əsasını təşkil edən zülalların təsadüfən sintezlənmə ehtimalı 500 amin turşusundan ibarət bir zülal üçün $10^{950}$-dir. Ancaq riyaziyyatda $10^{50}$-də 1-dən kiçik ehtimallar praktiki cəhətdən "mümkünsüz" hesab edilir. Hüceyrənin nüvəsində yerləşən və genetik məlumat daşıyan DNT molekulu isə məlumat bankıdır. İnsan DNT-sindəki məlumat əgər kağıza köçürülsə, 500 səhifədən ibarət 900 cildlik kitabxana əmələ gələr.

Burada çox maraqlı müəmma da var: DNT ancaq bir sıra xüsusi zülalların (hormonların) köməyilə cütlənə bilər. Amma bu hormonların sintezi də ancaq DNT-dəki məlumatlar əsasında baş verir. Bir-birlərindən asılı olduqlarına görə cütləmənin meydana gəlməsi üçün ikisi də eyni anda mövcud olmalıdır. Bu isə həyatın öz-özünə meydana gəlməsi ssenarisini çıxılmaz vəziyyətə salır. San Diyeqo Kaliforniya Universitetindən məşhur təkamülçü Prof. Lesli Orcel "Scientific American" jurnalının 1994-cü il oktyabr tarixli sayında bu həqiqəti belə etiraf edir:

Olduqca kompleks quruluşa malik olan zülalların və nuklein turşularının (RNT və DNT) eyni yerdə və eyni zamanda təsadüfən əmələ gəlmələri həddindən artıq ehtimaldan kənardır. Amma bunların biri olmadan digərini əldə etmək də mümkün deyil. Ona görə insan həyatın kimyəvi yollarla ortaya çıxmasının tamamilə mümkünsüz olması nəticəsinə gəlmək məcburiyyətində qalır.[48]

Şübhəsiz, əgər həyatın təbii amillərlə ortaya çıxması mümkün deyilsə, belə olduqda həyatın fövqəltəbii şəkildə "yaradıldığı" qəbul edilməlidir. Bu həqiqət əsas məqsədi yaradılışı inkar etmək olan təkamül nəzəriyyəsini açıq şəkildə əsassız edir.

**Təkamülün xəyali mexanizmləri**

Darvinin nəzəriyyəsini əsassız edən ikinci böyük cəhət nəzəriyyənin "təkamül mexanizmləri" kimi irəli sürdüyü iki anlayışın da əslində heç bir təkamül gücünə malik olmamasının başa düşülməsidir. Darvin ortaya atdığı təkamül iddiasını tamamilə "təbii seleksiya" mexanizmi ilə əlaqələndirmişdi. Bu mexanizmə verdiyi əhəmiyyət kitabının adından da açıq şəkildə başa düşülürdü: "Növlərin mənşəyi, təbii seleksiya yolu ilə"...

Təbii seleksiya təbii seçmə deməkdir. Təbiətdəki həyat uğrunda mübarizədə təbii şərtlərə uyğun və güclü canlıların həyatda qalacağı düşüncəsinə əsaslanır. Məsələn, yırtıcı heyvanlar tərəfindən təhlükəyə məruz qalan bir maral sürüsündə daha sürətlə qaçan marallar həyatda qalacaq. Beləliklə, maral sürüsü sürətlə qaçan və güclü fərdlərdən ibarət olacaq. Amma, əlbəttə, bu mexanizm maralların təkamül keçirməsinə səbəb olmaz, onları başqa bir canlı növünə, məsələn, atlara çevirməz.

Ona görə təbii seçmə mexanizmi heç bir təkamül gücünə malik deyil. Darvin də bu həqiqəti anlamışdı və "Növlərin mənşəyi" adlı kitabında "Faydalı dəyişikliklər baş verMədikcə təbii seçmə heç bir şey edə bilməz" demək məcburiyyətində qalmışdı.[49]

**Lamarkın təsiri**

Bəs bu "faydalı dəyişikliklər" necə baş verə bilərdi? Darvin öz dövrünün bəsit elm anlayışı içində bu suala Lamarka əsaslanaraq cavab verməyə çalışmışdı. Darvindən əvvəl yaşamış fransız bioloq Lamarka görə canlılar həyatları boyu keçirdikləri fiziki dəyişiklikləri sonrakı nəsilə ötürürlər, nəsildən-nəsilə saxlanılan bu xüsusiyyətlər nəticəsində yeni növlər ortaya çıxır. Məsələn, Lamarka görə zürafələr ceyranlardan törəyiblər, hündür ağacların yarpaqlarını yemək üçün cəhd edərkən nəsildən-nəsilə boyunları uzanmışdır.

"Növlərin mənşəyi" adlı kitabında qida tapmaq üçün suya girən bəzi ayıların zaman ərzində balinalara çevrildiyini iddia etmişdi.[50]

Amma Mendelin kəşf etdiyi və XX əsrdə inkişaf edən genetika elmi ilə qəti şəkildə sübut edilən irsiyyət qanunları qazanılmış xüsusiyyətlərin sonrakı nəsillərə ötürülməsi əfsanəsini məhv etdi. Beləliklə, təbii seçmə "tək başına" və tamamilə təsirsiz mexanizm olaraq qalırdı.

**Neo-darvinizm və mutasiyalar**

Darvinistlər isə bu vəziyyətə bir çıxış yolu tapmaq üçün 1930-cu illərin sonlarında "Müasir sintetik nəzəriyyə"ni və ya daha geniş yayılmış adı ilə neo-

darvinizmi ortaya atdılar. Neo-darvinizm təbii seçmənin yanına “faydalı dəyişiklik səbəbi” kimi mutasiyaları, yəni canlıların genlərində radiasiya kimi xarici təsirlər və ya klonlaşdırma xətaları nəticəsində əmələ gələn pozulmaları əlavə etdi.

Bu gün də dünyada təkamül adına əsaslılığını qoruyan model neo-darvinizmdir. Nəzəriyyə yer üzündə mövcud olan milyonlarla canlı növünün bu canlıların qulaq, göz, ağciyər, qanad kimi saysız-hesabsız mürəkkəb orqanlarının “mutasiyalara”, yəni genetik pozulmalara əsaslanan bir proses nəticəsində əmələ gəldiyini iddia edir. Amma nəzəriyyəni çarəsiz qoyan bir açıq elmi həqiqət var: mutasiyalar canlıları təkmilləşdirmirlər, əksinə hər zaman canlılara zərər verirlər.

Bunun səbəbi çox sadədir: DNT çox mürəkkəb quruluşa malikdir. Bu molekula olan hər hansı təsadüfi təsir ancaq zərər verir.Amerikalı genetik B.G. Ranqanatan bunu belə açıqlayır:

Mutasiyalar kiçik, təsadüfi və zərərlidirlər. Çox nadir meydana gəlirlər və ən yaxşı halda təsirsizdirlər. Bu üç xüsusiyyət mutasiyaların təkamül xarakterli inkişaf meydana gətirməyəcəyini sübut edir. Yüksək dərəcədə xüsusiləşmiş orqanizmdə meydana gələn təsadüfi dəyişiklik ya təsirsiz, ya da zərərli olar. Bir qol saatında meydana gələn təsadüfi dəyişiklik qol saatını təkmilləşdirməz. Ona böyük ehtimalla zərər verər və ya ən yaxşı halda təsir etməz. Bir zəlzələ bir şəhəri daha yaxşı hala salmaz, onu məhv edər.[51]

Belə ki, bu günə qədər heç bir yararlı, yəni genetik məlumatı təkmilləşdirən mutasiya nümunəsi müşahidə edilməyib. Bütün mutasiyaların zərərli olması məlum olub. Aydın olmuşdur ki, təkamül nəzəriyyəsinin “təkamül mexanizmi” kimi göstərdiyi mutasiyalar əslində canlıları sadəcə təhrif edən, şikəst edən genetik hadisələrdir (insanlarda mutasiyanın ən çox rast gəlinən təsiri xərçəngdir). Əlbəttə, məhfedici mexanizm “təkamül mexanizmi” ola bilməz. Təbii seçmə isə Darvinin də qəbul etdiyi kimi, “tək başına heç bir şey edə bilməz”. Bu həqiqət bizə təbiətdə heç bir “təkamül mexanizmi” olmadığını göstərir. Təkamül mexanizmi olmadığına görə təkamül deyilən xəyali proses də mümkün deyil.

**Fosillər: ara-keçid formalardan əsər yoxdur**

Təkamül nəzəriyyəsinin iddia etdiyi ssenarinin baş vermədiyinin ən açıq göstəricisi isə fosillərdir.

Təkamül nəzəriyyəsinə görə bütün canlılar bir-birlərindən törəyiblər. Əvvəlcədən mövcud olan bir canlı növü zaman ərzində digərinə çevrilmiş və bütün növlər bu şəkildə ortaya çıxmışlar. Nəzəriyyəyə əsasən bu çevrilmə yüz milyonlarla il davam edən uzun zamanı əhatə etmiş və mərhələ-mərhələ irəliləmişdir. Bu halda iddia

edilən uzun çevrilmə prosesi içərisində saysız-hesabsız "ara növlər" əmələ gəlməli və yaşamalıdırlar.

Məsələn, keçmişdə balıq xüsusiyyətlərini daşımalarına baxmayaraq, bir tərəfdən də bəzi sürünən canlı xüsusiyyətlərini qazanmış yarıbalıq-yarısürünən canlılar yaşamalıdır və ya sürünən xüsusiyyətlərini daşıyan, bir tərəfdən də bəzi quş xüsusiyyətləri qazanmış sürünən-quşlar ortaya çıxmaılıdır.

Bunlar bir keçid prosesində olduqları üçün şikəst, yarımçıq, qüsurlu canlılar olmalıdır. Təkamülçülər keçmişdə yaşadığına inandıqları bu nəzəri məxluqları "ara-keçid forması" adlandırırlar.

Əgər həqiqətən bu cür canlılar keçmişdə yaşayıbsa, onların sayları və növləri milyonlarla, hətta milyardlarla olmalıdır və bu əcaib canlıların qalıqlarına mütləq fosil izlərində rast gəlinməlidir. Darvin "Növlərin mənşəyi"ndə bunu belə açıqlamışdır:

Əgər nəzəriyyəm doğrudursa, növləri bir-birinə bağlayan saysız-hesabsız ara-keçid növləri mütləq yaşamalıdır... Onların yaşadığının dəlilləri də sadəcə fosil qalıqları arasında tapıla bilər.[52]

**Darvinin puç olan ümidləri**

Ancaq XIX əsrin ortasından indiyə qədər dünyanın hər tərəfində qızğın fosil araşdırmaları aparılmasına baxmayaraq bu ara-keçid formalarına rast gəlinməmişdir. Aparılan qazıntı işlərində və tədqiqatlarda əldə edilən bütün tapıntılar təkamülçülərin gözlədiklərinin əksinə, canlıların yer üzündə birdən-birə, əksiksiz və qüsursuz formada ortaya çıxdıqlarını göstərmişdir.

Məşhur ingilis paleontoloqu Derek V. Eycer təkamülçü olmasına baxmayaraq bu həqiqəti belə etiraf edir:

Problemimiz budur: fosilləri hərtərəfli tədqiq etdikdə növlər və ya siniflər səviyyəsində belə, daima eyni həqiqətlə qarşılaşırıq; mərhələli təkamüllə təkmilləşən deyil, birdən-birə yer üzündə əmələ gələn qruplar görürük.[53]

Yəni fosil izlərində bütün canlı növləri, aralarında heç bir keçid forması olmadan, tam formada ani surətdə ortaya çıxırlar. Bu, Darvinin rəylərinin tam əksidir. Habelə, bu canlı növlrəinin yaradıldıqlarını göstərən çox güclü dəlildir. Çünki bir canlı növünün təkamül keçirərək əmələ gəldiyi heç bir əcdadı olmadan, bir anda və qüsursuz şəkildə ortaya çıxmasının tək açıqlaması var: o növ yaradılmışdır. Bu həqiqət məşhur təkamülçü bioloq Duqlas Futuyma tərəfindən də qəbul edilir:

Yaradılış və təkamül yaşayan canlıların mənşəyi haqqında iki yeganə açıqlamadır. Canlılar dünyada ya tamamilə mükəmməl və tam formada ortaya

çıxmışlar, ya da belə olmamışdır. Əgər belə olmamışdırsa, bir dəyişiklik prosesi nəticəsində özlərindən əvvəl mövcud olan bəzi canlı növlərindən təkamül keçirərək meydana gəlməlidirlər. Amma əgər tam və mükəmməl formada ortaya çıxıblarsa, onda sonsuz güc sahibi olan bir ağıl tərəfindən yaradılmışlar.[54]

Fosillər isə canlıların yer üzündə tam və mükəmməl formada ortaya çıxdıqlarını göstərir. Yəni "növlərin mənşəyi" Darvinin hesab etdiyinin əksinə, təkamül deyil, yaradılışdır.

**İnsanın təkamülü nağılı**

Təkamül nəzəriyyəsinin tərəfdarlarının ən çox gündəliyə gətirdikləri məsələ insanın mənşəyidir. Bununla bağlı darvinist iddia bu gün yaşayan müasir insanın meymunabənzər bir cür məxluqlardan törədiyini fərz edir. 4-5 milyon il əvvəl başladığı fərz edilən bu prosesdə müasir insan ilə əcdadları arasında bəzi "ara-keçid formaların" yaşadığı iddia edilir. Əslində tamamilə fantastik olan bu ssenaridə dörd əsas "kateqoriya" var:

1- Australopithecus

2- Homo habilis

3- Homo erectus

4- Homo sapiens

Təkamülçülər insanların "ilk meymunabənzər əcdadlarına" "cənub meymunu" mənasını verən "Australopithecus" adını vermişlər. Bu canlılar əslində nəsli kəsilmiş meymun növüdür. Lord Soli Zakerman və Prof. Çarlz Oksnard kimi İngiltərə və ABŞ-dan dünyada məşhur olan iki anatomistin Australopithecus nümunələri üzərində apardığı hərtərəfli araşdırmalar bu canlıların sadəcə nəsli kəsilmiş meymun növünə aid olduqlarını və insanlarla heç bir bənzərlik təşkil etmədiklərini göstərmişdir.[55]

Təkamülçülər insanın təkamülünün sonrakı mərhələlsini də "homo", yəni insan kimi təsnif edirlər. İddiaya əsasən homo seriyasındakı canlılar Australopithecuslardan daha çox inkişaf etmişlər. Təkamülçülər bu fərqli canlılara aid fosilləri ard-arda düzərək xəyali təkamül sxemi qururlar. Bu sxem xəyalidir, çünki əslində bu fərlqi siniflərin arasında təkamül xarakterli əlaqə olması hələ sübut edilə bilməmişdir. Təkamül nəzəriyyəsinin XX əsrdəki ən mühüm tərəfdarlarından biri olan Ernst Mayr "Homo sapiensə uzanan zəncir halqası əslində itib" deyərək bunu qəbul edir.[56]

Təkamülçülrə "Ausrtalopithecus>Homo habilis>Homo erectus>Homo Sapiens" sırasını yazarkən bu növlərin hər birinin daha sonrakının əcdadı olmasını irəli sürürlər.

Lakin paleoantropoloqların son kəşfləri Australopithecus, Homo habilis və Homo erectusun dünyanın müxtəlif bölgələrində eyni dövrlərdə yaşadıqlarını göstərir.[57]

Habelə, Homo erectus təsnifatına aid olan insanların bir qismi çox müasir dövrlərə qədər yaşamışlar, Homo Sapiens neandertalensis və Homo sapiens sapiens (müasir insan) ilə eyni mühitdə birlikdə mövcud olmuşlar.[58]

Bu isə, əlbəttə, bu siniflərin bir-birilərinin əcdadı olduqları iddiasının əsassızlığını açıq şəkildə ortaya qoyur. Harvard Universitetinin paleontoloqlarından Stefen Cey Qauld, özü də təkamülçü olmasına baxmayaraq, darvinist nəzəriyyənin içinə düşdüyü bu çıxılmaz vəziyyəti belə açıqlayır:

Əgər bir-birilə paralel şəkildə yaşayan üç müxtəlif hominid (insanabənzər) sxemi varsa, onda bizim soy ağacımıza nə oldu? Aydındır ki, bunların biri digərindən törəyə bilməz. Habelə, biri digərilə müqayisə edildikdə təkamül xarakterli inkişaf meyli göstərmirlər. [59]

Qısaca desək, KİV-də və ya dərsliklərdə verilən bir cür xəyali "yarımeymun-yarıinsan" canlıların rəsmlərilə, yəni sırf təbliğat yolu ilə dirçəldilməyəə çalışılan insanın təkamülü ssenarisi heç bir elmi əsası olmayan nağıldan ibarətdir.

Bu mövzunu uzun illər tədqiq edən, xüsusilə Australopithecus fosilləri üzərində 15 il araşdırma aparan İngiltərənin ən məşhur və hörmətli elm adamlarından biri olan Lord Soli Zakerman təkamülçü olmasına baxmayaraq, ortada meymunabənzər canlılardan insana uzanan həqiqi soy ağacı olmaması nəticəsinə gəlmişdir.

Zakerman maraqlı elm şkalası da qurmuşdur. Elmi hesab etdiyi elm sahələrindən elmdənkənar qəbul etdiyi elm sahələrinə qədər şaxələnmə qurmuşdur. Zakermanın bu cədvəlinə əsasən ən "elmi"- yəni konkret faktlara əsaslanan elm sahələri kimya və fizikadır. Cədvəldə bunlardan sonra bioloji elmlər, daha sonra sosial fənnlər gəlir. Şaxələnmənin ən kənar ucunda, yəni "elmdənkənar" hesab edilən hissədə isə Zakermana görə telepatiya, altıncı hiss kimi "hissin fövqündə olan qavrama" anlayışları və "insanın təkamülü" yerləşir! Zakerman şaxələnmənin bu ucunu belə açıqlayır:

Obyektiv həqiqət sahəsindən çıxıb bioloji elm fərz edilən bu sahələrə, yəni hissin fövqündə olan qavramaya və insanın fosil tarixinin şərh edilməsinə daxil olduqda, təkamül nəzəriyyəsinə inanan bir şəxs üçün hər şeyin mümkün olduğunu görürük. Belə ki, nəzəriyyələrinə qəti şəkildə inanan bu şəxslərin ziddiyyətli bəzi rəyləri eyni anda qəbul etmələri belə mümkündür.[60]

İnsanın təkamülü nağılı da məhz nəzəriyyələrinə kor-koranə inanan bir sıra insanların tapdıqları bəzi fosillər haqqında qabaqcadan rəy verərək şərh etmələrindən ibarətdir.

**Darvin formulu!**

İndiyə qədər nəzərdən keçirdiyimiz bütün texniki dəlillərlə bərabər, istəyirsinizsə, təkamülçülərin necə cəfəng inanca malik olduqlarına bir də uşaqların belə anlayacağı qədər açıq misalla baxaq.

Təkamül nəzəriyyəsi canlıların təsadüfən əmələ gəldiyni iddia edir. Ona görə bu iddiaya əsasən cansız və şüursuz atomlar birləşərək əvvəlcə hüceyrəni əmələ gətirmiş və sonra eyni atomlar birləşərək digər canlıları və insanı meydana gətirmişlər. İndi fikirləşək; canlıların əsasını təşkil edən karbon, fosfor, azot, kalium kimi elementləri birləşdirdikdə bir yığın əmələ gəlir. Bu atom yığını hansı prosesdən keçirilsə də, bircə canlı belə əmələ gətirilə bilməz. İstəyirsinizsə, bununla bağlı bir təcrübə keçirək və təkamülçülərin əslində müdafiə etdikləri, amma ucadan söyləyə bilmədikləri iddianı onların adından "Darvin formulu" adı ilə nəzərdən keçirək:

Təkamülçülər çox sayda böyük çənin içinə canlıların əsasını təşkil edən fosfor, azot, karbon, oksigen, dəmir, maqnezium kimi elementlərdən bol miqdarda qoysunlar. Hətta normal şərtlərdə mövcud olmayan, ancaq bu qarışığın içində lazımlı bildikləri maddələri də bu çənlərə əlavə etsinlər. Qarışıqların içinə istədikləri qədər amin turşusu, istədikləri qədər də (bircə dənəsinin belə təsadüfən əmələ gəlmə ehtimalı $19^{950}$ olan) zülal doldursunlar. Bu qarışıqlara istədikləri nisbətdə temperatur və rütubət versinlər. Bunları istədikləri təkmilləşdirilmiş cihazlarla qarışdırsınlar. Çənlərin başında nəzarətçi kimi dünyanın qabaqcıl elm adamlarını qoysunlar. Bu mütəxəssislər atadan oğula, nəsildən-nəsilə ötürülərək növbə ilə milyardlarla, hətta trilyonlarla il davamlı olaraq çənlərin başında gözləsinlər. Bir canlının əmələ gəlməsi üçün hansı şərtlərin mövcud olmasını lazım bilirlərsə, hamısını tətbiq etməkdə sərbəst olsunlar. Ancaq nə etsələr də, o çənlərdən əsla bir canlı çıxara bilməzlər. Zürafələri, aslanları, arıları, sarı bülbülləri, tutuquşuları, atları, delfinləri, gülləri, səhləbçiçəklərini, zanbaqları, qərənfilləri, bananları, portağalları, almaları, xurmaları, pomidorları, qovunları, qarpızları, əncirləri, zeytunları, üzümləri, şaftalıları, tovuzquşlarını, qırqovulları, rəngarəng kəpənəkləri və bunlar kimi milyonlarla canlı növündən heç birini əmələ gətirə bilməzlər. Nəinki burada sadaladığımız bir neçə canlını, bunların bircə hüceyrəsini belə əldə edə bilməzlər.

Qısaca desək, şüursuz atomlar birləşərək hüceyrəni əmələ gətirə bilməzlər. Sonra yeni qərar verərək bir hüceyrəni iki yerə bölüb, sonra ard-arda başqa qərarlar verib elektron mikroskopunu icad edən, sonra öz hüceyrə quruluşunu bu mikroskop altında tədqiq edən professorları əmələ gətirə bilməzlər. Maddə ancaq Allahın üstün yaratması ilə həyat qazanır. Bunun əksini iddia edən təkamül nəzəriyyəsi isə ağıla tamamilə zidd cəfəngiyyatdır. Təkamülçülərin ortaya atdığı iddialar üzərində bir az düşünmək yuxarıdakı misalda göstərildiyi kimi bu həqiqəti üzə çıxarar.

**Göz və qulaqdakı texnologiya**

Təkamül nəzəriyyəsinin qətiyyən açıqlaya bilmədiyi digər məsələ isə göz və qulaqdakı üstün duyğu keyfiyyətidir.

Gözlə bağlı mövzuya keçməzdən əvvəl "Necə görürük?" sualına qısaca cavab verək. Bir cisimdən gələn şüalar gözdə tor qişaya tərsinə düşür. Bu şüaları buradakı hüceyrələr tərəfindən elektrik siqnallarına çevrilir və beyinin arxa hissəsindəki görmə mərkəzi adlanan kiçik nöqtəyə ötürülür. Bu elektrik siqnalları bir sıra ardıcıl proseslərdən sonra beyindəki bu mərkəzdə görüntü kimi şərh edilir. Bu məlumatdan sonra düşünək:

Beyin işığa qapalıdır. Yəni beyinin içi qapqaranlıqdır, işıq beyinin yerləşdiyi yerə girə bilməz. Görüntü mərkəzi adlanan yer qapqaranlıq, işığın düşmədiyi, bəlkə heç qarşılaşmadığınız qədər qaranlıq yerdir. Ancaq siz bu zülmət qaranlıqda işıqlı, aydın dünyanı seyr edirsiniz.

Üstəlik bu qədər aydın və keyfiyyətli görüntüdür ki, XIX əsrin texnologiyası belə hər cür imkanı olmasına baxmayaraq bu aydınlığı təmin edə bilmir. Məsələn, hal-hazırda oxuduğunu kitaba, kitabı tutan əllrəinizə baxın, sonra başınızı qaldırın və ətrafınızı seyr edin. Hal-hazırda gördüyünüz aydın və keyfiyyətli görüntünü başqa bir yerdə görmüsünüz? Bu qədər aydın görüntünü sizə dünyanın qabaqcıl televizor şirkətlərinin istehsal etiyi təkmilləşdirilmiş televizor ekranı belə verə bilməz. 100 ildən bəri minlərlə mühəndis bu aydınlığı əldə etmək üçün çalışır. Bunun üçün fabriklər, böyük müəssisələr qurulur, araşdırmalar aparılır, planlar və dizaynlar edilir. Bir televizor ekranına baxın, bir də hal-hazırda əlinizdə tutduğunuz bu kitaba. Arada böyük aydınlıq və keyfiyyət fərqi olduğunu görəcəksiniz. Həm də televizorun ekranı sizə iki ölçülü görüntü göstərir, lakin siz üç ölçülü, dərin görüntü izləyirsiniz.

Uzun illərdən bəri on minlərlə mühəndis üç ölçülü televizor hazırlamağa, gözün görmə keyfiyyətini əldə etməyə çalışırlar. Bəli, üç ölçülü televizor kimi sistem istehsal edə bildilər, amma onu da eynəksiz üç ölçülü görmək ümümkün deyil, həm də bu, süni üç ölçüdür. Arxa tərəf daha bulanıq, ön tərəf isə kağız dekorasiya kimi görünür. Heç bir zaman gözün gördüyü qədər aydın və keyfiyyətli görüntü əmələ gəlmir. Kamerada da, televizorda da mütləq görüntü itkisi baş verir.

Təkamülçülər bu keyfiyyətli və aydın görüntünü əmələ gətirən mexanizmin təsadüfən əmələ gəldiyini iddia edirlər. İndi birisi sizə otağınızdakı televizor təsadüflər nəticəsində əmələ gəldi, atomlar birləşdi və bu görüntünü əmələ gətirən aləti meydana gətirdi desə, nə düşünərsiniz? Minlərlə insanın birlikdə edə bilmədiyini şüursuz atomlar necə etsin?

Gözün gördüyündən daha bəsit görüntünü əmələ gətirən alət təsadüfən əmələ gəlmirsə, gözün və gözün gördüyü görüntünün də təsadüfən meydana gəlməyəcəyi çox açıqdır. Eyni vəziyyət qulağa da aiddir. Xarici qulaq ətrafdakı səsləri qulaq seyvanı vasitəsilə toplayıb daxili qulağa ötürür; daxili qulaq da bu titrəmələri elektrik siqnallarına çevirərək beyinə göndərir. Eynilə görmədə olduğu kimi eşitmə prosesi də beyindəki eşitmə mərkəzində həyata keçir.

Göz üçün dediklərimiz qulağa da aiddir, yəni beyin işıq kimi səsə də qapalıdır, səs keçirmir. Ona görə xarici aləm nə qədər hay-küylü olsa da, beyinin içi tamamilə səssizdir. Buna baxmayaraq, ən aydın səslər beyində eşidilir. Səs keçirməyən beyninizdə orkestrin simfoniyalarını dinləyir, tünlük mühitin bütün hay-küyünü eşidirsiniz. Amma o anda həssas bir cihazla beyninizin içindəki səs səviyyəsi ölçülsə, burada səssizliyin hakim olduğu məlum olacaqdır. Aydın görüntü əldə etmək ümidilə texnologiyadan necə istifadə edilirsə, səs üçün də eyni səylər on illərdən bəri davam etdirilir. Səsyazma cihazları, musiqi mərkəzləri, bir çox elektron alət, səs qəbul edən musiqi sistemləri bu fəaliyyətlərin nəticələrindən bəziləridir. Ancaq bütün texnologiyaya, bu texnologiyada işləyən minlərlə mühəndisə və mütəxəssisə baxmayaraq qulağın əmələ gətirdiyi qədər aydın və keyfiyyətli səs əldə edilməmişdir.

Ən böyük musiqi sistemi şirkətinin istehsal etdiyi ən keyfiyyətli musiqi mərkəzini düşünün. Səsi qeyd etdikdə mütləq səsin bir hissəsi itir, az da olsa təhrif olur və ya musiqi mərkəzini işə saldıqda hələ musiqi çalmazdan əvvəl mütləq bir cızıltı eşidirsiniz. Ancaq insan orqanizmindəki texnologiyanın məhsulu olan səslər olduqca aydın və qüsursuzdur. İnsan qulağı heç vaxt musiqi mərkəzində olduğu kimi cızıltılı və ya təhrif olunmuş şəkildə səs eşitmir; səs necədirsə, tam və aydın şəkildə onu eşidir. Bu vəziyyət insan yaradıldığı gündən bəri belədir. İndiyə qədər insanın istehsal etdiyi heç bir görüntü və səs cihazı göz və qulaq qədər həssas və keyfiyyətli qəbuledici olmamışdır. Ancaq görmə və eşitmə hadisəsində bütün bunların fövqündə çox böyük həqiqət də var.

### Beyinin içində görən və eşidən şüur kimə aiddir?

Beyinin içində parlaq, rəngli dünyanı seyr edən, simfoniyaları, quşların civiltilərini dinləyən, gülü qoxulayan kimdir?

İnsanın gözlərindən, qulaqlarından, burnundan gələn oyanmalar elektrik siqnalı kimi beyinə ötürülü. Biologiya, fiziologiya və ya biokimya kitablarında bu görüntünün beyində necə əmlə gəlməsinə dair bir çox şey oxuyursunuz. Ancaq bu mövzu haqqında ən mühüm həqiqətə heç bir yerdə rast gələ bilməzsiniz: beyində bu elektrik siqnallarını görüntü, səs, qoxu və hiss kimi qavrayan kimdir? Beyinin içində gözə, qulağa, buruna ehtiyac hiss etmədən bütün bunları qavrayan bir şüur var. Bu şüur kimə aiddir?

Əlbəttə, bu şüur beyini təşkil edən sinirlər, yağ təbəqəsi və sinir hüceyrələrinə aid deyil. Elə buna görə hər şeyin maddədən ibarət olduğunu zənn edən darvinist-materialistlər bu suallara heç cür cavab verə bilmirlər. Çünki bu şüur Allahın yaratdığı ruhdur. Ruhun görüntünü seyr etmək üçün gözə, səsi eşitmək üçün qulağa ehtiyacı yoxdur. Eyni zamanda düşünmək üçün beyinə də ehtiycı yoxdur.

Bu açıq və elmi həqiqəti oxuyan hər insan beyinin içindəki bir neçə kub santimetrlik, qapqaranlıq məkana bütün kainatı üç ölçülü, rəngli, kölgəli və işıqlı şəkildə sığışdıran uca Allahı düşünüb, Ondan qorxub Ona sığınmalıdır.

**Materialist inanc**

Bura qədər nəzərdən keçirdiklərimiz təkamül nəzəriyyəsinin elmi kəşflərlə üzə çıxan ziddiyyətli iddia olduğunu göstərir. Nəzəriyyənin həyatın mənşəyi haqqındakı iddiası elmə ziddir, irəli sürdüyü təkamül mexanizmlərinin heç bir təkamül gücü yoxdur və fosillər nəzəriyyənin iddia etdiyi ara keçid formalarının yaşamadığını göstərir. Bu halda, əlbəttə, təkamül nəzəriyyəsi elmə zidd fərziyyə kimi bir kənara qoyulmalıdır. Belə ki, tarix boyu dünya Yer mərkəzli kainat modeli kimi bir çox düşüncə elmin gündliyindən çıxarılmışdır. Amma təkamül nəzəriyyəsi təkidlə elmin gündəliyində saxlanılır. Hətta bəzi insanlar nəzəriyyənin tənqid edilməsini “elmə təcavüz” kimi göstərməyə çalışırlar. Axı niyə?.. Bunun səbəbi təkamül nəzəriyyəsinin bəzi kütlələr üçün ayrılmaz doqmatik inanc olmasıdır. Bu kütlələr materialist fəlsəfəyə kor-koranə bağlıdırlar və Darvinizmi də təbiət haqqında yeganə materialist açıqlama olduğu üçün mənimsəyiblər. Bəzən bunu açıq şəkildə etiraf edirlər. Harvard Universitetindən məşhur genetik və eyni zamanda qabaqcıl təkamülçülərdən olan Riçard Levontin “əvvəlcə materialist, sonra elm adamı” olduğunu belə etiraf edir:

Bizim materializmə bir inancımız var, bu “a priori” (əvvəlcədən qəbul edilmiş, doğru fərz edilmiş) inancdır. Bizi dünya haqqında materialist açıqlama verməyə məcbur edən şey elmi metodlar və qanunlar deyil. Əksinə, materializmə olan “a priori” bağlılığımız səbəbindən dünya haqqında materialist açıqlama verən tədqiqat metodları və anlayışlarını uydururuq. Materializm mütləq doğru olduğuna görə də İlahi açıqlamanaın səhnəyə çıxmasına icazı verə bilmərik.[61]

Bu sözlər darvinizmin materialist fəlsəfəyə bağlılıq uğrunda davam etdirilən bir doqma olduğunun açıq ifadəsidir. Bu doqma maddədən başqa heç bir varlıq olmadığını qəbul edir. Bu səbəbdən də cansız,  şüursuz maddənin həyatı əmələ gətirdiyinə inanır. Milyonlarla müxtəlif canlı növünün, məsələn, quşların, balıqların, zürafələrin, pələnglərin, həşəratların, ağacların, çiçəklərin, balinaların və insanların maddənin öz daxilindəki reaksiyalarla, yəni yağan yağışla, çaxan şimşəklə, cansız maddədən əmələ gəldiyini qəbul edir. Əslində isə bu həm ağla, həm elmə zidd qəbuldur. Amma

darvinistlər öz ifadələrilə "İlahi açıqlamanın səhnəyə çıxmaması" üçün bu qəbulu müdafiə etməkdə davam edirlər.

Canlıların mənşəyinə materialist düşüncə ilə baxmayan insanlar isə bu açıq həqiqəti görəcəklər: bütün canlılar üstün güc, bilik və ağla malik olan Yaradanın əsəridir. Yaradan bütün kainatı yoxdan var edən, ən qüsursuz şəkildə nizama salan və bütün canlıları yaradıb forma verən Allahdır.

**Təkamül nəzəriyyəsi dünya tarixinin ən təsirli sehridir**

Burada bunu da bildirmək lazımdır ki, heç bir ideologiyanın təsiri altında qalmadan, sadəcə ağlını və məntiqini işlədən hər insan elm və mədəniyyətdən uzaq cəmiyyətlərin xurafatlarını xatırladan təkamül nəzəriyyəsinə inanmağın mümkünsüz olduğunu asanlıqla anlayacaqdır.

Yuxarıda da bildirildiyi kimi, təkamül nəzəriyyəsinə inananlar böyük bir çənin içinə bir çox atomu, molekulu, cansız maddəni dolduran və bunların qarışığından zaman ərzində düşünən, dərk edən, kəşflər edən professorların, universitet tələbələrinin, Eynşteyn, Habl kimi elm adamlarının, Frank Sinatra, Çarlton Heston kimi sənətkarların, bununla yanaşı ceyranların, limon ağaclarının, qərənfillərin çıxacağına inanırlar. Həm də bu cəfəng iddiaya inananlar elm adamları, professorlar, mədəniyyətli, təhsilli insanlardır. Bu səbəbdən təkamül nəzəriyyəsi haqqında "dünya tarixinin ən böyük və ən təsirli sehri" ifadəsini işlətmək yerinə düşər. Çünki dünya tarixində insanların bu dərəcədə ağlını başından alan, ağıl və məntiqlə düşünmələrinə imkan verməyən, gözlərinin qarşısına sanki bir pərdə çəkib çox açıq olan həqiqətləri görmələrinə mane olan başqa inanc və ya iddia yoxdur. Bu, afrikalı bəzi qəbilələrin tomtemlərə, Səba xalqının Günəşə tapınmasından, Hz. İbrahimin qövmünün öz əllərilə düzəltdikləri bütlərə, Hz. Musanın qövmünün qızıldan düzəltdikləri buzova tapınmalarından daha qorxulu və ağlasığmaz korluqdur. Əslində bu vəziyyət Allahın Quranda işarə etdiyi ağılsızlıqdır. Allah bəzi insanların anlayışlarının qapanacağını və həqiqətləri görməkdən məhrum olacağını bir çox ayəsində bildirir. Bu ayələrdən bəziləri belədir:

**Həqiqətən, kafirləri əzabla qorxutsan da, qorxutmasan da, onlar üçün birdir, iman gətirməzlər. Allah onların ürəyinə və qulağına möhür vurmuşdur. Gözlərində də pərdə vardır. Onları böyük bir əzab gözləyir! (Bəqərə surəsi, 6-7)**

**... Onların qəlbləri vardır, lakin onunla anlamazlar. Onların gözləri vardır, lakin onunla görməzlər. Onların qulaqları vardır, lakin onunla eşitməzlər. Onlar heyvan kimidirlər, bəlkə də, daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır! (Əraf surəsi, 179)**

Allah Hicr surəsində də bu insanların möcüzələr görsələr də, inanmayacaq qədər sehrləndiklərini belə bildirir:

**Əgər onlara göydən bir qapı açsaq və oradan durmadan yuxarı dırmaşsalar yenə də: "Gözümüz bağlanmış, biz sehrlənmişik", - deyərlər. (Hicr surəsi, 14-15)**

Bu qədər geniş kütləyə bu sehrin təsir etməsi, insanların həqiqətlərdən bu qədər uzaq saxlanması və 150 ildən bəri bu sehrin pozulmaması isə sözlə ifadə edilməyəcək qədər heyrətli vəziyyətdir. Çünki bir və ya bir neçə insanın mümkünsüz ssenarilərə, cəfəng və məntiqdənkənar iddialara inanmaları başa düşülə bilər. Ancaq dünyanın hər tərəfindəki insanların şüursuz və cansız atomların ani qərarla birləşib qeyri-adi təşkilatlanma, nizam, ağıl və şüur nümayiş etdirərək qüsursuz sistemlə işləyən kainatı, canlılara uyğun hər cür xüsusiyyətə malik olan Yer planetini və saysız-hesabsız kompleks sistemdən ibarət canlıları meydana gətirdiyinə inanmasının "sehr"dən başqa heç bir açıqlaması yoxdur.

Belə ki, Allah Quranda inkarçı fəlsəfənin tərəfdarı olan bəzi şəxslərin etdikləri sehrlərlə insanlara təsir etdiklərini Hz. Musa ilə Firon arasında baş verən bir hadisə ilə bizə bildirir. Hz. Musa Firona haqq dini təbliğ etdikdə Firon Hz. Musaya öz "bilici sehrkarları" ilə insanların toplaşdığı bir yerdə qarşılaşmasını söyləyir. Hz. Musa sehrkarlarla qarşılaşdıqda sehrkarlara əvvəlcə onların bacarıqlarını göstərməsini əmr edir. Bu hadisənin danışıldığı ayə belədir:

**(Musa) "Siz atın" - dedi. Onlar (əsalarını yerə) atdıqda, adamların gözlərini bağlayıb (sehrləyib) onları qorxutdular və böyük bir sehr göstərdilər. (Əraf surəsi, 116)**

Göründüyü kimi, Fironun sehrkarları etdikləri "göz bağlayıcılıqla" Hz. Musa və ona inananlardan başqa insanların hamısını sehrləyə bilmişdilər. Ancaq onların atdıqlarına qarşı Hz. Musanın ortaya qoyduğu dəlil onların bu sehrini, ayədəki ifadə ilə "uydurduqlarını udmuş", yəni təsirsiz etmişdir:

**Biz də Musaya: "Əsanı tulla!" - deyə vəhy etdik. Bir də (baxıb gördülər ki) əsa onların uydurub düzəltdikləri bütün şeyləri udur. Artıq haqq zahir, olanların uydurub düzəltdikləri yalanlar isə batil oldu. (Sehrbazlar) orada məğlub edildilər və xar olaraq geri döndülər. (Əraf surəsi, 117-119)**

Ayələrdə də bildirildiyi kimi, əvvəllər insanlara sehrləyərək təsir göstərən bu şəxslərin etdiklərinin saxtakarlıq olmasının başa düşülməsi ilə sözügedən şəxslər alçalmışlar. Dövrümüzdə də bir sehrin təsirindən elmilik adı altında olduqca cəfəng iddialara inanan və bunları müdafiə etmək üçün həyatlarını qurban verənlər əgər bu iddialardan əl çəkməsələr, hqəiqətlər tam mənası ilə üzə çıxdıqda və "sehr pozulduqda" alçalacaqlar. Belə ki, təqribən 60 yaşına qədər təkamülü müdafiə edən və

ateist filosof olan, ancaq sonradan həqiqətləri görən Malkolm Maqeric təkamül nəzəriyyəsinin yaxın gələcəkdə düşəcəyi vəziyyəti belə açıqlayır:

Mən özüm təkamül nəzəriyyəsinin xüsusilə tətbiq edildiyi sahələrdə gələcəyin tarix kitablarındakı ən böyük yumor hədəflərindən biri olacağına inandım. Gələcək nəsillər bu qədər çürük və qeyri-müəyyən hipotezin inanılmaz saflıqla qəbul edilməsini heyrətlə qarşılayacaqlar.[62]

Bu gələcək uzaq deyil, əksinə, çox yaxın gələcəkdə insanlar "təsadüflərin" ilah olmasının mümkünsüzlüyünü anlayacaqlar və təkamül nəzəriyyəsi dünya tarixinin ən böyük yalanı və ən güclü sehri kimi tərif ediləcəkdir. Bu güclü sehr böyük sürətlə dünyanın hər tərəfində insanlar üzərində təsirini itirməyə başlamışdır. Təkamül yalanının sirrinin öyrənən bir çox insan bu yalana necə aldandığını heyrət və təəccüblə fikirləşir.

**Onlar: "Sən paksan, müqəddəssən! Sənin bizə öyrətdiklərindən başqa biz heç bir şey bilmirik. (Hər şeyi) bilən Sən, hikmət sahibi Sənsən", - dedilər. (BƏQƏRƏ SURƏSİ, 32)**

## QEYDLƏR


1. Frederick Vester, Düşünmek, Öğrenmek, Unutmak, İstanbul: Arıtan Yayınevi, 1991, s. 6

2. Bilim ve Teknik, Klaus Budzinski, P.M. den tercüme, sayı 227, s. 6-7

3. R.L.Gregory, Eye and Brain: The Psychology of Seeing, Oxford University Press Inc. New York, 1990, s.9

4. Lincoln Barnett, Evren ve Einstein, Varlık Yayınları,Çev: Nail Bezel, s.20

5. Bertrand Russell, Rölativitenin Alfabesi, Onur Yayınları, 1974, s.161-162

6. "Treaties Concerning the Principle of Human Knowledge", 1710, Works of George Berkeley, vol. I, ed. A. Fraser, Oxford, 1871, s.35-36

7. "Treaties Concerning the Principle of Human Knowledge", 1710, Works of George Berkeley, vol. I, ed. A. Fraser, Oxford, 1871

8. Karl Pribram, David Bohm, Marilyn Ferguson, Fritjof Capra, Holografik Evren I, Çev: Ali Çakıroğlu, Kuraldışı Yayınları, İstanbul: 1996, s.37

9. İmam Rabbani, Hz. Mektupları, Cilt II, 357. Mektup, s. 163

10. Abdülhakim Bilge, "Mutlak Varlık, Gölge Varlık ve Yokluk", Arafiyan Dergisi, Kasım 1994

11. François Jacob, Mümkünlerin Oyunu, Kesit Yayınları, 1996, s. 111

12. Lincoln Barnett, Evren ve Einstein, Varlık Yayınları, 1980, s. 52-53

13. Lincoln Barnett, Evren ve Einstein, s. 17

14. Lincoln Barnett, Evren ve Einstein, s. 58

15 Paul Strathern, Einstein ve Görelilik Kuramı, Gendaş Yayınları, 1997, s. 57

16. Isaac Asimov, "Frontiers"

17. Lincoln Barnett, Evren ve Einstein, Varlık Yayınları, 1980, s. 17-18

18. Sidney Fox, Klaus Dose, Molecular Evolution and The Origin of Life, Marcel Dekker, New York, 1977, s. 2.

19. Alexander I. Oparin, Origin of Life, Dover Publications, New York, 1936, 1953 (yeni baskı), s.196.

20. "New Evidence on Evolution of Early Atmosphere and Life", Bulletin of the American Meteorological Society, cilt 63, Kasım 1982, ss. 1328-1330.

21. Stanley Miller, Molecular Evolution of Life: Current Status of the Prebiotic Synthesis of Small Molecules, 1986, s. 7.

22. Jeffrey Bada, Earth, Şubat 1998, s. 40.

23. Leslie E. Orgel, "The Origin of Life on Earth", Scientific American, cilt 271, Ekim 1994, s. 78.

24. Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, s. 189.

25. Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, s. 184.

26. B. G. Ranganathan, Origins?, The Banner Of Truth Trust, Pennsylvania, 1988.

27. Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, s. 179.

28. Derek A. Ager, "The Nature of the Fossil Record", Proceedings of the British Geological Association, cilt 87, 1976, s. 133.

29. Douglas J. Futuyma, Science on Trial, Pantheon Books, New York, 1983, s. 197.

30. Solly Zuckerman, Beyond The Ivory Tower, To plinger Publications, New York, 1970, 75-94; Charles E. Oxnard, "The Place of Australopithecines in Human Evolution: Grounds for Doubt", Nature, cilt 258, s. 389.

31. J. Rennie, "Darwin's Current Bulldog: Ernst Mayr", Scientific American, Aralık 1992.

32. Alan Walker, Science, cilt 207, 1980, s. 1103; A. J. Kelso, Physical Antropology, 1. baskı, J. B. Lipincott Co., New York, 1970, s. 221; M. D. Leakey, Olduvai Gorge, cilt 3, Cambridge University Press, Cambridge, 1971, s. 272.

33. Time, Kasım 1996.

34. S. J. Gould, Natural History, cilt 85, 1976, s. 30.

35. Solly Zuckerman, Beyond The Ivory Tower, New York: Toplinger Publications, 1970, s. 19

36. Richard Lewontin, "The Demon-Haunted World", The New York Review of Books, 9 Ocak 1997, s. 28.

37. Malcolm Muggeridge, The End of Christendom, Grand Rapids: Eerdmans, 1980, s. 43.

İnsan sonsuzluq anlayışını çox vaxt tam olaraq qavraya bilmir. Çünki həyatı boyunca həmişə məhdud zaman dilimləri ilə, məhdud uzaqlıq ya da böyüklüklərlə düşünür. Allah isə elə böyük bir elmə malikdir ki, insanın qavramaqdan aciz qaldığı sonsuzluq Onun Qatında sona çatmışdır. Bizim üçün sonsuzluq əsla çatıla bilməyəcək kimi görünər, amma əslində Allah Qatında sonsuzluq bir andır…

Bu kitabda sonsuzluq, zamansızlıq, məkansızlıq mövzularında heç bir yerdə tapa bilməyəcəyiniz izahları oxuyacaq və sonsuzluğun əslində başlamış olduğu həqiqəti ilə qarşılaşacaqsınız. Beləcə, Allahın ucalığını, böyüklüyünü və yaratma sənətini bir daha təqdir etmə fürsəti əldə edəcəksiniz. İnsanların hər vaxt maraqlandığı Allahın harada olduğu, ölümün mahiyyəti, öldükdən sonra yenidən dirilmə, insan üçün sonsuz bir həyatın varlığı, bütün bunların nə vaxt olacağı kimi bir çox problemin də cavabını tapacaqsınız.

Bu kitabı diqqətlə oxuyun. Buradakı şərhlər həmişə "zahiri ilə", yəni görünən üzü ilə düşünməyə alışdığımız dünyanın "batini"ni, yəni gizli həqiqətini izah edir.